ევროკავშირი საქართველოსთვის

# İnsan hüquqlarına əsaslanan üsuldan istifadə etməklə Samtsxe-Cavaxeti və Kvemo Kartlidə mövcud olan sosial xidmətlər kontekstinin təhlili

07/2022

QVEMOQARTLI.GE
THE FIRST EUROPEAN

კვლევა მომზადებულია ევროკავშირის მიერ მხარდაჭერილი პროექტის „სამოქალაქო საზოგადოების გაძლიერება ინკლუზიური და მწვანე პოსტ-კოვიდ აღდგენისთვის“ ფარგლებში, რომელსაც ახორციელებს CENN, და ის, შესაძლოა, არ გამოხატავდეს ევროკავშირის შეხედულებებს.

**კვლევის ავტორი:** სოციალური კვლევისა და ანალიზის ინსტიტუტი (ISSA)

07/2022

# MÜNDƏRICAT

**Rezyume (Xülasə)** ..... **4**

**Metodologiya** ..... **5**

İnsan hüquqlarına əsaslanan yanaşma (HRBA) ..... 5

Keyfiyyət araşdırması ..... 6

**Başlıq1. Sosial xidmətlər sahəsində beynəlxalq, milli və yerli qanunvericilik, mövcud təcrübə əsasında insan hüquqlarına əsaslanan yanaşmanın təhlili** ..... **7**

1.1 Sosial xidmətlərə ehtiyacı olan, hüquq daşıyıcısı və öhdəlikləri olan qrupların müəyyən edilməsi ..... 7

1.2.Gürcüstanın beynəlxalq kontekstdə hüquq sahibi olan qruplar qarşısında öhdəlikləri ..... 22

1.3.Gürcüstanın hüquq müdafiə qrupları ilə bağlı milli qanunvericilik çərçivəsi ..... 23

1.4.Gürcüstanda hüquq müdafiə qrupları ilə bağlı , mərkəzi və yerli səviyyədə mövcud olan sosial xidmətlər ..... 25

1.5.İnsan hüquqlarına əsaslanmış yanaşmanın beş əsas iş prinsipini nəzərə almaqla qüvvədə olan qanunvericilik və mövcud təcrübənin təhlili ..... 44

**Başlıq 2. Hədəf bələdiyyələrdə mövcud olan kommunal infrastrukturun qiymətləndirilməsi** ..... **58**

**Başlıq 3. İqlim dəyişikliyi və ondan yaranmış sağlamlıq problemləri** ..... **59**

**Başlıq 4. Əsas nailiyyətlər və tövsiyələr** ..... **60**

**Əlavə #1 Fokus-qrupda iştirak edən təşkilatların siyahısı** ..... **63**

**Əlavə #2 Keyfiyyət araşdırması çərçivəsində istifadə olunmuş vasitələr** ..... **63**

# REZYUME (XÜLASƏ)

Kontekstin təhlil sənədində insan hüquqlarına əsaslanan yanaşma ilə Samtsxe-Cavaxeti (Axaltsixe, Ninotsminda bələdiyyələri) və Kvemo Kartlinin (Bolnisi, Qardabani, Dmanisi, Tetritskaro, Marneuli, Tsalka bələdiyyələri) sosial xidmətlərinin planlaşdırılması, həyata keçirilməsi, hesabat verilməsinin hüquqi və mövcud təcrübəsi qiymətləndirilib.

Təhlil sənədinin əsasını Gürcüstan hökumətinin beynəlxalq öhdəliklərin bir hissəsi kimi qəbul etdiyi və icra edilməsinə həm mərkəzi, həm də yerli hökumətlərin cavabdeh olduğu, insan hüquqlarının hüquqi və institusional çərçivəsi təşkil etmişdir. Sənəd yerli bələdiyyələrdə mövcud olan, mərkəzi hakimiyyətin sosial xidmətlər sahəsinə həvalə etdiyi (yerli və mərkəzi hökumət insan hüquqlarına əsaslanan yanaşmaya uyğun olaraq məsuliyyət daşıyan qrup kimi təqdim olunur) proqramları və vətəndaş ictimai təşkilatlarının, Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Gürcüstan Dövlət Naziri Aparatının, Gürcüstan Xalq Müdafiəçisinin bu proqramlara münasibətini təhlil edir; Vətəndaş cəmiyyəti təşkilatları hüquqa sahib olan qrup kimi təmsil olunurlar. Kontekst analizində eləcə də hüququ olan və cavabdehlik daşıyan qruplarla aparılmış fokus-qrup və üç dərin müsahibənin nəticələri də təqdim olunub. Həmçinin, sənəddə hədəf bələdiyyələrin əhalisi ilə aparılmış kəmiyyət araşdırmasının nəticələri də təsvir olunub.

Kontekst təhlili yerli səviyyədə hüququ olan qrupların öz hüquqlarını həyata keçirərkən qarşılaşdıqları problemləri əsas nəticələr şəklində ümumiləşdirir və bu hüquqların həyata keçirilməsi mexanizmlərini təkmilləşdirmək üçün məsul qruplara müvafiq tövsiyələr verir.

## METODOLOGIYA

Kontekst analizinin məqsədi insan hüquqlarına əsaslanan yanaşmanın (Human Rights Based Approach – HRBA) 5 əsas prinsipinə söykənərək, ölkənin milli və yerli səviyyədə (Samtsxe-Cavaxeti və Kvemo Kartlidə) sosial xidmətlərlə təmin edilməsi baxımından hüquqi, mövcud təcrübəsinin analizi idi. Kontekst analizi çərçivəsində insan hüquqlarına əsaslanan əsas prinsiplərlə əlaqələndirilən beynəlxalq, milli və yerli hüquqi sənədlər müzakirə olundu. Eləcə də mövcud təcrübənin yaxşı tanıdılması məqsədi ilə hədəf bələdiyyələrdə fokus-qruplar keçirildi. Bunun nəticəsində müvafiq tədqiqatlar və tövsiyələr hazırlandı.

## İNSAN HÜQUQLARINA ƏSASLANAN YANAŞMA (HRBA)

İnsan hüquqlarına əsaslanan yanaşma (Sonradan – HRBA) insan hüquqlarının beynəlxalq hüquq əsasında hazırlanmış konseptual çərçivəsidir. Bu çərçivədən advokatlaşdırma, eləcə də hüquq və məqsədli proqramların hazırlanması zamanı istifadə olunur[1]. HRBA yanaşma ilə qanunvericilik çərçivəsində, eləcə də mövcud təcrübədə öhdəliklərin, bərabərsizliyin, həssaslığın, diskriminasiya tərkibli yanaşmaların müəyyən edilməsi mümkündür. HRBA əsas iş prinsipləri qeyd olunan insan hüquqları standartlarına və prinsiplərinə əsaslanır: Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqlarının Ümumi Bəyannaməsi[2] (1948), İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiə Konvensiyası[3] (1950) və Avropa İttifaqının Əsas Hüquqlar Xartiyası[4] (2000).

HRBA siyasət formalaşdırarkən iki tərəfin uyğunluğunu müəyyən edir:

- ➔ **Hüquq sahibləri (rights holders)** – insan qrupu (xüsusilə həssas vəziyyətdə olan şəxslər) və onların maraqlarını müdafiə edən ictimai təşkilatlar. Həmin təşkilatlar öz hüquqları barədə məlumatlı olmalıdırlar və onların həmin hüquqların həyata keçirilməsi üçün uyğun imkanları olmalıdır, insanın ümumi tanınmış hüquqlarını nəzərə almaqla, zorakılıq, ayrı-seçkliyin bütün formalarından müdafiə olunmalıdırlar.
- ➔ **Cavabdehlik daşıyanlar (duty bearers)** – dövlət – insanın ümumi tanınmış hüquqlarına hörmət etmək, qorumaq və təmin etmək öhdəliyi daşıyan mərkəzi və yerli institutlar.

İnsan hüquqlarına əsaslanan yanaşma beş əsas iş prinsipinə söykənir, onlar PANEL (Participation, Accountability, Non-discrimination and Equality, Empowerment, Legality) adı ilə tanınır.

- ➔ **İştirak (Participation)** – İnsanların öz hüquqlarına və rifahına birbaşa təsir edən qərarların qəbulunda iştirak etmək və ya qərar qəbul etmələrinə kömək etmək üçün başqa insanları cəlb etmək hüququ var. İştirak fəal, müstəqil, düşünülmüş və əlçatan olmalıdır. Həmçinin, hədəf qruplara aydın olan dildə və

1 European Commission, Applying the Human Rights Based Approach to international partnerships, Brussels, 30.6.2021 - https://international-partnerships.ec.europa.eu/system/files/2021-07/swd-2021-human-right-based-approach_en.pdf

2 İnsan Hüquqlarının Ümumi Bəyannaməsi, BMT-nin Baş Assambleyası , 1948 - https://www.supremecourt.ge/files/upload-file/pdf/aqtebi3.pdf

3 İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi Konvensiyası, Avropa Şurası, 1950 - https://matsne.gov.ge/ka/document/view/1208370?publication=0

4 Avropa İttifaqının Əsas Hüquq Xartiyası, Avropa Şurası, 2000 - https://www.echr.coe.int/documents/handbook_non_discri_law_kat.pdf

formada məlumat əlçatanlığı da nəzərdə tutulur.

- **Hesabatlılıq (Accountability)** – İnsan hüquqları standartlarının effektiv monitorinqini, eləcə də insan hüquqlarının pozulması faktlarının qarşısının alınması üçün effektiv mexanizmləri nəzərdə tutur.
- **Diskriminasiyanın qadağan edilməsi və bərabərlik (Non-discrimination and Equality)** – yaş, gender əlaməti, cinsi istiqamət, etnik mənsubiyyət, sağlamlıq vəziyyəti, iqtisadi vəziyyət və ya başqa əlamətlə diskriminasiyanın hər hansı formasının qadağan edilməsi. Öz hüquqlarını həyata keçirən zaman qarşısında əlavə maneələr olan həssas vəziyyətli şəxslərin identifikasiyasına xüsusi aksent edilməlidir.
- **Gücləndirmə (Empowerment)** – insanlar və onların hüquqlarını müdafiə edən qruplar öz hüquqları barədə məlumatlı olmalıdırlar və birbaşa onların hüquqlarının həyata keçirməslərinə təsir göstərən siyasət, təcrübə yaradarkən dəstək əldə etməlidirlər.
- **Qanunauyğunluq (Legality)** - insanın ümumi tanınmış hüquqları insan hüquqlarının müdafiəsi haqqında milli və beynəlxalq qanunların ahənginə uyğun olmalıdır.

## KEYFIYYƏT ARAŞDIRMASI

**Fokus-qrup:**

Kontekst analizi çərçivəsində hüquq müdafiəçisi qruplarının nümayəndələri ilə bir fokus-qrup keçirildi. Onlar yerli ictimai təşkilatlarda birləşiblər.

Fokus-qrup onlayn platforma (Zoom) vasitəsi ilə keçirilib və beş ictimai təşkilat nümayəndələri fokus-qrupda iştirak ediblər. Müzakirənin audio/video materialları qeydə alınıb. Görüş başlamazdan əvvəl iştirakçılara araşdırmanın məqsədi haqqında məlumat verilib.

**Dərin müsahibələr:**

Kontekstin analizi çərçivəsində cavabdehlik daşıyan tərəflərlə 2, hüquq sahibi olan qrupun maraqlarını təmsil edən ictimai təşkilatla 1 dərin müsahibə yazılıb.

Həmçinin, audio/video formatda dərin müsahibələr yazılıb. Görüş başlamazdan əvvəl müsahiblərə araşdırmanın məqsədi haqqında məlumat verilib.

Keyfiyyət araşdırması çərçivəsində istifadə edilən vasitələrə və iştirakçı təşkilatların siyahısına əlavədə baxa bilərsiniz.

# BAŞLIQ 1. SOSIAL XIDMƏTLƏR SAHƏSINDƏ BEYNƏLXALQ, MILLI, YERLI QANUNVERICILIK VƏ MÖVCUD TƏCRÜBƏ ƏSASINDA INSAN HÜQUQLARINA ƏSASLANAN YANAŞMANIN ANALIZI

## 1.1. Sosial xidmətlərə ehtiyacı olan, hüquq sahibi və öhdəlikləri olan qrupların müəyyən edilməsi

### Giriş

Sosial dəstək müxtəlif müəlliflər tərəfindən müxtəlif şəkildə izah edilir. Ancaq onların hamısı üçün başlanğıc nöqtəsi sualın cavabıdır: ictimaiyyətin ya hakimiyyətin fərdin sosial-iqtisadi vəziyyətinin, sağlamlığının qorunub-saxlanılmasındakı rolu necədir?

Sosial dəstək – bu başqa adamların, eləcə də institutların tərəfindən stresslə mübarizə aparmaq məqsədi ilə şəxsə göstərilmiş müxtəlif növ dəstəkdir, bu maddi, sosial-emosional və ya məlumat baxımından göstərilən dəstək də ola bilər.

Sosial dəstək – bu stressdə olan adamlara yönəlmiş yardımdır və həmin şəxsə tək olmadığını, onun haqqında düşündüklərini, onu sevdiklərini, təcrid, özünə qapanma əvəzinə ətrafındakılarla münasibətə, qarşılıqlı öhdəlik şəbəkəsinə qoşulduğunu göstərir[5].

Hər hansı dövlət və ya yerli özünüidarə orqanı, eləcə də əlaqəmiz olan insanlar: ailə üzvləri, dostlar, əməkdaşlar və s. sosial dəstək mənbəyinə çevrilə bilər;

Sosial dəstək həssas vəziyyətdə olan şəxsin və ya insan qrupunun sosial fəaliyyətini yüksəltmək məqsədi daşıyan xidmətdir. Konkret olaraq, onların potensialını həayata keçirmək üçün əlverişli şəraitin yaradılması və sosial inteqrasiyadır. Sosial xidmət hüquq və potensialın həyata keçirilməsi üçün lazım olan, fərdi, sosial imkanların yaradılmasına istiqamətlənir. Məhdudlaşdırılmış imkanlar, yaşlılıq, tək valideyn olmaq, sağlamlıq vəziyyətinin pisləşməsi, işsizlik, qaçqınlıq və s. həssaslıq riskini artıran faktorlardır.

Sosial xidmətin iki əsas istiqaməti var:

- Əsas ehtiyacların təmin edilməsi;
- İnkişaf və potensialının həyata keçirilməsinə istiqamətlənmiş dəstək.

Əsas ehtiyacların təmin edilməsinə istiqamətlənmiş xidmətlər bunlardır: qayğı, qulluq, qida subsidiyası, birdəfəlik sosial dəstək xidmətləri, gigiyena və sanitariyanın təmin edilməsi və s.

İmkanların inkişafı və potensialın həyata keçirilməsinə yönəlmiş xidmtələr bunlardır: İşlə təmin etməyə dəstək, təhsil və peşə hazırlığı, sosial yaşayış yeri ilə təmin etmək, əmək bazarına inteqrasiya və s.

Müsahiblərin sosial və iqtisadi problemlərini müəyyən edən baza tədqiqatının nəticələri də qeyd olunan baza ehtiyacları, imkanlarının inkişafının vacib olduğunu göstərir.

Hədəf bələdiyyələrdə sakinlərlə aparılmış fokus-qruplarda əsas sosial və iqtisadi problem olaraq işsizlik,

5 Gehrig; Zimbardo (2009) Psixologiya və Həyat. TDU, Tbilisi

yoxsulluq, ilkin istifadə məhsullarının (ərzaq, dərmanlar) qiymətinin və kommunal vergilərin artırılması qeyd olunub. Araşdırma nəticəsində müəyyən olub ki, əhalinin əsas problemlərindən biri işsizlikdir. Bu gənclər arasında xüsusilə ciddi problem olaraq mövcuddur. Etnik azlıq nümayəndələrinin bir hissəsinin qiymətləndirməsinə görə, gürcülərlə müqayisədə sosial inteqrasiyanın aşağı səviyyədə olmasına görə, onların işlə təmin edilmək üçün imkanları daha azdır. Mövcud reallığı nəzərə almaqla, bələdiyyələrin işlə təmin etmə proqramları üzərində işləməsi mühümdür. Müsahiblərin qiymətləndirməsinə görə, potensial işçilərlə əlaqə saxlamalıdırlar, işlə təmin etmə forumları keçirilməlidir və bu yalnız formal xarakterli deyil, real nəticə əldə etməyə istiqamətlənmiş olmalıdır.

Fokus-qruplar çərçivəsində gəlirlərin növbəti əsas mənbələri bölünüb: dövlət və özəl xidmtələrdə işlə təmin olunmaqla əldə edilmiş əməkhaqqı və dövlət sosial yardımları; Müzakirələrdə iştiak edən aztəminatlılar qeyd edib ki, mövcud iqtisadi vəziyyəti nəzərə almaqla, birdəfəlik işlərdə də qeyri-formal işlə təmin olunurlar. Bu kimi qərarlar rəsmi işlə təmin edilmə halında onların aztəminatlı statusunu, kiçik, amma stabil gəlirlərini itirmək riskinin olmasına görə yaranıb.

Kəmiyyət araşdımasının nəticələri göstərir ki, hədəf regionların əhalisi subyektiv qavrayış, eləcə də obyektiv göstəricilərə (ailələrin gəliri) görə, iqtisadi baxımdan həssasdır. Konkret olaraq, Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin əksəriyyəti (70%-ə yaxın), Kvemo Kartlidə sorğuda iştirak edən hər ikinci nəfər qeyd edir ki, ailə gəlirləri yalnız yemək və geyim almağa xərclənir (Bax. Cədvəl #1).

**Cədvəl #1**

| İndi sizi bir neçə bəndlə tanış edəcəyəm. Xahiş edirəm, hansı ifadə sizin ailənizi lap yaxşı təsvir edir? (Regionun konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Pulumuz yeməyə kifayət edir | 37.7% | 19.5% |
| Bizim yemək üçün kifayət qədər pulumuz var, amma paltar və ayaqqabı almaq üçün pula qənaət etməli ya borc götürməli oluruq | 31.2% | 28.4% |
| Bizim yemək, gündəlik paltar və ayaqqabı almaq üçün kifayət qədər pulumuz var. Amma yaxşı geyim, mobil telefon, tozsoran və digər məişət texnikası almaq üçün pula qənaət etməli ya borc götürməli oluruq | 19.3% | 34.9% |
| Bizim yemək, gündəlik geyim və ayaqqabı üçün kifayət qədər pulumuz var. Amma maşın və ya mənzil almaq üçün pula qənaət etməli ya da borc almalıyıq | 10.2% | 12.3% |
| Biz istədiyimiz an, istədiyimiz hər şeyi əldə edə bilərik | 0.8% | 1.4% |
| Cavab verməkdən imtina edirəm/Cavab verməkdə çətinlik çəkirəm | 0.8% | 3.5% |

Samtsxe-Cavaxeti və Kvemo Kartli regionlarında (Milli Statistika Xidmətinin göstəricilərinə görə) ailələrin orta hesabla təxminən 4 üzvdən ibarət olduğunu, bu sayda ailələrin orta gəlirinin təxminən 340 lari olduğunu nəzərə alsaq, ailələrin orta gəliri əsasında (MEAN Samtsxe-Cavaxetidə 1070 lari, Kvemo Kartlidə 893 lari təşkil edir) nəticə çıxara bilərik ki, hədəf region əhalisinin əksəriyyətinin gəliri minimum gəliri aşır, ancaq iqtisadi vəziyyət orta səviyyəyə çatmır.

Keyfiyyət araşdırması göstərib ki, Samtsxe-Cavaxetinin əhalisinin işlə təmin olunan qismi (45%) Kvemo Kartli regionunda (35%) işləyənlərdən (özünüməşğullar da daxil olmaqla) artıqdır. Müvafiq olaraq, işsizlərin sayı Kvemo Kartlidə (21%) Samtsxe-Cavaxetidən (16%) daha çoxdur. (Bax. Cədvəl #2). Qeyd etmək lazımdır ki, işsizliyin bu göstəricisi Milli Statistika Xidmətinin 2021-ci il məlumatlarına yaxındır (Kvemo Kartli – 25%; Samtsxe-Cavaxeti – 15%).

**Cədvəl #2**

| Müsahibin iş statusu (Əsas fəaliyyət nəzərdə tutulur) (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Dövlət sektorunda işlə təmin edilmiş | 18.5% | 15.1% |
| Özəl sektorda işlə təmin edilmiş | 12.7% | 5.4% |
| Özünüməşğul (İş verən) | 3.4% | 1.9% |
| Özünüməşğul (Sahibkar, təsərrüfatçı, peşə ilə məşğul olan şəxs) | 10.8% | 12.2% |
| Təqaüdçü | 18.4% | 17.5% |
| Analıq məzuniyyətində olan | 0.1% | - |
| Evdar xanım | 14.6% | 22.7% |
| Tələbə | 3.9% | 1.6% |
| Hazırda işsiz | 15.6% | 18.8% |
| Heç vaxt işləməyib | 0.6% | 1.9% |
| Başqa | 1.4% | - |
| Cavab verməkdən imtina edirəm | - | 3% |

Gürcüstan Konstitusiyasının 5-ci maddəsinə görə, Gürcüstan ictimaiyyətdə sosial ədalət, bərabərlik və həmrəylik prinsipilərinə dəstək göstərmənin qayğısına qalan sosial dövlətdir[6].

HRBA, bir tərəfdən insanın ümumi hüquqlarını tanıyır, digər tərəfdən isə onları ölkənin davamlı inkişaf baxışları və prioritetləri ilə əlaqələndirir. HRBA-ya əsasən, müvafiq qruplar hüquq sahibləri və cavabdehlik daşıyan qrupların müəyyən edilməsi zamanı sosial xidmətlər baxımından yalnız müəyyən edilmiş mövcud qanunvericiliyə diqqət yetirməməlidir, həm də mövcud işlərin idarə edilməsi təcrübəsinə də diqqət yetirilməlidirlər.

## Hüquq sahibləri (right holders)

İnsan hüquqlarına əsaslanan yanaşma prinsipləri və Gürcüstan qanunvericilik bazasını nəzərə almaqla sosial yardım almaq və həssaslıqla bağlı hüquq sahibi olan qruplar və bu qrupların maraqlarına dəstək olan ictimai təşkilatlar müəyyən edilib.

Hüquq sahibi olan qruplar: (Ümumiyyətlə, bu qruplarda insanlar, vətəndaş sektoru birləşir. Ancaq araşdırmanın maraqlarından irəli gələrək həssas vəziyyətdə olan adamlara aksent edilir).

"Sosial yardım haqqında" Gürcüstan qanununun 2-ci maddəsinə əsasən, Gürcüstanda qanuna əsasən həmişəlik yaşayan – xüsusi qayğıya ehtiyac duyan şəxslər, yoxsul ailələr və evsiz şəxslər dövlətdən sosial yardım alan şəxs olaraq müəyyən ediliblər.

1. **Xüsusi qayğıya ehtiyac olan şəxslər olaraq qanun aşağıda sadalanan həssas qrupları müəyyən edir:**

    1.1. Yetim və valideyn himayəsindən kənar qalmış uşaqlar;

    1.2. Fiziki imkanları məhdud şəxs – Gürcüstanın "Tibbi-sosial ekspertiza haqqında" qanununa uyğun

6 Gürcüstan Konstitusiyası, 5-ci maddə https://matsne.gov.ge/ka/document/view/30346?publication=36

olaraq həmin status verilmiş şəxs;

1.3. Ailə himayəsindən kənar qalmış, məhdud qabiliyyətli olan, yetkinlik yaşına çatmış şəxs;

1.4. Ailə başçısını itirmiş şəxs – bir və ya hər iki valideyni dünyasını dəyişmiş 18 yaşa qədər övlad (övladlar);

1.5. Sahibsiz uşaq – küçədə yaşayan, yetkinlik yaşına çatmamış və ya küçədə işləyən yetkinlik yaşına çatmamış, sosial işçi tərəfindən bu vəziyyətdə müəyyən edilmiş, uşağın müdafiəsi ilə bağlı müraciət (istiqamətləndirmə) prosedurlarına uyğun olaraq müəyyən edilmiş şəxs.

2. **Yoxsul ailə (aztəminatlı ailə) -** Ayrı-ayrı yaşayış sahələrində daimi yaşayan, birgə təsərrüfat fəaliyyəti ilə məşğul olan və sosial-iqtisadi vəziyyətinin göstəricisi Gürcüstan hökuməti tərəfindən müəyyən edilmiş səviyyədən aşağı olan şəxs və ya şəxslər qrupu.

3. **Evsiz şəxs -** bələdiyyədə evsiz olaraq qeydiyyatdan keçmiş, daimi, müəyyən yaşayış yeri olmayan şəxs. Eləcə də Gürcüstan Konstitusiyasının 11-ci maddəsi və diskrminasiyanın bütün formalarının aradan qaldırılması haqqında qanunauyğun olaraq, müəyyən edilmiş həssas qruplar da hüquq sahibi olan qruplara məxsusdurlar.

4. **Uşaqlar -** insan hüquqlarının müdafiəsi sahəsində xüsusi həssas qrup olaraq hesab olunan, 18 yaşa qədər yetkinlik yaşına çatmamış şəxslər; Bu qrup dövlət üçün xüsusi qayğı obyektidir. Uşağın rifahının qayğısına qalmaq Gürcüstan qanunvericiliyi ilə Uşaq Hüquqlarının Müdafiəsi haqqında Konvensiya və dövlət tərəfindən tanınmış beynəlxalq hüquqi aktlarla tənzimlənir.

5. **Qadınlar -** İnsan hüquqlarının müdafiəsi sahəsində qadınlar, həmçinin, davamlı olaraq diskriminasiyaya və zorakılığa uğrayan həssas qrup hesab olunurlar.

6. **Milli azlıqlar -** Avropa Şurası İnsan Hüquqlarının Müdafiəsi sahəsində milli azlıqlara xüsusi diqqət ayırır. 2006-cı ildən "Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyası" qüvvəyə minib. Çərçivə Konvensiyası Gürcüstan tərəfindən qəbul edilmiş beynəlxalq müqavilədir. Gürcüstanda milli azlıqları dini və etnik azlıqlar təmsil edir.

   6.1 Dini azlıqlar – Gürcüstan əhalisinin gürcü provoslav kilsəsi ilə assosiyaisya olunmayan hissəsi, misal üçün, İslam (10,7%) və erməni Apostol Kilsəsinin (2,9%) nümayəndələri[7].

   6.2. Etnik azlıqlar – Gürcüstan miqyasında etnik azlıqların ən böyük icmasını azərbaycanlılar (6,3%) və ermənilər (4,5%) təşkil edir. Onlar, əsasən Kvemo Kartli və Samtsxe-Cavaxeti regionlarında yaşayırlar. Burada əhalinin çoxluğunu təşkil edirlər. Misal üçün, erməni icması Samtsxe-Cavaxeti əhalisinin 50,5%-dir, Marneuli bələdiyyə (Kvemo Kartli) əhalisinin 83,7%-i azərbaycanlı icmadır. Ümumiyyətlə, azərbaycanlı əhali Kvemo Kartli regionunun 41,7%-ni təşkil edir[8].

   Həmçinin, Samtsxe-Cavaxeti və Kvemo Kartlidə mövcud olan sosial xidmətlərin baza araşdırmasının dərin müsahibələri əsasında[9], yerli özünüidarə və vətəndaş sektoru əlavə olaraq region, mövcud təcrübə spesifikasını nəzərə almaqla, aşağıda sadalanmış hüquq sahibi qruplarını bölüb:

7 Gürcüstan Milli Statistika Xidməti, "Gürcüstan əhalisinin ümumi siyahıya alınması 2014"

8 Gürcüstanın Milli Statistika Xidməti, "Gürcüstanda əhalinin ümumi siyahıya alınması 2014"

9 Bax. Baza araşdırmasının hesabatı

7. **Ekomiqrantlar** - Təbii fəlakət zamanı zərərçəkmiş, öz daimi yaşayış yerini tərk etməli olan şəxslər[10].

8. **Yaşlılar** - Gürcüstanın "Dövlət təqaüdü haqqında" qanunu, 2005 – 65 yaşı (kişilərdə) və ya 60 yaşı (qadınlarda) olan halda təqaüd alan şəxslər[11].

9. **Qaçqınlar** - məcburi köçkünlüyə görə yaranmış spesifik ehtiyacı olan şəxs[12].

10. **Çoxuşaqlı ailələr** - 18 yaşa qədər dörd və ya daha artıq və ya övladlığa götürülmüş uşağı[13] olan, çoxuşaqlı valideyn statusu verilmiş şəxs[14].

11. **Tək valideyn** - Nikahdan kənar dünyaya gəlmiş, 18 yaşa qədər övladı olan, tək ana və ya tək ata statusu daşıyan şəxs[15]. Uşağın doğum şəhadətnaməsində ata və ya anası haqqında məlumat yazılmadığı halda, həmçinin, 18 yaşdan aşağı olan övlad götürmüş və övlad götürmə məqamında qeydiyyatdan keçmiş evliliyi olmayan şəxs[16].

12. **Veteranlar** - İkinci Dünya müharibəsi veteranları və onlara bərabər olan şəxslər, başqa dövlətin ərazisində mübarizə aparan veteranlar ya onlara bərabər olan şəxslər, Gürcüstanın ərazi bütövlüyü, azadlığı və müstəqilliyi üçün mübarizə aparan veteranlar, yaxud onlara bərabər olan şəxslər, müdafiə qüvvələri veteranları[17].

13. **Sağlamlıq müdafiəsinə ehtiyacı olan qruplar** - xroniki və anadangəlmə xəstəliklərin, onkoloji problemlər, fiziki imkanları məhdud şəxslər, yaşlılar və s.

14. **Ailədə zorakılıq qurbanı statusu olan şəxs** - Hüquq və azadlıqları digər ailə üzvü tərəfindən etinasızlıq və ya fiziki, psixoloji, iqtisadi, cinsi zorakılıq və ya məcburiyyət nəticəsində məhdudlaşdırılan şəxs[18].

15. **Tələbə** - Ali təhsil müəssisəsinə bakalavr, magistratura və ya diplomlu mütəxəssis, eləcə də doktorluq proqramı keçmək üçün qəbul olub təhsil alan şəxs[19].

Hüquq sahibi olan qruplardan başqa bu qrupların maraqlarını qoruyan ictimai təşkilatlar da müəyyən edilib. Onlar hədəf regionlarda işləyirlər və fokus-qruplarda və ya dərin müsahibələr prosesində iştirak ediblər.

www.csogeorgia.org portalına əsasən, Kvemo Kartlidə rəsmi olaraq ümumilikdə 85, Samtsxe-Cavaxetidə isə 84 ictimai təşkilat qeydiyyatdan keçirilib. Onlar müxtəlif istiqamətlərdə fəaliyyət göstərirlər. Portala əsasən,

---

10 Gürcüstanın İşğal Edilmiş Ərazilərindən məcburi köçkün şəxslər, Qaçqınlar və Köçkünlər nazirliyinin "Təbii fəlakət nəticəsində zərərçəkmiç və köçmək məcburiyyətində qalmış ailələrin (ekomiqrantların) köçürülməsi prosedurunun, köçürmə meyarlarının, vahid elektron göstəricilər bazasının yaradılma qaydasının təsdiqlənməsi və köçürülmə məsələlərini tənzimləyən komissiya haqqında" 2013-cü ilin 13 noyabr N779 sərəncamı .

11 Gürcüstanın "Dövlət təqaüdü haqqında" qanunu, 2005

12 Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Məcburi Köçkün Şəxslər haqqında qanunu, 2014

13 Gürcüstanın Mülki Məcəlləsinin 11912 maddəsi , 1997

14 Gürcüstan hökumətinin "Çoxuşaqlı valideynlərin sosial müdafiəsini təmin etmək qaydasının və şərtlərinin müəyyən edilməsi haqqında" N517 sərəncamı, 2018

15 Gürcüstan Mülki Məcəlləsinin 11911-ci maddəsi,1997

16 Gürcüstan nazirinin "Tək valideyn statusunun təyin edilməsi və müvafiq şəxslər haqqında məlumatların yaradılması qaydasının təsdiqlənməsi haqqında" 2015-ci il 16 iyuna olan N 79/N01-18/n sərəncamı

17 Gürcüstanın müharibə və müdafiə qüvvələri veteranları haqqında qanunu, 1995

18 Gürcüstanın qadınlara qarşı və ya ailədə zorakılığın qarşısının alınması, zorakılıq qurbanlarının müdafiəsi və yardım edilməsi haqqında qanunu, 2017-ci il

19 Gürcüstanın ali təhsil haqqında qanunu 2004

həssas vəziyyətdə olan şəxslərə dəstək olmaq məqsədi daşıyan sahələr müəyyən edilib. Aşağıda cədvəl verilib və orada təşkilatların adı, onların sayı, fəaliyyət sahəsi, fəaliyyət arealı (bələdiyyə) qeyd olunub. Portala əsasən bir təşkilat birdən artıq istiqamətdə fəaliyyət göstərə bilər. Cədvəldə qeyd olunmuş fəaliyyət göstərən təşkilatların sayı fəaliyyət sahələrinə görə unikal təşkilat sayı deyil – ola bilər onlardan hansısa başqa sahədə də təkrarlansın (Bax. Cədvəl #3).

Cədvələ əsasən, Kvemo Kartlinin altı hədəf bələdiyyəsində təşkilatlar var. Onlar gənclər və uşaq məsələləri, eləcə də özünüidarə, icmanın inkişafı istiqamətində işləyirlər. Portala görə sosial məsələlərdə yalnız 3 hədəf bələdiyyədə (Tsalka, Qardabani və Bolnisi) 4 təşkilat müəyyən edilib. Səhiyyə istiqamətində işləyən təşkilatlar heç bir bələdiyyədə qeydə alınmayıb. Samtsxe-Cavaxetinin 2 hədəf bələdiyyəsində isə Axaltsixedə (33) Ninotsminda (4) ilə mmüqayisədə daha çox təşkilat fəaliyyət göstərir. Eləcə də maraqlı faktdır ki, Ninotsmindada qaçqınlar və köçkünlərin məsələləri, özünüidarə, icmanın inkişafı, sosial, səhiyyə istiqamətində işləyən heç bir təşkilat müəyyən edilməyib (Bax. Cədvəl #3)

**Cədvəl #3**

| Region | Bələdiyyə | Sahə | Təşkilatların sayı | Təşkilatın adı |
|---|---|---|---|---|
| Kvemo Kartli | Qardabani | İnsan hüquqları | 2 | 1. Gürcüstanın Gənc Azərbaycanlılar İttifaqı<br>2. Qasımlı Gənclər Mərkəzi |
| | Marneuli | | | |
| | | | | |
| Kvemo Kartli | Tetritskaro | Gənc və Uşaq | 36 | 1.Tetritskaro Gənclər Mərkəzi<br>2. Gürcüstan Mülki İctimai Assosiasiyası |
| | Tsalka | | | 1. Tolerant məqsədlər üçün hüquqi cəmiyyət<br>2. „Qumbati“ Tədris Mərkəzi |
| | Qardabani | | | 1. Kvemo Kartlidə yeni təşəbbüs<br>2. Vaxtanqisi Həmrəylik Mərkəzi<br>3. “Vektor” təşkilatı<br>4. Nəzərli İcma Mərkəzi<br>5. Gürcüstan Qızıl Xaç Cəmiyyəti |
| | Dmanisi | | | 1. “Lore” Assosiasiyası<br>2. “Mədəniyyəti xilas edək” - Gənclər klubu<br>3. “Dmanisililər” təşkilatı<br>4. “İlk Avropalı” təşkilatı<br>5. “Uğurlu Qadın-Güclü Cəmiyyət” təşkilatı |

| | | | | |
|---|---|---|---|---|
| | Marneuli | | | 1. Algeti İcma Mərkəzi<br>2. Gənclərin İnkişaf Mərkəzi<br>3. Təhsil və İnkişaf Mərkəzi<br>4. “Göyərçin” Demokratik Seçim<br>5. Mülki Məşğulluq Mərkəzlər Şəbəkəsi<br>6. Marneuli Gənclər Mərkəzi<br>7.Mollaoğlu İcma Mərkəzi<br>8. Gürcüstan Azərbaycanlı Qadınlar İttifaqı<br>9. Gürcüstan Gənc Azərbaycanlılar İttifaqı<br>10. “Tolerans” təşkilatı<br>11. Xuldərə İcma Mərkəzi |
| | Bolnisi | | | 1. “Qafqaz” Gənclər Baxışı<br>2. Bolnisi Dil Evi<br>3. Bolnisi Böyüklər üçün Təhsil Mərkəzi<br>4. Analar təşkilatı<br>5. Gürcüstan Qızıl Xaç Cəmiyyəti<br>6. Kvemo Kartli İctimai Məlumat Mərkəzi<br>7. „Birlik“ - Kvemo Kartli Qadınlar Təşkilatı<br>8. “Qadın dünyası” Kvemo Kartli Qadınlar Assosiasiyası<br>9. „Sərhədsiz İmkanlar“ təşkilatı |
| | | | | |
| Kvemo Kartli | Tetritskaro | Gender | 18 | 1. Tetritskaro Gənclər Mərkəzi |
| | Dmanisi | | | 1. “Mədəniyyəti Xilas Edək”- Gənclər klubu<br>2. “Uğurlu Qadın-Güclü Cəmiyyət” Təşkilatı |
| | Tsalka | | | 1. “Tsalka” qadınlar otağı |
| | Marneuli | | | 1. Gənclərin İnkişaf Mərkəzi<br>2. Təhsil və İnkişaf Mərkəzi<br>3. “Göyərçin” Demokratik İttifaqı<br>4. Marneuli Gənclər Mərkəzi<br>5. “Marneuli” – Demokrat Qadınlar Cəmiyyəti<br>6.Gürcüstan Azərbaycanlı Qadınlar İttifaqı<br>7. Gürcüstan Gənc Azərbaycanlılar İttifaqı<br>8. Zorakılıqdan Müdafiə Milli Şəbəkəsi<br>9. Xuldərə İcma Mərkəzi |
| | Bolnisi | | | 1. “Disveli” Assosiasiyasının Qadınlar Şurası<br>2. Bolnisi Dil Evi<br>3. Stad Sterkel adına Gürcüstan Qadınlar Birliyi<br>4. “Qadın dünyası” - Kvemo Kartli Qadınlar Assosiasiyası<br>5. Kvemo Kartli Qadınlar Təşkilatı “Birlik” |

| | | | | |
|---|---|---|---|---|
| Kvemo Kartli | Tetritskaro | Qaçqınlar və məcburi köçkünlər | 3 | 1. Koda İcma Təhsil Mərkəzi |
| | Qardabani | | | 1. “Lelaşxanın İnşası” təşkilatı |
| | Marneuli | | | 1. Şaumyan İcma Təhsil Mərkəzi |
| Kvemo Kartli | Tetritskaro | Ekologiya | 12 | 1. Tetritskaro Gənclər Mərkəzi<br>2. “Kodori 2013” İcma Fondu<br>3. Gürcüstan Vətəndaş Cəmiyyəti Assosiasiyası |
| | Dmanisi | | | 1. “Lore” Assosiasiyası<br>2. “Dmanisililər” Assosiasiyası |
| | Tsalka | | | 1. Tsalka Yerli İnkişaf Qrupu |
| | Marneuli | | | 1. “Göyərçin” Demokratik İttifaqı<br>2. Marneuli Gənclər Mərkəzi |
| | Bolnisi | | | 1. “Disveli” Assosiasiyası, Qadınlar Şurası<br>2. “Karimera” İcma Təşkilatı<br>3. Kvemo Kartli İctimai Məlumat Mərkəzi<br>4. Kvemo Kartli Qadınlar Təşkilatı-“Birlik” |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| Kvemo Kartli | Tsalka | Özünüidarə və icmanın inkişafı | 33 | 1. “Yeni Qumbati” Təşkilatı<br>2. “Berta 2013” Təşkilatı<br>3. “Qumbati” Təhsil Mərkəzi<br>4. “Sağdrioni” Təşkilatı<br>5. Tsalka “Qadın Otağı” |
| | Qardabani | | | 1. “Kvemo Kartlidə Yeni Təşəbbüslər” Təşkilatı<br>2. “Qələbə” Təşkilatı<br>3. “Qarecili” Təşkilatı<br>4. “Vektor” Təşkilatı<br>5. “Ümid Krtsanisi” Təşkilatı<br>6. “Dostluq” Təşkilatı<br>7. Gürcüstan Qızıl Xaç Cəmiyyəti |
| | Dmanisi | | | 1. “Mədəniyyəti xilas edək” - Gənclər klubu<br>2. “Dmanisililər” Təşkilatı<br>3. “İlk Avropalı” Təşkilatı |
| | Tetritskaro | | | 1. Tetritskaro Yerli İnkişaf Qrupu<br>2. “İraqa 2013” Təşkilatı<br>3. Gürcüstan Vətəndaş Cəmiyyəti Assosiasiyası |
| | Marneuli | | | 1. Ağməmmədli İcma Mərkəzi<br>2. Təhsil və İnkişaf Mərkəzi<br>3. “Göyərçin” Demokratik İttifaqı<br>4. Mülki Məşğulluq Mərkəzlər Şəbəkəsi<br>5. “Marneuli” – Demokrat Qadınlar Cəmiyyəti<br>6. Mollaoğlu İcma Mərkəzi<br>7. Gürcüstan Azərbaycanlı Qadınlar İttifaqı<br>8. Kvemo Kartli İnkişaf İnstitutu<br>9. Xuldərə İcma Mərkəzi |
| | Bolnisi | | | 1. “Qafqaz” Gənclər Baxışı<br>2. Bolnisi Dil Evi<br>3. Gürcüstan Qızıl Xaç Cəmiyyəti<br>4. Stad Sterkel adına Gürcüstan Qadınlar İttifaqı<br>5. “Qadın dünyası” - Kvemo Kartli qadınlar Assosiasiyası<br>6. „Birlik“ - Kvemo Kartli Qadınlar Təşkilatı |
| | | | | |
| Kvemo Kartli | Tsalka | Sosial məsələlər | 4 | 1. Tsalka Yerli İnkişaf Qrupu |
| | Qardabani | | | 1. Gürcüstan Qızıl Xaç Cəmiyyəti |
| | Bolnisi | | | 1. Gürcüstan Qızıl Xaç Cəmiyyəti<br>2. „Sərhədsiz İmkanlar“ Təşkilatı |

| | | | | |
|---|---|---|---|---|
| | | | | |
| Kvemo Kartli | | Sağlamlığın mühafizəsi | 0 | |
| | | | | |
| Samtsxe-Cavaxeti | Axaltsixe | İnsan hüquqları | 12 | 1. “Gənclər Cavaxetinin İnkişafı üçün”<br>2. Axaltsixe Gənclər Mərkəzi<br>3. Demokrat Axıskalılar İttifaqı<br>4. „Yaşıl Xaç“ Birliyi<br>5. Beynəlxalq Şəffaflıq „Gürcüstan“<br>6. Vətəndaş Təşəbbüsləri Assosiasiyası<br>7. Vətəndaş Cəmiyyətinin Formalaşmasına Yardım Mərkəzi<br>8. „Tolerant“ - Samtsxe-Cavaxeti Regional Assosiasiyası<br>9. „Qadınların Ümidi“ təşkilatı<br>10. Zorakılıqdan Müdafiə Milli Mərkəzi |
| | Ninotsminda | | | 1. “Sülh Xartiyası” Təşkilatı<br>2. Samtsxe-Cavaxetiya İstehlakçılar Birliyi |
| | | | | |
| Samtsxe-Cavaxeti | Axaltsixe | Gənclər və uşaq | 12 | 1. „Gənclər Cavaxetiyanın İnkişafı Naminə“ Təşkilatı<br>2. Axaltsixe Gənclik Mərkəzi<br>3. Axaltsixe Böyüklər üçün Təhsil Mərkəzi<br>4. „Demokratik Axıskalılar İttifaqı“ Təşkilatı<br>5. Mülki Məşğulluq Mərkəzlər Şəbəkəsi<br>6. “Gələcək” İttifaqı<br>7. Yaşıl Ev Assosiasiyası<br>8. „Tolerant“ - Samtsxe-Cavaxeti Regional Assosiasiyası<br>9. Gürcüstan Biznesin İnkişaf Mərkəzi<br>10. „Tərəqqi“ Təşkilatı |
| | Ninotsminda | | | 1. Ninotsminda Gənclər Mərkəzi<br>2. Qadınlar təşkilatı - „Faros“ Birliyi |
| | | | | |
| Samtsxe-Cavaxeti | Axaltsixe | Gender | 6 | 1. Vətəndaş Təşəbbüsləri Assosiasiyası<br>2. Samtsxe-Cavaxeti Demokratik Qadınlar Cəmiyyəti<br>3. „Ekodaxa“- Samtsxe-Cavaxeti Regional Ekologiya Birliyi<br>4. Milli Zorakılığın Qarşısının Alınması Şəbəkəsi<br>5. „Tərəqqi“ Təşkilatı |
| | Ninotsminda | | | 1. „Faros Birliyi“ Qadınlar Təşkilatı |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| Samtsxe-Cavaxeti | Axaltsixe | Qaçqınlar və məcburi köçkünlər | 2 | 1. „Tolerant" - Samtsxe-Cavaxeti Regional Assosiasiyası<br>2. Beynəlxalq Humanitar Birlik „Katarsis" Assosiasiyası |
| | Ninotsminda | | | |
| | | | | |
| Samtsxe-Cavaxeti | Axaltsixe | Ekologiya | 7 | 1. „Elkana" - Bioloji Təsərrüfatlar Birliyi<br>2. Ətraf Mühitin Mühafizəsi və Davamlı İnkişafa Dəstək İttifaqı<br>3. "Dünya" İttifaqı<br>4. Axaltsixe İcma İnkişaf Mərkəzi<br>5. Vətəndaş Təşəbbüsləri Assosiasiyası<br>6. „Ekodaxa" - Samtsxe-Cavaxeti Regional Ətraf Mühit Birliyi |
| | Ninotsminda | | | 1. Qadınlar təşkilatı - „Faros" Birliyi |
| | | | | |
| Samtsxe-Cavaxeti | Axaltsixe | Özünüidarə və icmanın inkişafı | 15 | 1.  Axaltsixe Böyüklər üçün Təhsil Mərkəzi<br>2. „Fon" təşkilatı<br>3. Demokrat Axıskalılar İttifaqı<br>4. Mülki Məşğulluq Mərkəzlər Şəbəkəsi<br>5. "İvlita 21" Təşkilatı<br>6. "Tkemlana" İttifaqı<br>7. "Dünya" İttifaqı<br>8. Regional İnkişaf Assosiasiyası<br>9. Axaltsixe İcma İnkişaf Mərkəzi<br>10. "Abatxevi" İcma Təşkilatı<br>11"Ümid 2009" İcma Birliyi<br>12. "Tsğrutinin ümidi" İcma Birliyi<br>13. "Arqo" icma təşkilatı<br>14"Günəşin ürəyi" İcma Təşkilatı<br>15. Vətəndaş Cəmiyyətinin Formalaşmasına Yardım Mərkəzi |
| | Ninotsminda | | | |
| | | | | |
| Samtsxe-Cavaxeti | Axaltsixe | Sosial məsələlər | 5 | 1. Yaşıl Ev Assosiasiyası<br>2. Beynəlxalq Humanitar Birlik „Katarsis" Assosiasiyası<br>3. "Tsğrutinin ümidi" İcma Birliyi<br>4. "Birlikdə Bacaracağıq" Xeyriyyə Fondu<br>5. "Talita Kumi" Təşkilatı |
| | Ninotsminda | | | |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| Samtsxe-Cavaxeti | Axaltsixe | Sağlamlığın mühafizəsi | 5 | 1. Yaşıl Ev Assosiasiyası<br>2. Beynəlxalq Humanitar Birlik „Katarsis“ Assosiasiyası<br>3. Samtsxe-Cavaxeti Demokratik Qadınlar Cəmiyyəti<br>4. “Talita Kumi” təşkilatı<br>5. „Tərəqqi“ təşkilatı |
| | Ninotsminda | | | |

Layihə çərçivəsində həyata keçiriləcək baza tədqiqatının keyfiyyət komponenti sorğusunda iştirak edən şəxslərin əksəriyyətinin (94%) bələdiyyədə olan vətəndaş təşkilatları barədə məlumatı yoxdur (Samtsxe-Cavaxeti-91%, Kvemo Kartli – 96%). Fokus-qrupların nəticələri də eynisini təsdiq edir. Kvemo Kartli sakinləri qadın hüquqlarını müdafiə edən təşkilatlar haqqında eşidiblər, çünki qadınların erkən yaşda evləndirilməsi qeyd olunan regionda aparıcı məsələlərdən biridir. Müsahiblər, əsasən ehtiyacı olan ailələrə maddi olaraq yardım göstərən, etnik azlıqlara gürcü dili kursları, hüquqi xidmətlər və s. təklif edən təşkilatlar barədə məlumatlıdırlar.

Sorğu çərçivəsində aydın oldu ki, məlumatlı müsahiblər son 1 il ərzində vətəndaş ictimai təşkilatları tərəfindən təklif edilmiş heç bir xidmətdən faydalanmayıblar; Əsas səbəb olaraq isə bu kimi xidmətlərdən yararlanmaq ehtiyaclarının olmamasını qeyd edirlər. Digər tərəfdən, aydın oldu ki, məlumatlı müsahiblər, əksər hallarda sosial xidmətlərdən faydalanırlar. Ancaq qeyd edilməlidir ki, Kvemo Kartlidə sorğuda iştirak edən şəxslərin belə təcrübəsi yoxdur (Bax. Cədvəl #4).

**Cədvəl #4**

| Son 1 il ərzində vətəndaş ictimai təşkilatları tərəfindən təklif edilmiş hansı xidmətdən faydalanıbsınız? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=53) | Kvemo Kartli (N=18) |
|---|---|---|
| Sosial xidmətlər | 25.5% | - |
| Səhiyyə xidmətləri | 1.7% | - |
| Fiziki imkanları məhdud şəxslərin inteqrasiyasına istiqamətlənmiş layihələr | 3.1% | - |
| Etnik azlıq nümayəndələrinin inteqrasiyasına istiqamətlənmiş layihələr | 1.7% | 5.4% |
| Yaşlıların sosial-mədəni fəallıqlara qoşulması istiqamətində layihələr | - | 5.4% |
| Qadınların gücləndirilməsinə istiqamətlənmiş layihələr | - | 10.9% |
| Heç bir xidmətdən yararlanmamışam | 57.7% | 74.4% |
| Cavab verməkdən imtina edirəm/Cavab verməkdə çətinlik çəkirəm | 10.3% | 3.8% |

Vətəndaş ictimai təşkilatları haqqında məlumatlı şəxslərin ictimai təşkilatların fəaliyyəti və vətəndaş tələbinin/ehtiyaclarının uyğunluğunu dərk etməsini nəzərə almaqla, bələdiyyədə qeyd olunan təşkilatların fəaliyyətindən əsasən razıdırlar (73%) (Samtsxe-Cavaxeti-89%, Kvemo Kartli – 58%) (Bax.Cədvəl #5).

**Cədvəl #5**

| Ümumiyyətlə, sizin bələdiyyədə mövcud olan vətəndaş ictimai təşkilatların fəaliyyətindən nə dərəcədə razısınız? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=53) | Kvemo Kartli (N=18) |
|---|---|---|
| Tam narazı | 1.4% | 6% |
| Daha çox narazı | - | 6.7% |
| Həm razı həm narazı | 8.8% | 57.9% |
| Daha çox razı | 51.4% | 18.7% |
| Tam razı | 36.8% | 10.7% |
| Cavabdan imtina edirəm | 1.7% | - |

Hədəf bələdiyyələrin əhalisi ilə aparılan fokus-qrup iştirakçıları vətəndaş ictimai təşkilatlarının fəaliyyətini ümumilikdə müsbət qiymətləndirirlər. Ancaq etnik azlıq nümayəndələri vətəndaş ictimai təşkilatların fəaliyyətinin mənfi tərəflərini də diqqətə yetirirlər və qeyd edirlər ki, bəzi təşkilatlara qarşı etibar səviyyəsi aşağıdır, çünki onlar dini kimliyindən irəli gələrək azərbaycanlı icmanı, "geridə qalmış" kimi qəbul edirlər. Eləcə də ayrıca müsahiblər qeyd etdilər ki, əhalinin müəyyən hissəsində vətəndaş ictimai təşkilatlar hakimiyyətə müxalif olan təşkilatlar kimi hesab olunurlar və bu səbəbdən onlarla əməkdaşlıq etməkdən çəkinirlər. Fokus-qrup iştirakçılarının fikrinə görə, vətəndaş ictimai təşkilatların fəaliyyəti ilk növbədə yerli əhalinin problemlərinin həllinə yönləndirilməlidir. Mühüm olan odur ki, vətəndaş ictimai təşkilatlar bələdiyyə merləri və Bələdiyyə Məclisləri ilə fəaliyyəti gücləndirsinlər, onlara mövcud problemlə mübarizə aparmaq üçün yeni ideyalar və çıxış yolları təklif etsinlər.

Kontekstin analizi çərçivəsində aşağıda sadalanan təşkilatlarla fokus-qrup keçirildi.

"Tolerantlıq və Rəngarənglik İnstitutu" – etnik və dini azlıqlarla, eləcə də miqrantlarla işləyir. Təşkilat maarifləndirmə işinə baxır, azlıqların müdafiəsi baxımından dövlət siyasətini araşdırır və təhlil edir.

"Demokratik Araşdırmalar İnstitutu" – insan hüquqlarının müdafiəsi məsələsi üzərində işləyir və maarifləndirmə işinə baxır, siyasi sənədlər hazırlayır, insan hüquqlarının müdafiəsində advokatlaşdırma işləri həyata keçirir və hər növ seçkiləri müşahidə edir.

"Gənc Hüquqşünaslar Assosiasiyası" – insan hüquqlarının müdafiəsi üzrə bütün məsələlər üzərində işləyir. Təşkilat maarifləndirmə işinə baxır, Gürcüstanda və ölkədən kənar məhkəmədə iş aparmaq təcrübəsi var. Hər növ seçkiləri müşahidə edir, siyasi sənədlər və alternativ hesabatlar hazırlayır.

"Safari" – insan hüquqları, zorakılıq və diskriminasiya məsələləri üzrə işləyir. Hədəf regionlarda etnik azlıqlarla işləyir, xüsusilə qadınlara və uşaqlara aksent edir. Təşkilat maarifləndirmə və advokatlaşdırma baxımından fəaliyyət göstərir, eləcə də məhkəmədə iş aparmaq təcrübəsi də var.

"Sosial Ədalət Mərkəzi" – insan hüquqları və sosial ədalət üzrə işləyən sağçı təşkilatdır. Sosial siyasət, bərabərlik, ədalət və demokratiya məsələləri ilə bağlı fəaliyyət göstərir.

"Hamı üçün Əlçatan Mühit" – fiziki imkanları məhdud şəxslərin hüquqları məsələsi üzrə fəaliyyət göstərir. Təşkilat maarifləndirmə və advokatlaşdırma tipli işlərlə məşğuldur.

## Məsuliyyət daşıyanlar (duty bearers)

Verilmiş kontekstin təhlili çərçivəsində aşağıdakı məsul tərəflər/institusional strukturlar müəyyən edilmişdir:

Mərkəzi səviyyəli strukturlar:

Gürcüstan hökuməti – icraçı hakimiyyətin ali orqanıdır, ölkənin daxili və xarici siyasətini həyata keçirir. Hökumət Gürcüstan Parlamenti qarşısında məsuliyyət daşıyır[20].

İnsan Hüquqları üzrə Qurumlararası Şura – Gürcüstan hökumətinin yaratdığı institut. İnsan hüquqlarının müdafiəsi sahəsində dövlətin vahid siyasətini, fəaliyyət planını həyata keçirir və hazırlayır, onun yerinə yetirilmə koordinasiyasına nəzarət edir[21].

Gürcüstan Parlamenti – Qanunvericilik hakimiyyəti olan ali nümayəndəlik orqanı, ölkənin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyən edir. Konstitusiya ilə tətbiq edilmiş çərçivədə hökumətin fəaliyyətinə nəzarət edir.

Gürcüstan Parlamentinin İnsan Hüquqlarının Müdafiəsi və Vətəndaş İnteqrasiyası Komitəsi – öz səlahiyyətləri çərçivəsində qanunvericilik layihələri hazırlayır, Gürcüstan Parlamenti tərəfindən qəbul edilmiş qərarların icrasına dəstək olur, Gürcüstan hökuməti və Parlament qarşısında cavabdeh olan digər orqanlara nəzarət edir. Komitə öz səlahiyyətləri çərçivəsində sağlamlıq, sosial müdafiə, əmək və işlə təmin etmə siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsində iştirak edir. Həmçinin, komitənin məqsədi əhalinin sağlamlıq, sosial müdafiə, əmək, işlə təmin edilmə, ana və uşağın müdafiəsi, ailənin inkişafı, yaşlı, qaçqın, veteran və fiziki imkanları məhdud şəxslərin məsələlərinin həllinə dəstək göstərməkdir.

Gürcüstan Parlamentinin Sağlamlığın Müdafiəsi və Sosial Məsələlər Komitəsi – öz səlahiyyətləri çərçivəsində qanunvericilik layihələri hazırlayır, Gürcüstan Parlamenti tərəfindən qəbul edilmiş qərarların icrasına dəstək olur, Gürcüstan hökuməti və Parlament qarşısında digər məsuliyyətli orqanlara nəzarət edir.

Gürcüstan Parlamentinin Ətraf Mühitin Mühafizəsi və Təbii Sərvətlər Komitəsi - öz səlahiyyətləri çərçivəsində qanunvericilik məsələlərinin əvvəlcədən hazırlanmasını təmin edir, Parlament qərarlarının yerinə yetirilməsinə dəstək olur, Gürcüstan hökuməti və Parlament qarşısında məsuliyyət daşıyan digər orqanlara ətraf mühit, təbii ehtiyatlar sahəsində nəzarət edir.

Gender Bərabərliyi üzrə Həmişəlik Parlament Şurası – gender sahəsində dövlət siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsinə, qanunvericilik bazasının yaradılması və inkişafına dəstək olur, müvafiq strategiyanın müzakirəsi və təsdiqlənməsinə, gender bərabərliyi məsələləsində Gürcüstan Parlamenti qarşısında məsuliyyət daşıyan orqanların işinə nəzarət edir, gender bərabərliyi haqqında məlumatlandırma səviyyəsinin artırılmasına və qadınların gücləndirilməsinə dəstək olan tədbirlərin keçirilməsinə dəstək göstərir.

Gürcüstan Parlamentinin Regional Siyasət və Özünüidarə Komitəsi – Komitə öz səlahiyyətləri çərçivəsində bələdiyyələrin ehtiyaclarını araşdırır, müvafiq qanunlayihələr, tədqiqatlar hazırlayır və müzakirə üçün Parlamentə təqdim edir. Parlament tərəfindən qəbul edilmiş normativ aktların yerinə yetirilməsinə nəzarət edir. Məhkəmə

20 Gürcüstan hökumətinin strukturu, səlahiyyətləri və fəaliyyət qaydası haqqında qanunu 2004

21 Gürcüstan hökumətinin 2016 –cı il 13 dekabr – İnsan Hüquqları üzrə Qurumlararası Şuranın yaradılması və onun müddəalarının təsdiq edilməsi haqqında N551 sərəncamı

təcrübəsini analiz edir və müvafiq qanunvericilik çatışmazlıqlarının aradan qaldırılmasını təmin edir. Komitə ayrıca məsələlərin araşdırılması məqsədi ilə tematik araşdırma qrupu təyin etmək səlahiyyətinə malikdir.

Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınlar, Əmək, Sağlamlıq və Sosial Müdafiə Nazirliyi – İşğal edilmiş ərazilərdən məcburi köçkün şəxslərin - qaçqınların - əmək, sağlamlıq, sosial müdafiə sahəsində dövlət idarəçiliyini və dövlət siyasətini təmin edən icracı hakimiyyət qurumu[22].

Dövlət Qayğıgöstərmə və Trefikinq Qurbanlarına, Zərərçəkmişlərə Yardım Agentliyi - Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınlar, Əmək, Sağlamlıq və Sosial Müdafiə Nazirliyinin dövlət nəzarəti tabeçiliyində olan ictimai hüquqi şəxs; Agentliyin məqsədi trefikinq, qadınlara qarşı zorakılıq, zərərçəkmişlərin müdafiəsi və yardım məqsədi ilə dövlət siyasətinin həyata keçirilməsinə dəstək olmaq, mərkəzi və yerli təsərrüfat və qayğıgöstərmə orqanının funksiyalarını təmin etmək, qəyyumluq, qayğıgöstərmə, dəstək, övlad götürmə, himayədarlıq üzrə dövlət siyasəti aparmaq, fiziki imkanları məhdud olan şəxslər, yaşlılar, himayəsiz qalmış uşaqlar üçün layiqli yaşam şəraiti yaratmaqdır[23].

Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Gürcüstan Dövlət Naziri Aparatı – Aparatın fəaliyyət sahəsinə Gürcüstan ərazisində mövcud olan münaqişəli regionların inteqrasiyası ilə əlaqədar məsələlərin həlli daxildir; Eləcə də həmin regionlarda dini, etnik, siyasi və ya başqa əsasla yaranmış problemlərin həlli, qarşısının alınması, münaqişələrin həllinə dəstək olmaq da sahəyə aiddir[24].

Gürcüstan Ombudsman Aparatı – Aparat insan hüquqları və azadlıqlarının müdafiəsi üzrə dövlət zəmanətinin təmin edilməsi məqsədi ilə dövlət hakimiyyəti və bələdiyyə orqanları, dövlət müəssisələri və vəzifəli şəxslər tərəfindən Gürcüstan ərazisi çərçivəsində, onun yurisdksiyasında olan, irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və ya başqa baxışlarından, milli, etnik, sosial mənsubiyyətindən, mənşəyindən, əmlak və vəzifəsindən, yaşayış yeri, başqa mühitdən asılı olmayaraq bütün şəxslər üçün dövlət tərəfindən tanınmış hüquq, azadlıqların qorunmasına və hörmət edilməsinə nəzarət edir[25].

Yerli səviyyədə olan strukturlar:

Gürcüstanın yerli özünüidarəsi – Gürcüstan vətəndaşlarının yerli özünüidarəetmə orqanları vasitəsilə əhalinin maraqlarına uyğun olaraq Gürcüstan qanunvericiliyi çərçivəsində yerli əhəmiyyətli məsələləri həll etmək hüququ və imkanı[26]. Kontekstin analizi çərçivəsində Axaltsixe, Ninotsminda, Bolnisi, Qardabani, Dmanisi, Tetritskaro, Marneuli və Tsalka bələdiyyələri müzakirə olunub.

---

22 Gürcüstan hökumətinin "Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınlar, Əmək, Sağlamlıq və Sosial Müdafiə Nazirliyinin müddəalarının təsdiqlənməsi haqqında" N473 sərəncamı 2018 14 sentyabr

23 Gürcüstan hökumətinin "İctimai hüquqi şəxs – dövlət Qayğıgöstərmə və Trefikinq Qurbanlarının, Zərərçəkmişlərə Yardım Agentliyinin müddəalarının təsdiqlənməsi haqqında" N58 sərəncamı 2020-ci il 29 yanvar

24 Gürcüstan hökumətinin Reinteqrasiya məsələləri üzrə Gürcüstan Dövlət Naziri Aparatının yaradılması və müddəaların təsdiqlənməsi haqqında N23 sərəncamı 2008, 8 fevral

25 Gürcüstanın Xalq Müdafiəçisi haqqında orqanik qanunu, maddə 3, 1996

26 Gürcüstan orqanik qanunu yerli özünüidarə məcəlləsi maddə N2 2014

## 1.2 Gürcüstanın beynəlxalq kontekstdə hüquq sahibi olan qruplar qarşısında öhdəlikləri

Gürcüstanın insan hüquqları istiqamətində öhdəlikləri, ilk növbədə Gürcüstan Konstitusiyası ilə müəyyən edilib. Gürcüstan Konstitusiyasından sonra beynəlxalq müqavilələrin, digər hüquqi aktlarla müqayisədə daha yüksək normativ dəyərləri var[27]. Müvafiq olaraq, Gürcüstanda ratifikasiyadan keçirilmiş insan hüquqları beynəlxalq müqavilələrindən birbaşa istifadə olunur.

İnsan hüquqlarının müdafiəsi baxımından Gürcüstan sonrakı əsas beynəlxalq konvensiyalarda razılığa gələn tərəfdir:

- 1948-ci ilin İnsan Hüquqları Müdafiəsinin Ümumi Bəyannaməsi (Gürcüstanda 1998-ci ilin 15 yanvarından qüvvədədir);
- 1950-ci il, 4 noyabr İnsan Hüquqları və əsas Azadlıqları Müdafiəsinin Avropa Konvensiyası (Gürcüstanda 27 aprel 1999-cu ildən qüvvədədir);
- 1966-cı il, 16 dekabr İctimai və Siyasi Hüquqlar üzrə beynəlxalq paket ( Gürcüstanda 1994-cü ilin 3 avqust tarixindən qüvvədədir);
- 1966-cı il, 16 dekabr iqtisadi, sosial və mədəni hüquqlar üzrə beynəlxalq paket (Gürcüstanda 1994-cü ilin 3 avqustundan qüvvədədir);
- 1966-cı il, İrqi Diskriminasiyanın Bütün Formalarının Qarşısının Alınması haqqında Beynəlxalq Konvensiya (Gürcüstanda 1999-cu ilin 2 iyulundan qüvvədədir);
- 1979-cu il, 18 dekabr Qadın Diskriminasiyasının Bütün Formalarının Qarşısının Alınması haqqında Konvensiya (Gürcüstanda 1994-cü ilin 25 noyabrından qüvvədədir);
- 1951-ci ilin 28 iyul Qaçqınlar Statusu haqqında Konvensiya Gürcüstanda 1999-cu ilin 7 noyabrından qüvvədədir);
- 1961-ci ilin Avropanın Sosial Xartiyası (Gürcüstanda 2005-ci ilin 1 oktyabrından qüvvədədir);
- 1979-cu il, 18 dekabr Qadınlara Qarşı Diskriminasiyanın Bütün Formalarının Qarşısının Alınması haqqında Konvensiya (Gürcüstanda 1994-cü ilin 22 sentyabrından qüvvədədir);
- 1984-cü il, Şiddət və digər Qəddar, Qeyri-insani və ya Ləyaqəti Təhqir Edən Rəftara və Cəzalandırmaya qarşı Konvensiya (Gürcüstanda 1994-cü ilin 25 noyabrından qüvvədədir);
- 1989-cu il Uşaq Hüquqları Konvensiyası (Gürcüstanda 1994-cü ilin 2 iyulundan qüvvədədir);
- 2000-ci il Uşaq Hüquqları Konvensiyasının Uşaqların Silahlı Münaqişədə İştirakına dair Fakültativ Protokolu (Gürcüstanda 2010-cu ilin 3 sentyabrından qüvvədədir);
- 2000-ci ilin Uşaq Hüquqları Konvensiyasının Uşaq Alveri, Uşaq Fahişəliyi və Uşaq Pornoqrafiyası üzrə Fakültativ Protokolu (Gürcüstanda 2005-ci ilin 28 iyulundan qüvvədədir);

27 Gürcüstan Konstitusiyasının 4(5) maddəsi; Normativ aktlar haqqında Gürcüstan üzvi qanunu.

- → 1995-ci il, 1 fevral Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyası (Gürcüstanda 2006-cı ildən qüvvədədir);
- → 1995-ci il Pekin Bəyannaməsi və Fəaliyyət Platforması – platforma bərabərhüquqluluq mövzusu və qadın səlahiyyətlərinin artırılması məsələsinə aiddir , (Gürcüstanda 2000-ci ildən qüvvədədir);
- → 2007-ci il Fiziki İmkanları Məhdud Şəxslərin Hüquq Konvensiyası (Gürcüstanda 2014-cü ildən qüvvədədir) ;
- → 2011-ci il, 11 may Qadınlara Qarşı Zorakılıq və Ailədə Zorakılığın Prevensiyası və Qarşısının Alınması haqqında Konvensiya (Gürcüstanda 2017-ci ilin 1 sentyabrından qüvvədədir).

Qeyd olunan beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məsuliyyəti, əsasən, mərkəzi hakimiyyətin üzərinə düşür. Bu öhdəlik müvafiq siyasət və qanunvericilik bazasını formalaşdırmaqla təsvir olunur. Yerli özünüidarənin cavabdehlik qismində bir neçə istiqamət kəsişir. Onlar haqqında növbəti başlıqda ətraflı məlumat qeyd olunub.

## 1.3. Gürcüstanın hüquq müdafiə edən qruplarla bağlı milli qanunvericilik çərçivəsi

Gürcüstan Konstitusiyasının II başlığı insanın əsas hüquqlarına və dövlət orqanlarının (həmçinin, yerli hakimiyyətin) bu hüquqları icra etməsi prosesinə həsr olunub.

Baxmayaraq ki, beynəlxalq müqavilələrin imzalanması nəticəsində götürülən öhdəliklərin icra edilmə məsələsi, əsasən, mərkəzi hakimiyyətin öhdəliyidir, yerli hakimiyyət də ümumi tanınmış insan hüquqlarına hörmət, dəstək və icranı bölüşür. Çünki yerli hakimiyyət orqanları dövlət funksiyalarının yerinə yetirən rəsmi dövlət qurumlarını təmsil edirlər.

2014-cü ildə Gürcüstan Parlamenti Gürcüstanın İnsan Hüquqlarının Müdafiəsi üzrə 2014-2020-ci illərin Milli strategiyasını təsdiqlədi (Sonradan "İnsan Hüquqlarının Milli Strategiyası). İnsan hüquqlarının milli strategiyası fəaliyyət planı vasitəsi ilə yerinə yetirilir. Tədqiqat çərçivəsində insan hüquqlarının 2018-2020-ci illərin fəaliyyət planından və bu planla nəzərdə tutulmuş yerli özünüidarənin prioritetli istiqamətlərindən istifadə olunub. Qeyd edək ki, Gürcüstan Parlamenti 2022-ci ilin 5 sentyabrında yeni prioritetlər və istiqamətlərlə "Gürcüstanın 2022-2023-cü illər üçün İnsan Hüquqlarının Müdafiəsi üzrə MSlli strategiyasını" təsdiq edib.

Aşağıda yalnız yerli hakimiyyət orqanlarının səlahiyyətləri ilə kəsişməsi üəyyən edilmiş istiqamətlər verilmişdir[28]:

- Gender bərabərliyi və qadınların gücləndirilməsi;
- Uşaq hüquqları;
- Milli/etnik azlıqların hüquqları və onların inteqrasiyasının məşhurlaşdırılması;
- Fiziki imkanları məhdud şəxslərin hüquqları;
- Qaçqın şəxslərin hüquqları.

Həmçinin, yerli hakimiyyət orqanlarının Yerli Özünüidarə Məcəlləsindən kənar müəyyən öhdəlikləri var və

28 Gürcüstanın İnsan Hüquqlarının Milli Strategiyası və fəaliyyət planı, insan hüquqları katibliyinin veb-səhifəsində əlçatandır: http://myrights.gov.ge/en/Policy%20 Documents/

Gürcüstanın müxtəlif qanunlarına əsasən onların həyata keçirilmə məsuliyyəti verilir. Misal üçün, 2014-cü ilin "Diskriminasiyanın Bütün Formalarının Qarşısının Alınması haqqında" Gürcüstan qanunu Gürcüstanın bütün dövlət qurumlarına aiddir.

**Qadınlar**

2010-cu ildə Gürcüstan "Gender bərabərliyi haqqında" xüsusi qanun qəbul edib. Qanunun 13-cü maddəsinə uyğun olaraq bələdiyyələr öhdəlik daşıyırlar:

- Yerli səviyyədə Gender Şuraları yaratsınlar;
- Gender siyasətinin idarə edilməsinə görə məsuliyyət daşıyacaq dövlət məmuru ayırsınlar;
- Diskriminasiyanın aşkarlanması və aradan qaldırılmasına istiqamətlənmiş tədbirlər keçirsinlər;
- Büdcələrdə gender əlaməti ilə diskriminasiyanın qarşısını alsınlar.

**Uşaqlar**

2019 –cu ildə "Uşaq Hüquqları Məcəlləsi" qanunu qəbul ediblər. Qanun uşaqların rifahı və inkişafı ilə əlaqədar çoxsaylı aspektləri əhatə edir. Məcəllə ilə yerli hakimiyyət öhdəliklərinin geniş spektri nəzərdə tutulub, xüsusi əhəmiyyəti var:

- Uşaqların müdafiəsi və dəstəklənməsi üzrə bələdiyyə xidmətlərinin yaradılması öhdəliyi;
- Özünün və ona verilmiş səlahiyyətlər çərçivəsində sosial, səhiyyə, təhsil, inklüziv və digər istiqamətlərdə proqramların hazırlanması və icrası.

**Fiziki imkanları məhdud şəxslər**

Gürcüstan 2020-ci ildə "Fiziki imkanları məhdud şəxslər haqqında" qanun qəbul edib. 2021-ci ildə isə Gürcüstan Parlamenti BMT-nin fiziki imkanları məhdud şəxslərlə bağlı konvensiyasının fakültativ protokolunun ratifikasiyasını həyata keçirib. Həmin il Gürcüstan hökuməti fiziki imkanları məhdud şəxslərin hüquqları haqqında Qurumlararası Koordinasiya Komitəsi yaradıb.

BMT-nin Fiziki İmkanları Məhdud Şəxslər Konvensiyası və qanunu ilə müəyyən edilmiş öhdəliklər çərçivəsində fiziki imkanları məhdud şəxslər qarşısında yerli özünüidarənin sonrakı öhdəlikləri müəyyən edilmişdir:

- 2025-ci ilə qədər şəxsi köməkçi xidmətinin inkişafı və çatdırılması;
- Fiziki imkanları məhdud olan şəxslər üçün müstəqil yaşama dəstək olmaq, onların qərar qəbul etmə prosesində iştirak etməyə həvəsləndirilməsi və sosial xidmətlərin inkişafı;
- Verilmiş səlahiyyətlər çərçivəsində sosial xidmətlərdən istifadə etmək.

Qeyd olunan öhdəliklərdən əlavə, bələdiyyələrdə fiziki imkanları məhdud şəxslərin məsələləri üzərində işləyən şuraların olması tətbiq edilmiş təcrübədir. Onun məqsədi yerli səviyyədə icmada olan ehtiyacların müəyyən edilməsi və bu ehtiyaclara cavab olaraq məqsədli proqramların inkişafına dəstək olmaqdır.

**Milli azlıqlar**

Gürcüstan hökuməti Barışıq və Vətəndaş Bərabərliyi Məsələlərində Gürcüstan Dövlət naziri Aparatının rəhbərliyi və koordinasiyası ilə "Vətəndaş bərabərliyi və inteqrasiyanın 2021-2030-cu illərin dövlət strategiyasını və fəaliyyət planını" hazırlayıb. Strategiya ilə müəyyən edilmiş prioritetli istiqamətlər bunlardır:

- Dövlət dili və inteqrasiyaya dəstək olmaq;
- Keyfiyyətli təhsilin əlçatanlığı;
- Bərabərlik, ictimai və siyasi iştirak;
- Sosial və iqtisadi inteqrasiya;
- Mədəniyyətlərarası dialoq.

Strategiyanın fəaliyyət arealına kontekstin analizində müzakirə edilmiş hədəf bələdiyyələr daxil edilib. Çünki burada milli azlıqlar xüsusilə konsolidasiya edilib.

**Qaçqınlar**

2014-cü ilin "Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Məcburi Köçkünlər – Qaçqınlar haqqında" Gürcüstan qanunu bu statusu daşıyan şəxslərin və onlar qarşısında yerli bələdiyyələrin öhdəliklərini müəyyən edir. Yerli bələdiyyələrin öhdəlikləri arasında yer alır:

- Uzunmüddətli yaşayış yeri ilə təmin etmək;
- Qaçqın hüquqlarının müdafəsi üçün zəmanətlər yaratmaq.

## 1.4. Gürcüstanda hüquq müdafiə edən qruplarla bağlı mərkəzi və yerli səviyyədə mövcud olan sosial xidmətlər

**Gürcüstan hökuməti ölkə tərəfindən götürülmüş beynəlxalq öhdəliklər və milli qanunvericilik çərçivəsində mərkəzi və yerli səviyyədə proqramlar üzərində işləyir. Bu proqramlar həssas qrupların hüquqlarının həyata keçirilməsinə dəstək olmağa yönəlib.**

**Mərkəzi sosial xidmətlər**

Gürcüstanın "Sosial yardımlar haqqında" qanunu, "sosial yardımı" hər hansı maddi və ya qeyri-maddi xarakterli gəlir olaraq açıqlayır. Bu yardım xüsusi qayğıya ehtiyac duyan şəxslər, yoxsul ailələr və evsiz şəxslər üçün nəzərdə tutulub; "Sosial xidmət" isə fəaliyyət olaraq açıqlanıb, məqsədi qeyri-maddi sosial yardım, konkret olaraq, sosial xidmətlərin çatdırılması yolu ilə xüsusi qayğıya ehtiyac duyan şəxslərin, yoxsul ailələrin və ya evsiz şəxslərin spesifik tələblərinin qane edilməsidir.

Gürcüstan hökumətinin maddi sosial yardımla bağlı 3 kateqoriyası var:

Yaşa görə təqaüd – hədəf qruplar yaşlılardır;

Sosial paket – hədəf qruplar valideyni olmayanlar, fiziki imkanları məhdud olan, siyasi repressiya qurbanı olan şəxslər və ailə üzvlərini silahlı münaqişədə itirmiş adamlardır;

Məqsədli sosial yardım – hədəf təsərrüfatları sosial-iqtisadi baxımdan qiymətləndirilir. Yaşa görə pensiya və universal xarakter daşıyan sosial paketdən fərqli olaraq, ünvanlı sosial yardım ev təsərrüfatlarının yaşayış yerindən, gəlir səviyyəsindən, maddi sərvətlərindən, ev təsərrüfatlarında həssas qrupların nümayəndələrinin sayından və s. asılıdır.

Eləcə də Gürcüstan hökuməti "Sosial Bərpa və Uşaqlara Qayğı üzrə 2022-ci ilin Dövlət Proqramı" çərçivəsində sosial tipli xidmətlər həyata keçirir. Proqram sosial bərpa və uşaqlara qayğıya istiqamətlənmiş komponentlərdən ibarətdir.

"Sosial bərpa üzrə 2022-ci il dövlət proqramının" hüquq sahibi olan hədəf qrupları fiziki imkanları məhdud olan şəxslər (həmçinin, veteranlar və uşaqlar) və yaşlılardır. Proqramın məqsədi hədəf qrupların fiziki və sosial vəziyyətinin yaxşılaşdırılması və ictimaiyyətə inteqrasiyasına dəstək göstərməkdir. Proqram alt-proqramlardan ibarətdir. Həmin proqramlar öz məzmunu ilə birdəfəlik göstərilmiş məhsul, ya davamlı xidmətdir.

Birdəfəlik verilmiş xidmət/məhsul – qeyd olunan məqsədlə yaradılmış proqram çərçivəsində birdəfəlik məqsədli məhsulun verilməsi ya xidmət nəzərdə tutulur. Konkret olaraq, proqramlar bunlardır:

1. Köməkçi vasitələrlə təmin etmə proqramı – bu proqram çərçivəsində vauçer şəklində müxtəlif tipli köməkçi vasitələr təqdim olunacaq. Onun təkrar qəbul edilməsi hüququ və ehtiyacı müvafiq qayda ilə tənzimlənir və çox vaxt neçə ildə bir dəfə verilir. Eləcə də qeyd olunan proqramın xidmətini təqdim edənlərə əsasən paytaxtda olurlar. Buna görə də proqram axtarıcısı olan şəxslər regiondan Tbilisiyə getməli olurlar. Proqram öz növbəsində sorakı komponentlərdən ibarətdir:

   1.1. Araba ilə təmin etmək və fiziki imkanları məhdud şəxslərin işlə təmin edilməsinə dəstək;
   1.2. Protez-ortopedik vasitələrlə təminat;
   1.3. Eşitmə aparatları ilə təminat;
   1.4. Eşitmə qüsurlu fiziki imkanları məhdud şəxslərin video konfrans funksiyasının texniki vasitələrlə (smartfonla) təmin edilməsi;
   1.5. Qoltuqağacı, əl-qoltuq ağacı, görmə qüsurlu şəxslər üçün əl ağacı və hərəkət etmək üçün çərçivələr ilə təminat;
   1.6. Görmə qüsurlu şəxslərin əl ağacı ilə təmin edilməsi;
   1.7. Eynəklərlə təminat.

2. Müharibə iştirakçılarının bərpasına dəstək olan proqramlar – qeyd olunan proqram çərçivəsində 300 lari dəyərində birdəfəlik müvafiq xidmət, fərdi müayinə-profilaktika və bərpa kurslarının maliyyələşdirilməsini əldə edirlər.

**Sistemli xidmətlər** – qeyd olunan məqsədlə yaradılmış proqramlar çərçivəsində ehtiyaclara əsaslanmış uzunmüddətli xidmətlərin göstərilməsi nəzərdə tutulur. Proqramların həyata keçirilməsi üçün hədəf

bələdiyyələrdə qeydiyyatdan keçirilmiş, xidmət göstərən təşkilatlar olmalıdır. Onlar əvvəlcədən müəyyən edilmiş kvotanın (miqdar) hədəf qruplarına xidmət göstərirlər. Konkret olaraq, proqramlar bunlardır:

1. 18 yaşdan yuxarı adamlar üçün gün mərkəzləri xidmətinin təmin edilməsi proqramı – bu proqram gündəlik (qeyri-iş günlərindən başqa) xidməti nəzərdə tutur. Xidmət müvafiq bacarıqların inkişafına və inteqrasiyasına dəstək olmağa istiqamətlənib. Araşdırmanın hədəf bələdiyyələrindən yalnız Marneuli bələdiyyəsində xidmət göstərən təşkilat var. Təşkilat 8 benefisiara xidmət göstərir, qeyd olunan xidməti göstərən "Uşaq, Ailə, Cəmiyyət" təşkilatıdır. Təşkilat Tbilisidə qeydiyyatdan keçib və regionda nümayəndəliyi var;
2. Eşitmə qüsurlu şəxslərin ünsiyyətinə dəstək göstərən proqram – bu proqram çərçivəsində 8 regiona 10 surdo-tərcüməçi xidmət göstərməlidir. Kvemo Kartli regionunun öz tərcüməçisi var, Samtsxe-Cavaxeti regionunda isə belə xidmət yoxdur. Onlara Şida Kartlinin surdo-tərcüməçisi xidmət göstərir;
3. İcma təşkilatlarında xidmətlə təmin etmək proqramı – qeyd olunan proqramın araşdırıldığı hədəf regionlarda müvafiq xidmət göstərən, qeydiyyatdan keçirilmiş təşkilat yoxdur. Proqramın komponentləri bunlardır:

3.1. Yaşlılar və fiziki imkanları məhdud şəxslər üçün icma xidmətinin təmin edilmə komponenti;

3.2. Fiziki imkanları məhdud şəxslərin ailə tipli müstəqil yaşamına dəstək göstərən xidmətlərin təmin edilməsi komponenti.

"Uşağın qayğısına qalmaq və gənclərə dəstək üçün 2022-ci il dövlət proqamının" hüquq sahibi olan hədəf qrupları bunlardır: Fiziki imkanları məhdud olan uşaqlar, ailə himayəsindən kənar qalmış, aztəminatlı, sahibsiz və tərk edilmə riski altında olan uşaqlar, böhran vəziyyətində olan uşaqlı ailələr və 18-21 yaşa qədər dövlət himayəsi xidmətlərində yaşayan və ya xidmətdən çıxmış gənclər. Qeyd olunan proqramın məqsədi uşaqların fiziki və sosial vəziyyətinin yaxşılaşdırılması, ictimaiyyətə inteqrasiyası və müstəqil yaşama dəstək olmaqdır. Proqram öz məzmunu ilə sistemli qeyri-bələdiyyə fokusu və sistemli bələdiyyə fokusu olan uzunmüddətli bərpaya istiqamətlənmiş xidmətlərdən ibarətdir.

**Sistemli qeyri-bələdiyyə xidməti** (xidmətin effektivliyini həyata keçirən bələdiyyə yaxud regional səviyyəsində qeydiyyatdan keçməyə məcbur deyil) – qeyd olunan məqsədlə yaradılmış proqramlar çərçivəsində ehtiyaclara əsaslanmış uzunmüddətli xidmət göstərilməsi nəzərdə tutulur. Proqramı həyata keçirənin hədəf bələdiyyələrdə və ya regionlarda qeydiyyatdan keçmiş olması mütləq deyil. Konkret olaraq proqramlar budur:

1. Ana və uşaqlar üçün sığınacaqla təmin etmə proqramı – proqramın meyarları ilə analar və uşaqlar üçün sığınacaqla təminat nəzərdə tutulub. Xidmət göstərən təşkilatlar Gürcüstanın yalnız 3 bələdiyyəsində qeydiyyatdan keçib. Bu siyahıda hədəf bələdiyyə yoxdur;
2. Himayədarlıq proqramı – proqramın meyarları ilə nəzərdə tutulmuş uşaqlar üçün himayədar ailələr proqramıdır. Proqrama Gürcüstanın bütün bələdiyyələrindən, eləcə də hədəf bələdiyyələrdən də ailələr qoşulub;
3. Ağır və dərin fiziki imkanları məhdud və ya sağlamlıq problemləri olan uşaqlar üçün ixtisaslaşdırılmış ailə tipli xidmətlər proqramı - proqram meyarları ilə müəyyən edilmiş uşaqlar üçün müvafiq 24

saatlıq ailə tipli xidmətin təklif edilməsidir. Qeyd olunan xidməti təqdim edən təşkilat Gürcüstanın 2 bələdiyyəsində qeydiyyatdan keçib;

4. Himayəsiz qalmış uşaqların inteqrasiya proqramı – məqsəd cari mərhələdə dövlət himayə müəssisələrində və ya himayədarlıqda olan 18 yaşa qədər uşağın bioloji ailəyə qaytarılması, inteqrasiyasıdır. Proqram Gürcüstanın bütün bələdiyyələrində həyata keçirilir.
5. Uzunmüddətli pediatriya qulluq göstərmə üzrə tibbi-sosial mərkəzin xidmət proqramı – Tbilisinin körpə uşaqlar evində olan ağır və dərin fiziki imkanları məhdud və sağlamlıq problemləri olan uşaqlar üçün nəzərdə tutulub. Proqramın spesifikliyindən irəli gələrək xidmət göstərən yalnız Tbilisidə qeydiyyatdan keçib.

**Sistemli bələdiyyə xidməti** - (Xidmət göstərən effektivlik üçün bələdiyyə və ya regional səviyyədə qeydiyyatdan keçmiş olmalıdır) – qeyd olunan məqsədlə yaradılmış proqramlar çərçivəsində ehtiyaclara əsaslanan uzunmüddətli xidmətin göstərilməsi nəzərdə tutulur. Əsasən, proqramın həyata keçirilməsi üçün hədəf bələdiyyədə qeydiyyatdan keçmiş xidmət göstərən təşkilat olmalıdır. Həmin təşkilat əvvəlcədən müəyyən edilmiş kvotanın (sayın) hədəf qruplarına xidmət göstərməlidir. Yalnız böhran vəziyyətində olan uşaqlı ailələrə yardım proqramı istisnadır. Həmin proqram çərçivəsində də qida vauçeri veriləcək. Qeyd edək ki, hədəf bələdiyyələrdə təmsil olunmuş təşkilatlar Tbilisidə qeydiyyatdan keçmiş, böyük təcrübəsi olan təşkilatlardır. Onlar qeyd olunan bələdiyyələrdə illər sonra filial açıblar. Bu kimi hallarda xidmətin provayder olaraq qeydiyyatdan keçirilməsi asanlaşır. Çünki standarta görə, təşkilatın qane etməli olduğu bəzi meyarlar təcrübəli təşkilatlarda artıq var. Bu isə fəaliyyət göstərmək xərclərini azaldır. Qeyd olunan təcrübənin mənfi tərəfi budur ki, yalnız Tbilisidə qeydiyyatdan keçmiş xidmət provayderi ilə idarəetmə təcrübəsinə malik olan sosial xidmətlər mərhələ-mərhələ inkişaf edir və sosial xidmətlərin çatdırılma zənciri bağlanmır. Çatdırılma zəncirinin tam idarə edilməsi əsasən, yerli xidmət göstərən təşkilatların istiqamətidir. Çünki xidmət göstərənlər əksər hallarda icma nümayəndələrinin özü olur. Yerli xidmət göstərənlərə xidmət göstərənə qədər daha çox maddi və resurs dəstəyi lazımdır. Bu isə təəssüf ki, nə mərkəzi nə də yerli hakimiyyət tərəfindən maliyyələşdirilmir. Sistemli bələdiyyə xidmətinin proqramları bunlardır:

1. Böhran vəziyyətində olan uşaqlı ailələrə yardım proqramı – bir ailəyə ildə 600 larilik qida vauçerinin verilməsi;
2. Uşaqların erkən inkişafına dəstək proqramı – Proqram hər ay 8 fərdi ziyarət alan 0-7 yaş arası uşaqlar üçün nəzərdə tutulub. Araşdırmanın hədəf bələdiyyələrindən yalnız 2 bələdiyyədə qüvvədədir;
3. Qeydiyyatdan keçmiş, xidmət göstərən proqram – Marneulidə 336 ziyarət (təxminən hədəf olan 42 uşaq, proqramı “Uşaq, Ailə, Cəmiyyət” MMC və “Marneuli bələdiyyə ərazisində olan Uşaq Bağçaları Birliyi” həyata keçirir), Axaltsixe bələdiyyəsində isə 160 ziyarət (təxminən, hədəf olan 20 uşaq – proqramı həyata keçirən “Gürcüstan Portage Assosiasiyasıdır”) qeydə alınıb;
4. Uşaqların bərpası/habilitasiya proqramı – İldə 8 kursdan ibarət olan fərdi bərpaya istiqamətlənmiş proqram. Kurs 10 günlük bərpa seansından ibarətdir. Qeyd olunan proqramın qeydiyyatdan keçmiş tədarükçüsü yalnız Marneuli bələdiyyəsində qeydə alınıb;

5. Gün Mərkəzi xidməti ilə təmin etmə proqramı – müvafiq bacarıqların inkişafına və inteqrasiyaya dəstəyə istiqamətlənmiş gündəlik (qeyri-iş günündən başqa) xidmətdir. Araşdırmanın hədəf bələdiyyələrindən yalnız Marneuli və Bolnisi bələdiyyəsində xidmət göstərən təşkilatlar var. Marneuli bələdiyyəsi 19 nəfər fiziki imkanları məhdud olan 6-18 yaşa qədər uşaqlara (xidmət göstərən – "Uşaq, Ailə, Cəmiyyət) xidmət göstərir. Bolnisi bələdiyyəsi isə 39 nəfər 6-18 yaşa qədər uşağa (xidmət göstərən "Anika" Assosiasiyası) xidmət göstərir;
6. Kiçik ailə tipli evlərdə xidmətlə təmin etmə proqramı – övladlığa götürmə, himayədarlığa vermə və ya bioloji ailəyə inteqrasiyası baş tutmayan 6-18 yaşa qədər uşaqlar üçün nəzərdə tutulub. Hədəf bələdiyyələrdə qeyd olunan xidmət göstəricisi olan təşkilatlar qeydə alınmır;
7. Evsiz uşaqların sığınacaqla təmin edilmə proqramı – 18 yaşa qədər evsiz uşaqlar üçün nəzərdə tutulmuş səyyar qrup xidməti. Qeyd olunan proqram çərçivəsində xidmət göstərən təşkilatlar Gürcüstanın yalnız 4 bələdiyyəsində qeydiyyatdan keçib. Araşdırmanın hədəf bələdiyyələrində xidmət göstərən təşkilat qeydə alınmır;
8. İnkişafında ağır və dərin maneələr olan uşaqlara mənzildə xidmət göstərmə proqramı – qeyd olunan xidmət göstərən, qeydiyyatdan keçmiş təşkilat Gürcüstanın yalnız 5 bələdiyyəsində mövcuddur. Hədəf bələdiyyələrdə bu profildə təşkilat qeydə alınmır;
9. Dövlət himayəsindən çıxmış 18-21 yaşa qədər gənclərə dəstək proqramı – spesifik meyarlar əsasında müəyyən edilmiş gənclərin müstəqil yaşamına dəstəyi təmin edir. Qeyd olunan xidmət göstərən təşkilatlar yalnız Tbilisidə qeydiyyatdan keçib.

Dövlət əlavə olaraq sağlamlığın müdafiəsi üzrə dövlət proqramını həyata keçirir. Proqram çərçivəsində 2 alt-proqram fəaliyyət göstərir. Prevensiya tipli məzmundan və aksentdən irəli gələrək, sosial yardım çərçivəsində yerli bələdiyyələr tərəfindən maliyyələşdirilmiş proqramlarla əlaqədardır[29].

1. Ana və uşaqların sağlamlıq proqramı – hamilə qadınların müşahidəsinin genetik patalogiyalarını, B və C hepatit, HİV infeksiya/QİÇS və Sifilisin müəyyən edilməsini, onların aşkarlandığı halda müvafiq tibbi xidməti təmin edir; Eləcə də anadan uşağa B hepatitin keçməsinin prevensiyasını, hamilələrin dərmanlarla təminatını, yeni doğulmuş körpələrdə eşitmə diaqnostikası və uşaqların hipotiroidizm, fenilketonuriya, hiperfenilalaninemiya və kistik fibroz skrininqini təmin edir. Qeyd olunan proqramı həyata keçirənlər müvafiq dövlət lisenziyası olan tibbi müəssisələrdir. Onlar hədəf bələdiyyələrdə - Axaltsixe, Ninotsminda, Bolnisi, Qardabani, Dmanisi, Tetritskaro, Marneuli və Tsalkada təmsil olunublar.
2. Xəstəliklərin erkən aşkarlanma və skrininq proqramı – xərçəng və vaxtından əvvəl retinopatiya üçün skrininq, 1-6 yaşa ədər uşaqların yüngül və orta keyfiyyətli mental inkişafın pozulmasının prevensiyasını (erkən diaqnostika vasitəsi ilə), epilepsiyanın diaqnostikası və nəzarəti, uşaqların qanında qurğuşun tərkibinin monitorinqini təmin edir. Qeyd olunan proqram üzrə xidmət göstərənlər yalnız mərkəzi səviyyədə, Tbilisidə (yalnız epilepsiyaya diaqnostika və nəzarət Kutaisidə əlçatandır) təmsil olunub.

29 Gürcüstan hökumətinin 2022-ci ilin sağlamlığın müdafiəsi üzrə dövlət proqramlarının təsdiqlənməsi haqqında 2022-ci il 12 yanvar N4 sərəncamı.

Qeyd olunan proqramlar prevensiya xarakterlidir və ümumiyyətlə, analar və uşaqların erkən skrininqinə istiqamətlənib. Bu əksər hallarda əlavə olaraq fiziki imkanları məhdud olan şəxs statusunun verilməsinə səbəb olan risk faktorları azaldır, ümumilikdə insanın sağlamlıq vəziyyətini ağırlaşdırır və o müxtəlif sosial yardım axtaran şəxsə çevrilir.

Mərkəzi hökumət tərəfindən əksər hallarda yuxarıda qeyd olunmuş sosial və səhiyyə proqramlarının yerli səviyyədə qeydiyyatdan keçmiş xidmət göstərən təşkilatı olmur. Baxmayaraq ki, konkret hədəf bələdiyyələrin spesifikasından irəli gələrək səbəblərin siyahısı bir az fərqlənə bilər, bir neçə ümumi səbəb olacaq maneə var, konkret olaraq:

Əksər hallarda yerli maraqlanan tərəf cari sosial və səhiyyə xidməti göstərən təşkilat olaraq qeydiyyat üçün lazımı meyarları (xidmət göstərmə standartı) qane etmir. Xidmət göstərmə standartında əksər hallarda infrastruktur (adaptasiya edilmiş mühit) və müvafiq ixtisaslı mütəxəssislərin (Məs. peşə terapevti, nitq terapevti, reabilitoloq, davranış terapevti, psixiatr və s.) olması lazımdır. Onların regionda axtarılması təşkilat üçün çətindir. Qeyd olunan meyarların qane edilməsi üçün maddi resursların olması lazımdır ki, müvafiq ekoloji mütəxəssisləri hazırlayıb işə götürsünlər. Təəssüf ki, dövlət proqramları xidmət üçün cari, lazımı xərcləri əhatə edir (əksər proqram üçün nəzərdə tutulmuş maliyyə real xərcin yalnız 60%-ni əhatə edir, məsələn, Gün Mərkəzləri proqramı). Təşkilatlar isə yerli dövlət və özəl strukturlarda qarşılıqlı maliyyə axtarmalı olurlar. Xidmətə başlamaq üçün lazımı sərmayəni maraqlanan tərəf özü axtarmalıdır. Bunun üçün ayrıca bacarıqlar lazımdır. Eləcə də yerli və beynəlxalq donorlar xidmətə başlamaq üçün lazımı məqsədli qrantların verilməsi üzərində elə də çox işləmirlər. Onlar əksər hallarda prioriteti artıq təcrübəsi olan təşkilatlara verirlər. Bunların hamısı isə yerli təşkilatların qeyd olunan xidmətləri göstərmək üçün qeydiyyatdan keçməsinə mane olur. Nəticədə Tbilisidə qeydiyyatdan keçmiş təcrübəli təşkilat filialları regionlarda fəaliyyət göstərir. Onların yerli təşkilatlarla müqayisədə daha çox insani və maddi resursa və ya bu kimi resurslara əlçatanlığı var.

## Bələdiyyələrdə sosial yardımın tənzimlənməsi və yardım növləri

Araşdırmanın hədəf bələdiyyələrində (ümumiyyətlə tətbiq edilmiş təcrübədir) sosial yardım növlərini və miqdarı Bələdiyyə Məclisi öz büdcəsinin təsdiqlənməsi haqqında sərəncamı ilə təsdiq edir. Sosial yardımın verilmə qaydası Bələdiyyə Məclisinin sərəncamı ilə tənzimlənir (Bu büdcədən sosial yardımın verilmə qaydasının təsdiqlənməsi haqqında sərəncamdır). Hər iki sənəd hər il və demək olar eyni vaxtda təsdiqlənir.

Proqramın maliyyəsinin başa çatması və ya başqa xüsusi hallarda sosial yardımın kifayət qədər mühüm hissəsi bələdiyyə büdcəsinin ehtiyat fondundan həyata keçirilir. Fond bələdiyyə büdcəsində nəzərə alınmamış xərclərin qarşılanması üçün yaradılıb. Ehtiyat fondunun həcmi illik büdcə ilə nəzərdə tutulmuş təxsisatların ümumi həcminin 2%-dən artıq deyil. Qeyd olunan fonddan maliyyələşdirilir:

- Təbii fəlakətlərdən yaranmış vəziyyətin aradan qaldırılması işləri; Eləcə də insan sağlamlığı və yaşamı üçün yaranmış təhlükələrin ləğvetmə işləri;
- Büdcədən maliyyələşdirilməyən, yaxud büdcədə müvafiq proqramın maliyyələşdirilməsi tükəndiyi halda təxirəsalınmaz, operativ, müalicəvi və ya tibbi tədqiqatlar;
- Müxtəlif mühəndislik infrastrukturunun bərpa xərcləri;

- İdman, mədəni və maarifləndirici tədbirlərin keçirilməsi;
- Başqa, yerli büdcə ilə nəzərdə tutulmamış və qanunla qadağan edilməyən xərclərin maliyyələşdirilməsi.

**Bələdiyyələrdə sosial yardımların verilmə qaydası**

Müxtəlif bələdiyyələrdə sosial yardımların verilməsinin fərqli təcrübəsinə rast gəlirik.

## QAYDA 1. KOMISSIYA VƏ YA ŞURANIN TÖVSIYƏSI – QƏRAR QƏBUL EDƏN MER (TSALKA, MARNEULI, QARDABANI, BOLNISI, TETRITSKARO)

Bələdiyyə meriyasına sosial yardımlar tələbi ilə gələn bütün ərizələr, digər sənədlərlə birlikdə, araşdırılma və sosial yardım verilmə məsələsi nəticəsinin hazırlanması üçün bələdiyyə meriyasının Sosial Məsələlərin Müzakirəsi Komissiyasına göndərilir. Komissiya əsasən meriyanın dövlət məmurlarından ibarətdir. Ancaq dövlət prinsipləri qorunmasının təmin edilməsi məqsədi ilə komissiya tərəfindən sosial yardımların verilməsi məsələlərinin müzakirəsi ilə maraqlanan kütləvi informasiya vasitələri, ictimai təşkilat nümayəndələri də iştirak edə bilərlər. Eləcə də Bələdiyyə Məclisi üzvlərinin və Sosial Xidmət Agentliyinin nümayəndələrinin iştirakı da nəzərdə tutulub.

Sosial yardımların verilməsi komissiyanın nəticəsi əsasında, bələdiyyə meri tərəfindən verilmiş fərdi hüquqi akta uyğun olaraq həyata keçiriləcək.

Maddi yardım ərizə verən tərəfindən təqdim edilmiş şəxsin bank hesabına köçürüləcək. Qeyri-maddi sosial yardım olan halda isə nəğd olmayan hesablar formasında müvafiq tibbi müəssisələrin bank hesabına ödənəcək.

## QAYDA 2.QƏRAR QƏBUL EDƏN IŞÇI QRUPU (AXALTSIXE)

Vətəndaşlara sosial yardım verilməsi haqqında qərarı bələdiyyə meri tərəfindən yaradılmış işçi qrupu qəbul edir. Onlar iclasda səs vermək hüququ olan üzvlərin ən azı üçdə ikisi iştirak etdikdə səlahiyyətlidirlər. İşçi qrupu meriyanın dövlət qulluqçularından ibarətdir.

## QAYDA 3. MERIYANIN MÜVAFIQ XIDMƏTININ TÖVSIYƏSI – QƏRAR QƏBUL EDƏN MER (NINOTSMINDA, DMANISI)

Bələdiyyə meriyasına sosial yardımların verilməsi haqqında gəlmiş ərizələrin müzakirəsini meriyanın İnzibati Xidmət, Sağlamlığın Müdafiəsi və Sosial Təminat Şöbəsi edəcək.  Sosial yardımın verilməsi məsələsinin həlli fərdi olaraq, hər konkret halın hərtərəfli araşdırılması əsasında olur. Tam sənədlər olan halda qərarı merin fərdi inzibati-hüquqi aktı əsasında qəbul edirlər.

**Bələdiyyələrdə sosial yardım proqramı nəticələrinin qiymətləndirilmə meyarları**

Büdcə proqramları nəticələrinin qiymətləndirilməsi üçün bələdiyyənin 2022-ci il proqram büdcəsində müvafiq məqsədlər və nəticələr nəzərə alınıb. Ancaq verilmiş meyar kifayət qədər ümumidir və konkret indikatorları əhatə etmir.

Misal üçün, Axaltsixe bələdiyyəsinin proqramlarından birinin izahatında məqsəd müəyyən edilir. Yaşlılara maddi dəstək, ata-anası olmayan uşaqlar üçün aylıq maddi yardım verilməsi. Gözlənilən nəticələrə gəldikdə isə onlar belə yazılıb: Ailələrə maddi dəstək, proqramın hədəf qrupları və onların ailələrinin sosial vəziyyətinin yüngülləşdirilməsi, benefisiarlar üçün azaldılmış xərclər, ictimaiyyətdə daha çox inteqrasiya olunmuş ailələr, ağsaqqalların qocalığının layiqli təmin edilməsi, ata-anası olmayan uşaqların himayədarlıq və qəyyumluqla təmin edilməsi.

Ninotsminda bələdiyyəsinin proqramlarından biri – ehtiyacı olan ailələrə birdəfəlik maddi yardım – nəticə belə təsvir olunub: ehtiyacı olan əhali üçün imkan daxilində yaradılmış güzəştli mühit, iştirak edən benefisiarların sayı, razı qalmış əhali.

Qardabani bələdiyyəsinin sosial və səhiyyə proqramları qiymətləndirməsinin əsas indikatorlarından biri proqrama qoşulmuş vətəndaşların sayı, nəticə isə konkret proqramdan istifadə edənlərə yardım etməkdir.

Yuxarıdakı misallar proqramın/alt proqramın əldə etdiyi nəticələrin qiymətləndirilməsinin praktiki olaraq mümkün olmadığını göstərmək üçün verilmişdir. Araşdırma prosesində bütün hədəf bələdiyyələrdə ictimai məlumat tələb etmək yolu ilə əhaliyə sosial dəstək proqramları nəticəsinin qiymətləndirmə hesabatının olması yoxlanıldı. Təcrübə göstərdi ki, bələdiyyələr yalnız say göstəricisini qeydə alırlar – məsələn, neçə benefisiar yardım alıb, büdcədən müxtəlif proqramların həyata keçirilməsi üçün nə qədər pul xərclənib. Ancaq sosial proqramların orta və yekun qiymətləndirmə hesabatlarına heç yerdə rast gəlmədik. Eləcə də bu hesabatlara əsaslanaraq, proqramların daha da yaxşılaşdırılması üçün müvafiq tövsiyələr hazırlanmayıb. Bu kimi hesabatlar və tövsiyələr nə praktiki nə də ictimai məlumat olaraq əlçatan deyil. Bu isə bizə belə sənədlərin real olaraq mövcud olmamasına şübhə etməyimiz üçün əsas verir.

**Bələdiyyələrdə sosial yardım proqramlarının büdcədən maliyyələşdirilməsi**[30]

1. Axaltsixe bələdiyyəsinin büdcə gəliri 25 996 100 lari təşkil edir. Buradan 1 342 300 lari sosial yardım proqramına sərf olunur. Bu isə büdcənin 5,16%-ni təşkil edir;
2. Ninotsminda bələdiyyəsinin büdcə gəliri 11 512 900 laridir, buradan 555 000 lari sosial yardım proqramlarının həyata keçirilməsinə xərclənir. Bu isə büdcənin 4,82%-ni təşkil edir;
3. Bolnisi bələdiyyəsinin büdcə gəliri 34 404 800 lari təşkil edir, buradan 1 892 000 lari sosial yardım proqramına xərclənir, bu isə büdcənin 5,5%-ni təşkil edir;
4. Qardabani bələdiyyəsinin büdcə gəliri 39 239 500 lari təşkil edir. Buradan 3 292 900 lari sosial yardımlar proqramına xərclənir, bu isə büdcənin 8,4%-ni təşkil edir.

30 Göstəricilər 2022-ci ilin 29 mayına olan vəziyyətə görə hesablanıb.

5. Dmanisi bələdiyyəsinin büdcə gəliri 18 565 800 lari təşkil edir. Buradan 575 000 lari sosial yardım proqramına xərclənir, bu isə büdcənin 3%-ni təşkil edir;
6. Tetritskaro bələdiyyəsinin büdcə gəliri 18 705 000 lari təşkil edir. Buradan 485 500 lari sosial yardımlar proqramına xərclənir, bu isə büdcənin 2,6%-ni təşkil edir;
7. Marneuli bələdiyyəsinin büdcə gəliri 46 330 700 lari təşkil edir. Buradan 2 246 600 lari sosial yardım proqramına xərclənir, bu isə büdcənin 4,8%-ni təşkil edir;
8. Tsalka bələdiyyəsinin büdcə gəliri 11 469 100 laridir, buradan 500 000 lari sosial yardım proqramına xərclənir. Bu isə büdcənin 4,35%-ni təşkil edir.

Ümumilikdə 8 hədəf bələdiyyənin gəlirləri 206 223 900 lari təşkil edir. Buradan büdcədən 10 889 300 lari sosial dəstək proqramına xərclənir. Bu isə orta olaraq büdcənin 5,28%-ni təşkil edir. Tbilisi bələdiyyə büdcəsinin analoji göstəricisi bu göstəricidən 2 dəfə artıqdır – 1379 987 100 lari dəyərində gəlirlər şəraitində, sosial isitqamətdə 145 776 100 lari xərclənəcək. Bu isə gəlirlərin 10,5%-ə bərabərdir.

Bələdiyyənin sosial proqramında hansı tip tələbin olduğunu müəyyən etmək mümkün deyil. Çünki bələdiyyənin bu tipli statistikası yoxdur. Müvafiq olaraq, sosial dəstək tələb etmək-göstərmək arasında balans müəyyən olunmur. Bu göstəriciyə yaxın göstəricini müəyyən etmək sosial proqramlar üçün ayrılmış vəsaiti bir nəfər sakinə görə hesablamaqla mümkündür. Qeyd olunan götəricilərə əsasən bələdiyyələrdə fərq böyükdür. Məsələn, Marneuli bələdiyyəsində adambaşına 20,9 lari nəzərdə tutulub. Qardabanidə analoji göstərici 2 dəfə artıq, 41,5 laridir. Tbilisidə bu göstərici 121,4 lari təşkil edir (145 776 100 lari: 1200 000 sakinlərə).

Sosial istiqamətdə hər hansı mühüm bərabərsizlik sosial dövlət prinsipinə ziddir. Gürcüstan Konstitusiysının 5-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq “Dövlət ölkənin bütün ərazisində bərabər sosial-iqtisadi və demoqrafik inkişafın qayğısına qalır”. Avropa Xartiyasının yerli özünüidarə haqqında 9-cu maddəsinin 5-ci bəndinə görə, “maliyyə baxımından zəif yerli hakimiyyət orqanlarının müdafiəsi maliyyə bərabərləşdirmə prosedurlarının və ya potensial maliyyə mənbələrinin, maliyyə öhdəliklərinin qeyri-adekvat bölüşdürülməsinin nəticələrini düzəltməyə yönəlmiş digər müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir”.

Bu qeydlər dövlət üçün istənilən bələdiyyənin sakinlərinə eyni dərəcədə əlçatan olan minimum sosial təminat standartını yaratmaq öhdəliyini yaradır (Bax. Cədvəl #6)

**Cədvəl #6**

| Bələdiyyə | Sosial proqramlara ayrılmış vəsait (lari) | Əhalinin sayı (2022) | Məbləğ adambaşına hesablanır (lari) |
|---|---|---|---|
| 1. Axaltsixe | 1 342 300 | 39 100 | 34.3 |
| 2. Ninotsminda | 555 000 | 17 900 | 31 |
| 3. Bolnisi | 1 892 000 | 55 900 | 33.8 |

| | | | |
|---|---|---|---|
| 4. Qardabani | 3 292 900 | 79 300 | 41.5 |
| 5. Dmanisi | 575 000 | 20 900 | 27.5 |
| 6. Tetritskaro | 485 500 | 22 500 | 21.5 |
| 7. Marneuli | 2 246 600 | 107 500 | 20.9 |
| 8. Tsalka | 500 000 | 19 600 | 25.5 |

**2. Hədəf bələdiyyələrin büdcələrində sosial yardım kateqoriyalarının məsələlərə əsasən prioritetləşdirilməsi**

Tsalka bələdiyyəsinin yalnız bir, "Xəstələrin sosial müdafiə proqramı" adlı proqramı var. Proqram iki hissəyə bölünür: maddi və qeyri-maddi yardım kateqoriyaları. Proqram 653 000 lari maliyyələşir və əsasən sonrakı kateqoriyaları əhatə edir:

- Müxtəlif həssas qrupa (aztəminatlılar, valideynlərini itirmiş uşaqlar, ehtiyacı olan ailələr, müharibə veteranı ailələri və s.) birdəfəlik maddi yardım;
- Ritual xidmətlərinin maliyyələşdirilməsi;
- Valideynlərini itirmiş uşaqlara ev və sığınacaqlar üçün maddi yardım;
- Bayram günlərində pul hədiyyəsi və birdəfəlik maddi yardımların verilməsi;
- Təcili tibbi xidmət və dərmanların pulunun ödənilməsi.

Proqramın maliyyələşdirilməsinin 80%-dən artığı müxtəlif həssas qruplara birdəfəlik maddi yardım və təcili tibbi xidmət, dərmanların pulunun ödənilməsinə düşür.

**Axaltsixe bələdiyyəinin sosial müdafiə büdcə proqramı 1552 300 lari maliyyələşdirilir, buradan prioritet məsələlər belə bölünür:**

- Əhalinin tibbi xidmətinin maliyyələşdirilməsi – 732 900 lari (47,2%);
- Fiziki imkanları məhdud şəxslərə sosial yardım – 211 000 lari (13,5%);
- Axaltsixe bələdiyyəsinin Qocalar Evi – 193 000 ari (12,4%);
- Məcburi köçkün şəxslərə, qaçqın və son dərəcə ehtiyacı olanlara sosial yardım – 155 300 (10%).

**Ninotsminda bələdiyyəsinin sosial təminat proqramı 575 000 lari maliyyələşdirilir, buradan prioritetli məsələlər bunlardır:**

- Aztəminatlı ailələrin müalicə xərcləri – 210 000 lari (36,5%);
- Ailə və uşaqların sosial təminatı – 100 000 lari (17,4%);
- Ehtiyacı olan ailələr üçün birdəfəlik maddi yardım – 100 000 lari (17,4%).

**Marneuli bələdiyyəsinin sosial təminat proqramı 2 210 000 lari maliyyələşdirilir, buradan prioritetli məsələlər sonrakılardır:**

- Xəstələrin sosial təminatı – 1 600 000 lari (72,3%);
- Ailə və uşaqların sosial təminatı – 605 000 (27,3%).

**Qardabani bələdiyyəsinin sosial təminat büdcə proqramı 3 577 000 lari maliyyələşdirilir, buradan prioritetli məsələlər bunlardır:**

- Sağlamlığın müdafiəsi proqramı – 875 000 lari (24,5%);
- Aztəminatlı ailələrə yardım proqramı – 718 000 lari (20%);
- Birdəfəlik maddi yardım proqramı – 521 000 lari (14,5%);
- Terapevt Mərkəzinə dəstək – 300 000 lari (8,3%);
- Aztəminatlıların tibbi xidmət proqramı – 290 000 lari (8%).

**Dmanisi bələdiyyəsinin sosial təminat büdcə proqramı 725 000 lari maliyyələşdirilir, buradan prioritetli məsələlər belə bölünür:**

- Aztəminatlı əhalinin tibbi stasionar, ambulatoriya yardım bələdiyyə proqramı, əməliyyat xərcləri – 300 000 lari (41,3%);
- Ağır dioaqnozu olan və müxtəlif sosial təbəqədə olan əhalinin sosial təminatı (xəstələrin təminatı) – 200 000 lari (27,5%);
- Bədxassəli şişlər və hepatit C-dən əziyyət çəkən insanlara maliyyə dəstəyi – 135 200 lari (18,6%).

**Bolnisi bələdiyyəsinin sosial təminat büdcə proqramı 4 162 370 lari maliyyələşdirilir, buradan prioritetli məsələlər belə bölünür:**

- Bələdiyyə nəqliyyatında gediş haqqına güzəşt – 748 000 lari (18%);
- Təbii fəlakət nəticəsində dəymiş ziyanın qarşılanması – 728 000 (17,5%);
- Tibbi təminat proqramı – 713 000 lari (17,1%);
- "Bolnisi Bələdiyyəsinin Qocalar Evi" – 657 200 lari (15,8%);
- Birdəfəlik yardımlar – 260 000 (6,2%);
  Xəstələrin dərmanlarla təmin edilməsi – 200 000 lari (4,8%).

**Tetritskaro bələdiyyəsinin sosial təminat büdcə proqramı 896 500 lari maliyyələşdirilib, buradan prioritetli məsələlər belə bölünüb:**

- Fiziki imkanları məhdud şəxslərə yardım; Bələdiyyə əhalisinin tibbi təminatı üçün birdəfəlik yardım, yeni uşaq dünyaya gətirənlərə yardım – 335 000 lari (37,3%);
- Yaşlıların sosial təminatı, "Tetritskaro Məktəbəqədər Təhsil və Aztəmiantlılara Yardım Mərkəzi" – 278 600 lari (31%);
- Ailə başçısını itirmiş şəxslərin, ailə və uşaqların sosial təminatı, "Qızıl Xaç" – 150 000 lari (16,7%).

Büdcə proqramlarının analizi göstərir ki, sosial yardım proqramlarına sərf olunan xərclər, əsasən, iki istiqamətdə bölünüb - əhaliyə tibbi xidmət və həssas qruplara birdəfəlik maddi/qeyri-maddi yardım. Həssas qrup olaraq əsasən aztəminatlı kateqoriya- uşaqlar, qocalar, ehtiyacı olan ailələr hesab olunur.

**<u>Bələdiyyənin sosial və səhiyyə proqramları</u>**

Hədəf bələdiyyələrin əksəriyyətində sosial dəstək olaraq sağlamlığın qorunması və sosial yardımın təyin edilməsi, verilməsi ilə əlaqədar münasibətləri, sağlamlığın qorunması, sosial yardım növləri, onların təyin edilməsi, verilməsinin əsas prinsiplərini nəzərdə tuturlar.

Bələdiyyə Məclisi tərəfindən araşdırmanın hədəf bələdiyyələrinin təsdiqlənmiş hüquqi aktları nəticəsində aydın olur ki, bələdiyyələrdə sosial yardımların kifayət qədər rəngarəng növləri var. Yardımların məzmununu nəzərə

alaraq, ola bilər onlar sonrakı məzmuna görə qruplaşdırılsın:

I. Birdəfəlik pul yardımı – ildə bir dəfə ya birdəfəlik hüquq sahibi olan qruplara verilmiş pul vəsaiti.
II. Birdəfəlik qeyri-maddi yardım – hüquq sahibi olan qruplar üçün qəbul olunan birdəfəlik müavinətlər (xidmətlər və ya məhsullar şəklində);
III. Sistemli pul (aylıq, rüblük) yardımı – sistemli verilmə xarakteri daşıyan,hüquq sahibi olan qrupa verilmiş pul vəsaiti;
IV. Sistemli qeyri-maddi yardım (aylıq, rüblük, mövsümi) – sistemli xarakter daşıyan, hüquq sahibi olan qruplara verilmiş müavinət (xidmət, odun və ya kommunal vergilərə görə vauçer).

Aşağıda verilmiş cədvəldə ( #6) 8 hədəf bələdiyyənin hüquq daşıyan qruplarla bağlı sosial və səhiyyə xidmətlərinin təhlili təqdim olunub. Müxtəlif yardım tipi ümumilikdə, 106 yardımdan ibarətdir və 8 bələdiyyə birləşib. Qeyd olunan yardımın 64%-dən artığı birdəfəlik pul yardımlarına (I tipli yardım) istiqamətlənib. Bələdiyyənin sayca ikinci tipli yardımı qeyri-maddi sistemli yardımdır (IV tipli yardım) – 22%. Sonrakı yardım birdəfəlik qeyri-maddi yardımdır (9%), ən aşağı faiz hissəsi olaraq isə sistemli pul yardımı təqdim olunub – 4%. Qeyd edək ki, yalnız Tsalka bələdiyyəsində birdəfəlik yardımlar var və heç bir proqram sistemli xarakter daşımır. Əgər öz məzmunu ilə oxşar olan I və II tipli yardımları birləşdirsək, bələdiyyələrin yardımlarının 74% birdəfəlik yardım tipindədir. Həmin yardımlar öz məqsədi ilə yalnız həssas vəziyyətdə olan adamların baza ehtiyaclarının müvəqqəti olaraq təmin edilməsinə yönəlib; Digər tərəfdən isə bələdiyyə resurslarının yalnız 24%-i sistemli xarakter daşıyan inkişaf və potensialın həyata keçirilməsinə istiqamətlənib (Bax. Cədvəl #7).

Maddi və qeyri-maddi birdəfəlik yardımların idarə edilməsi inzibati resursların bələdiyyə tərəfindən az olması ilə əlaqədardır. Qeyd olunan proqramlar hədəf və sistemli proqramlardan fərqli olaraq əhalinin böyük hissəsini əhatə edir. Həmin proqramlar zamanı hədəf benefisiarlar qrupu və onların sayı əvvəlcədən müəyyən edilib. Eləcə də hədəf sistemli tipli proqramlarda, proqramların həyata keçirilməsi və monitorinqi üçün bir tərəfdən müvafiq bacarılqarı olan heyətə ehtiyac var, digər tərəfdən isə daha artıq inzibati resurs lazımdır.

**Cədvəl #7**

| Hüquq sahibi olan qruplar | Bələdiyyələr | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Samtsxe-Cavaxeti | | Kvemo Kartli | | | | | |
| | Axaltsixe | Ninotsminda | Bolnisi | Qardabani | Dmanisi | Tetritskaro | Marneuli | Tsalka |
| 1. Xüsusi ehtiyacı olan şəxslər | | | | | | | | |
| 1.1. Valideynlərini itirmiş və valideyn himayəsindən kənar qalmış uşaqlar | I, IV | I | I | I | | III | I, II | I, II |
| 1.2. Fiziki imkanları məhdud şəxslər | I, IV | I | I, III, IV | I | I, IV | I, II | I, II | I |

| Hüquq sahibi olan qruplar | Bələdiyyələr | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Samtsxe-Cavaxeti | | Kvemo Kartli | | | | | |
| | Axaltsixe | Ninotsminda | Bolnisi | Qardabani | Dmanisi | Tetritskaro | Marneuli | Tsalka |
| 1.3. Ailə himayəsindən kənar qalmış, özünə xidmət göstərmək qabiliyyəti məhdud olan yetkinlik yaşına çatmış şəxslər | | | | | | | | |
| 1.4 Ailə başçısını itirmişlər | I, IV | I | I | | II | | II | I |
| 1.5. Sahibsiz uşaqlar | | | | | | | | |
| 2.Yoxsul (aztəminatlı) ailələr | I, II | I | | I, IV | | I, II, IV | I, II | I |
| 3. Evsiz şəxslər | IV | I, IV | IV | IV | I | I | | I |
| 4. Uşaqlar | I, IV | I | I | I, IV | | I, IV | I | I |
| 5. Qadınlar | | | | | | | | |
| 6. Milli azlıqlar | | | | | | | | |
| 6.1. Dini azlıqlar | | | | | | | | |
| 6.2. Etnik azlıqlar | | | | | | | | |
| 7. Ekomiqrantlar | | | | | | | | |
| 8. Yaşlılar | I | | I | I | | I | I | I |
| 9. Qaçqınlar | IV | | | I, IV | | I | I | |
| 10. Çoxuşaqlı ailələr | I | I | I | I, IV | | I | | I |
| 11.Tək valideyn | IV | I | | I | I | I | I | |
| 12.Veteranlar | I | I | I | I | | I, II | I | I |
| 13. Sağlamlığın müdafiəsinə ehtiyac duyan qruplar | I, IV | | I, IV | I, IV | I, IV | I, IV | I, IV | |
| 14. Zorakılıq qurbanı statusu olan şəxslər | | III | I, IV | | | I | | |
| 15. Tələbələr | | I | III | I | | | I | |

Baza araşdırması çərçivəsində sosial və səhiyyə istiqamətində əhalinin ehtiyacları müəyyən olunub. Kəmiyyət sorğusu nəticəsində aydın olub ki, müsahiblərin əsas hissəsi (81%) bələdiyyənin sosial xidmətlərindən yararlanmır (Samtsxe-Cavaxeti 88%, Kvemo Kartli 75%). Dövlət (mərkəzi) xidmətlərindən yararlanmamaq göstəriciləri kifayət qədər aşağıdır (26%; Samtsxe-Cavaxeti-24%, Kvemo Kartli-29%). Araşdırmada iştirak edən şəxlsər tərəfindən qeyd olunan bələdiyyənin sosial xidmətləri arasında nisbətən birdəfəlik (maddi və ya başqa növ) yardımlardan (6%) və aztəminatlı uşaqlara və yeni doğulmuşlara dəstək proqramından (4%) faydalananlar qrupu müəyyən edilib; Dövlət (mərkəzi) xidmətləri arasında isə - yaşa görə təqaüd (29%), dövlət tibb sığortası (20%), kommunal subsidiyalar (18%) müəyyən edilib. (Bax. Cədvəl #8, #9).

Müsahiblər əsasən, hər hansı növ yardımı (bələdiyyə eləcə də mərkəzi) vaxtında alırlar və göstərilən xidmətlərdən razıdırlar (bələdiyyə xidmətlərindən təxminən 63%, dövlət (mərkəzi) xidmtələrdinən isə təxminən 70% razıdır).

## Cədvəl #8

| Siz və ya ailə üzvünüz aşağıda sadalanan bələdiyyə xidmətlərinin hansından faydalanırsınız? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Xeyr, heç biri | 87.8% | 74.9% |
| Birdəfəlik (maddi və ya başqa növ) sosial yardım | 3% | 9.6% |
| Evsiz şəxslərin sığınacaqla təmin edilməsi (sosial yaşayış yeri) | - | 0.1% |
| Çoxuşaqlı ailələrə/tək valideynlərə sosial yardım | 1.7% | 5.4% |
| Aztəminatlı uşaqlara və yeni doğulmuş körpələrə dəstək proqramı | 4.8% | 3.9% |
| Fiziki imkanları məhdud şəxslərə yardım | 2% | 1.2% |
| Pulsuz gediş haqqı | - | 0.6% |
| Pulsuz yeməkxana proqramı | 0.3% | - |
| Evdə qulluq proqramı | - | - |
| Müxtəlif növ zorakılıq qurbanlarına yardım | - | - |
| Gürcüstanın işğal edilmiş ərazilərindən məcburi köçkün şəxslərin və müharibə (veteranlarının) iştirakçılarına, onların ailə üzvlərinə yardım | 0.3% | 1.6% |
| Təbii fəlakət nəticəsində zərərçəkmiş və ağır yaşam şəraitində olan şəxslərə dəstək | - | 0.1% |
| Mərasim yardımları | - | 0.5% |
| Yeni evlənmiş ailələrin həvəsləndirilməsi | - | 0.1% |
| Onlayn təhsil dövründə aztəminatlı ailələrin təhsilə əlçatanlığı | - | 1.3% |
| Tələbələrə və idmançılara yardım | - | 0.5% |
| Başqa | 0.1% | 0.2% |

## Cədvəl #9

| Siz və ya ailə üzvünüz aşağıda sadalanan dövlət (mərkəzi) sosial xidmətlərinin hansından faydalanırsınız? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Xeyr, heç biri | 23.9% | 29.1% |
| Yaşa görə təqaüd | 29.2% | 28.8% |
| Fiziki imkanları məhdud şəxslərin (həmçinin, uşaqların) təqaüdü | 3.7% | 3.6% |
| Fiziki imkanları məhdud şəxslər üçün Gün Mərkəzi | - | 0.3% |
| Ailə başçısını itirməyə görə təqaüd | 0.1% | 0.4% |
| Müharibə veteranı təqaüdü | 1.3% | 1% |
| Məcburi köçkün şəxslər üçün yardım | 0.2% | 1.1% |
| Dövlət tibb sığortası | 21.1% | 18.6% |
| Tək təqaüdçülər üçün sosial yardım | 0.2% | 0.4% |
| Kommunal subsidiyalar | 20.1% | 15.8% |
| Sosial xidmətlər üçün vauçerlər (Məs: tibbi yardım mərkəzinin vauçeri, erkən müdaxilə vauçeri, qida üçün vauçer və s.) | 0.1% | 0.7% |
| Uşaqlar üçün erkən inkişaf proqramı | - | 0.1% |

| Siz və ya ailə üzvünüz aşağıda sadalanan dövlət (mərkəzi) sosial xidmətlərinin hansından faydalanırsınız? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Uşaqlar üçün bərpa/habilitasiya proqramı | 0.1% | - |
| Başqa | - | 0.1% |

Sosial istiqamətdə fokus-qruplar çərçivəsində belə fikir yarandı ki, koronavirus pandemiyası şəraitində həssas vəziyyətdə olan ailələrdə yaşayan şagirdlərdə təhsil almaq motivasiyasını artıracaq sosial proqramların hazırlanması mühümdür. Bu dərsliklərlə və ya başqa lazımı ləvazimatlarla təmin etmək də ola bilər. Fokus-qruplarda qeyd olundu ki, peşə və ali təhsilə dəstək baxımından bələdiyyələrin rolu mühümdür. Konkret olaraq, bələdiyyə fərqlənən və motivasiyalı gənclərə dəstək olmalıdır. Məsələn, təhsilin qarşılıqlı maliyyələşdirilməsi, yaşayış yeri ilə təmin etmək və s. kimi dəstək göstərmək mümkündür.

Kəmiyyət araşdırması çərçivəsində sorğuda iştirak edənlərin əksəriyyəti nə bələdiyyə (89%; (Samtsxe-Cavaxeti 94%, Kvemo Kartli-85%) nə də dövlət (mərkəzi) (54%; (Samtsxe-Cavaxeti-61%, Kvemo Kartli – 47%) səhiyyə xidmətindən faydalanmır. Araşdırmada iştirak edən şəxslər tərəfindən sadalanan bələdiyyə xidmətləri arasında pulsuz dərmanlarla təmin etmə (7%), dövlət xidmətləri arasında kənd həkimi (19%) və təcili tibbi yardım (14%) qeyd olunub (Bax. Cədvəl #10, #11). Müsahiblər səhiyyə xidmtələrini də vaxtında alırlar və əsasən, bələdiyyə (təxmini göstərici – 65%), eləcə də dövlət (mərkəzi) səviyyəsində (təxmini göstərici – 72%) göstərilən xidmətdən razıdırlar. Autizm spektri pozulmuş olan uşaqların bərpası və psixi sağlamlıq xidmətləri problem olaraq qeyd olundu. Onların qeydiyyat prosedurları nisbətən çətindir və müsahiblərin razılıq səviyyəsi də aşağıdır.

**Cədvəl #10**

| Siz və ya ailə üzvünüz bələdiyyənin aşağıda qeyd olunan səhiyyə xidmətlərindən faydalanırsınızmı? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Xeyr, heç birindən | 93.9% | 85% |
| Pulsuz dərmanlarla təminat | 3.8% | 9.4% |
| Autizm spektrinin pozulduğu uşaqların bərpası | 0.4% | 0.1% |
| Müxtəlif xroniki xəstəlikləri (Xərçəng, böyrək çatışmazlığı, leykemiya və s.) olan adamlara yardım | - | 1.3% |
| Bahalı müayinələrin (kompüter tomoqrafiyası, ezofaqoqastroduodenoskopiya, koronar angioqrafiya, döş xərçənginin genetik tədqiqatı və s.) maliyyələşdirilməsi | 0.5% | 1.7% |
| Fiziki imkanları məhdud şəxslərə və aztəminatlılara tibbi yardım | 0.9% | 0.4% |
| Başqa | 0.5% | 2% |

**Cədvəl #11**

| Siz və ya ailə üzvünüz aşağıda qeyd olunan dövlət (mərkəzi) səhiyyə xidmətlərindən faydalanırsınızmı? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Xeyr, heç birindən | 60.7% | 46.6% |
| Xəstəliklərin erkən aşkarlanması və skrininqi | 0.1% | 0.9% |
| İmmunizasiya (planlı peyvəndlər) | 7.1% | 11.7% |
| Vərəmin idarə edilməsi | 0.1% | - |
| Hiv infeksiya/QİÇS-in idarə edilməsi | - | 0.1% |
| Ana və uşaq sağlamlığı (yüksək riskli hamilələrin, yeni uşaq dünyaya gətirənlərin doğuşdan sonra müalicəsi, genetik patalogiyaların erkən aşkarlanması, yeni doğulmuş körpələrin eşitmə skrininq müayinəsi, hamilələrin dərmanlarla təmin olunması və s.) | - | 1.2% |
| Narkomaniyadan əziyyət çəkən xəstələrin müalicəsi | - | - |
| Psixi sağlamlıq | 0.7% | 0.7% |
| Diabetin idarə olunması | 0.7% | 1.8% |
| Təcili tibbi yardım | 11.5% | 15.3% |
| Kənd həkimi | 17.5% | 20.4% |
| Xroniki xəstəliklərin müalicəvi dərmanlarla təmin edilməsi | 1.4% | 1.4 |
| Başqa | 0.1% | - |

Baza araşdırmasının keyfiyyət komponenti çərçivəsində aydın oldu ki, ixtisaslı tibb mütəxəssislərindən məsləhət almaq və dərmanların əlçatanlığı problemlidir. Dərmanların siyahısının genişləndirilməsi və sağlamlıq problemləri olan şəxslər üçün ciddi şəkildə vacib olan dərmanların maliyyələşdirilməsi mühümdür. Dərin müsahibə əsasında aydın oldu ki, Bolnisi bələdiyyəsinin ümumi büdcəsindən ən böyük vəsait məhz səhiyyə xidmətlərinə xərclənir. Ancaq əhalinin ehtiyacını qane etmək üçün bu vəsait kifayət etmir - əməliyyatların tam maliyyələşdirilməsi, sonradan dərmanlarla təmin etmək mümkün deyil. Hər iki regionda aparılan fokus-qruplarda səsləndirildi ki, bələdiyyələrin səhiyyə xidmətlərindən narazılıq əməliyyatdan sonrakı bərpanın maliyyələşdirilməməsi ilə bağlıdır, bu da əhali üçün xeyli xərclə əlaqədardır. Yerli hakimiyyət nümayəndələrinin qiymətləndirməsinə görə, mövcud sosial və ya səhiyyə xidmətlərinin yaxşılaşdırılması büdcənin artması ilə birlikdə mümkündür.

Baza araşdırması çərçivəsində məlum oldu ki, dövlət xidmətləri etnik gürcülərə etnik azlıq nümayəndələrindən daha çox əlçatandır. Bərabər əlçatanlıq baxımından dil baryeri ilə yaranmış məlumat çatışmazlığı problem olaraq müəyyən edildi. Bu kimi baryer əksər hallarda yaşlı nəsil nümayəndələrində olur. Çünki gürcü dilini ya bilmirlər ya da pis bilirlər. Bu baxımdan “1+4 təhsil proqramı” müsbət qiymətləndirilir. Həmin proqram vasitəsi ilə daha çox etnik azlıq nümayəndəsi olan gənclər gürcü dilini öyrənirlər.

**Cədvəl #12**

| Hüquq sahibi olan qruplar | Bələdiyyələr | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Samtsxe-Cavaxeti | | Kvemo Kartli | | | | | |
| | Axaltsixe | Ninotsminda | Bolnisi | Qardabani | Dmanisi | Tetritskaro | Marneuli | Tsalka |
| 1. Xüsusi ehtiyacı olan şəxslər | | | | | | | | |
| 1.1. Valideynlərini itirmiş və valideyn himayəsindən kənar qalmış uşaqlar | Qeyri-maddi sistemli yardım və birdəfəlik maddi yardım | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | | Sistemli pul yardımı | Birdəfəlik maddi yardım və birdəfəlik qeyri-maddi yardım | Birdəfəlik maddi yardım və birdəfəlik qeyri-maddi yardım |
| 1.2. Fiziki imkanları məhdud şəxslər | Qeyri-maddi sistemli yardım və birdəfəlik maddi yardım | Birdəfəlik pul yardımı | Qeyri-maddi sistemli yardım və birdəfəlik maddi yardım və sistemli pul yardımı | Birdəfəlik pul yardımı | Qeyri-maddi sistemli yardım və birdəfəlik maddi yardım | Birdəfəlik maddi yardım və birdəfəlik qeyri-maddi yardım | Birdəfəlik maddi yardım və birdəfəlik qeyri-maddi yardım | Birdəfəlik pul yardımı |
| 1.3. Ailə himayəsindən kənar qalmış, özünə qulluq göstərmək qabiliyyəti olmayan yetkinlik yaşına çatmış şəxs | | | | | | | | |
| 1.4 Ailə başçısını itirmiş şəxs | Qeyri-maddi sistemli yardım və birdəfəlik maddi yardım | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | | Birdəfəlik qeyri-maddi yardım | | Birdəfəlik qeyri-maddi yardım | Birdəfəlik pul yardımı |
| 1.5.Sahibsiz uşaq | | | | | | | | |
| 2.Yoxsul ailə | Birdəfəlik qeyri-maddi yardım | Birdəfəlik pul yardımı | | Qeyri-maddi sistemli yardım və birdəfəlik maddi yardım | | Birdəfəlik maddi yardım və birdəfəlik qeyri-maddi yardım | Birdəfəlik maddi yardım və birdəfəlik qeyri-maddi yardım | Birdəfəlik pul yardımı |

| Hüquq sahibi olan qruplar | Bələdiyyələr | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Samtsxe-Cavaxeti | | Kvemo Kartli | | | | | |
| | Axaltsixe | Ninotsminda | Bolnisi | Qardabani | Dmanisi | Tetritskaro | Marneuli | Tsalka |
| 3. Evsiz şəxs | Qeyri-maddi sistemli yardım | Birdəfəlik maddi yardım və birdəfəlik qeyri-maddi sistemli yardım | Qeyri-maddi sistemli yardım | Qeyri-maddi sistemli yardım | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | | Birdəfəlik pul yardımı |
| 4. Uşaqlar | Qeyri-maddi sistemli yardım və birdəfəlik maddi yardım | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | Qeyri-maddi sistemli yardım və birdəfəlik maddi yardım | | Qeyri-maddi sistemli yardım və birdəfəlik maddi yardım | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı |
| 5. Qadınlar | | | | | | | | |
| 6. Milli azlıqlar | | | | | | | | |
| 6.1. Dini azlıqlar | | | | | | | | |
| 6.2. Etnik azlıqlar | | | | | | | | |
| 7. Ekomiqrantlar | | | | | | | | |
| 8. Yaşlılar | Birdəfəlik pul yardımı | | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı |
| 9. Qaçqınlar | Qeyri-maddi sistemli yardım | | | Qeyri-maddi sistemli yardım və birdəfəlik maddi yardım | | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | |
| 10. Çoxuşaqlı ailələr | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | Qeyri-maddi sistemli yardım və birdəfəlik maddi yardım | | Birdəfəlik pul yardımı | | Birdəfəlik pul yardımı |

| Hüquq sahibi olan qruplar | Bələdiyyələr | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Samtsxe-Cavaxeti | | Kvemo Kartli | | | | | |
| | Axaltsixe | Ninotsminda | Bolnisi | Qardabani | Dmanisi | Tetritskaro | Marneuli | Tsalka |
| 11.Tək valideyn | Qeyri-maddi sistemli yardım | Birdəfəlik pul yardımı | | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | |
| 12.Veteranlar | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı | | Qeyri-maddi sistemli yardım və birdəfəlik maddi yardım | Birdəfəlik pul yardımı | Birdəfəlik pul yardımı |
| 13. Sağlamlıq xidmətinə ehtiyacı olan qruplar | Birdəfəlik maddi yardım və birdəfəlik qeyri-maddi sistemli yardım | | Birdəfəlik maddi yardım və birdəfəlik qeyri-maddi sistemli yardım | Birdəfəlik maddi yardım və birdəfəlik qeyri-maddi sistemli yardım | Birdəfəlik maddi yardım və birdəfəlik qeyri-maddi sistemli yardım | Birdəfəlik maddi yardım və birdəfəlik qeyri-maddi sistemli yardım | Birdəfəlik maddi yardım və birdəfəlik qeyri-maddi sistemli yardım | |
| 14. Aztəminatlıların ümumi kateqoriya benefisiarları | Birdəfəlik pul yardımı | | | | | Qeyri-maddi sistemli yardım | | |
| 15. Ailədə zorakılıq qurbanı statusu olanlar | | Birdəfəlik pul yardımı | Birdəfəlik maddi yardım və birdəfəlik qeyri-maddi sistemli yardım | | | Birdəfəlik pul yardımı | | |

## 1.5 İnsan hüquqlarına əsaslanmış yanaşmanın beş əsas iş prinsipini nəzərə almaqla qüvvədə olan qanunvericiliyin və mövcud təcrübənin təhlili

İnsan hüquqlarına əsaslanan yanaşma beş əsas iş prinsipini rəhbər tutur. Bu prinsiplər bir növ təcrübədə mövcud qanunvericiliyin icrasının necə yerinə yetirilməsi üçün qiymətləndirmə vasitəsidir. Mövcud təcrübənin qiymətləndirilməsi zamanı insan hüquqlarına əsaslanan yanaşmaya görə, başlanğıc nöqtəsi insan özüdür – qanunun və onun icrası ilə bağlı icraatın bilavasitə təsir etdiyi isə hüquq sahibi olan qrupdur.

➔ **İştirak**

Gürcüstanın üzvi qanunu – Yerli Özünüidarə Məcəlləsi – yerli özünüidarənin həyata keçirilməsində vətəndaş iştirakının zəmanət və formalarını müəyyən edir.

Bələdiyyə orqanları və bu orqanların vəzifəli şəxsləri yerli özünüidarənin həyata keçirilməsində vətəndaşların iştirakını təmin etmək üçün təşkilatçılıq və vətəndaşların qəbulu, onlarla görüş, onların bələdiyyə orqanlarının fəaliyyətinə qoşulması (həmçinin, kollegial dövlət müəssisəsi iclaslarına) üçün maddi-texniki şərait yaratmaq öhdəliyi daşıyırlar ki, vətəndaşların iştirakı və qərar qəbul etmə prosesi şəffaf olsun.

Bələdiyyə yerli özünüidarənin həyata keçirilməsində vətəndaşların iştirakını təmin etmək məqsədi ilə bələdiyyənin büdcəsində müvafiq proqramları nəzərə almaqda səlahiyyətlidir.

Qanunvericilik yerli səviyyədə qərar qəbul etmə prosesində vətəndaşların iştirakının 5 formasını tanıyır:

- ✓ **Ümumi qəsəbə toplantısı;**
- ✓ **Petisiya;**
- ✓ **Vətəndaş Məsələhət Şurası;**
- ✓ **Bələdiyyə Məclisi və Bələdiyyə Məclisi Komissiyasının iclaslarında iştirak etmək;**
- ✓ **Bələdiyyə meri və Bələdiyyə Məclisi üzvü tərəfindən həyata keçirilmiş iş haqqında hesabatların dinlənilməsi[31].**

Hər beş forma uyğundur. Bələdiyyəyə və eləcə də konkret maraqlanan qruplara sosial yardım proqramlarını öz benefisiarlarına uyğunlaşdırmaq imkanı yaradır. Bundan başqa, əlavə iştirak formaları və yaxşı iştirak təcrübəsindən faydalanmaq mümkündür. Məsələn, merin sosial məsələlər üzrə işləyən Məsləhət Şurasının yaradılması. Həmin şura əsasən sosial proqram benefisiarlarının nümayəndələrindən, onların hüquqlarını müdafiə edənlərdən ibarət olur. Qeyd olunan mexanizm müxtəlif bələdiyyələrdə tətbiq olunur. Ancaq onlar arasında araşdırmanın hədəf bələdiyyələri yoxdur. Merin sosial məsələlər üzrə işləyən şurasının tərkibinə sosial yardım və ya bələdiyyə proqramlarından yardım alan bütün kateqoriyaların benefisiar nümayəndələri daxildir.

Qeyd olunan mexanizmdən mövcud sosial proqramların analizi və yeni proqramların dizaynını yaratmaq üçün istifadə olunur.

Hədəf bələdiyyələrdə sosial istiqamətdə Məsləhət Şurası formatının iki vasitəsi işləyir: Bələdiyyə meriyasının "Fiziki İmkanları Məhdud Şəxslərin Məsələləri üzrə işləyən Şura" və Gender Bərabərliyi Şurası. Eləcə də əlavə xidmət göstərilməsinə istiqamətlənmiş "Qadın Otağı".

31 Gürcüstan Üzvi Qanunu, Yerli Özünüidarə Məcəlləsi – maddə 85

**Bələdiyyənin Gender Bərabərliyi Şurası**

Gender Bərabərliyi Şurası Gürcüstanın gender bərabərliyi qanunu əsasında yaradılıb. Şuranın məqsədi ictimai həyatın bütün sahələrində diskriminasiyanın yolverilməzliyini təmin etmək, qadınlar üçün müvafiq şərait yaratmaq və kişinin bərabər hüququnun, azadlıqlarının, imkanlarının həyata keçirilməsi, diskriminasiyanın aradan qaldırılmasına dəstək olmaqdır. Qeyd olunan qanun əsasında bələdiyyənin sonrakı salahiyyətləri müəyyən edilib:

- Bələdiyyə Şurası bələdiyyədə gender məsələləri üzrə sistemli işin aparılmasını və Gürcüstan Parlamenti tərəfindən yaradılmış Gender Bərabərliyi üzrə Daimi Parlament Şurası ilə əlaqələndirilmiş işi təmin etmək üçün Gender Bərabərliyi Şurası yaratsın;
- Bələdiyyə meri müvafiq meriyada bələdiyyədə gender bərabərliyi məsələlərinin araşdırılması, həyata keçirilmiş fəaliyyətin planlaşdırılması və tədbirlərin koordinasiyası məqsədi ilə gender bərabərliyi məsələlərinə cavabdeh olan ictimai xidməti müəyyən edir;
- Bələdiyyənin büdcəsi, sosial-iqtisadi inkişaf prioritetləri, bələdiyyə proqramları və planları diskriminasiyanın bütün formalarının istisna olduğu şəkildə hazırlanmalıdır[32].

Bələdiyyə tərəfindən praktiki olaraq yayımlanmış, tələb olunan ictimai məlumatın, Xalq Müdafiəçisi tərəfindən aparılmış araşdırmanın nəticələrinin[33] və www.lsgindex.org portalının analizi əsasında məlum olub ki:

- Bütün hədəf bələdiyyələrdə Gender Bərabərliyi Şurası yaradılıb. Şura dövri olaraq görüşlər keçirir, eləcə də müvafiq strategiya və fəaliyyət planları da təsdiqlənir;
- Bələdiyyələrin büdcələrində gender bərabərliyi fəaliyyət planlarının təcrübədə həyata keçirilməsi üçün pul resursu nəzərdə tutulmayıb;
- Gender bərabərliyi haqqında şuranın fəaliyyətinə baxmayaraq, hədəf bələdiyyələrin büdcəsində gender bərabərliyi məsələləri ilə bağlı büdcə proqramı və ya alt-proqram yoxdur;
- Gender Bərabərliyi Şuraları nə siyasətin planlaşdırılmasında nə də bələdiyyə xidmətinin göstərilməsi prosesində iştirak etmirlər;
- Müxtəlif donor təşkilatların dəstəyinə baxmayaraq, hədəf bələdiyyələrdə 2022-ci ilin büdcələri “gender baxımından uyğun” deyil.

BMT-nin İnkişaf Proqramı (UNDP), Almaniyanın beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) və digər donorlar hədəf bələdiyyələrin Gender Bərabərliyi Şuralaraına məlumat-məsləhət, ekspert köməyi göstərirlər. Ancaq bələdiyyələrin cari ilin büdcə proqramlarında gender bərabərliyi məqsədlərinə nail olmağa dəstək olacaq müvafiq tədbirlər nəzərə alınmayıb.

32 Gender Bərabərliyi haqqında Gürcüstan qanunu, maddə 13

33 https://ombudsman.ge/res/docs/2020061711084253805.pdf

**Fiziki imkanları məhdud olan şəxslərin hüquqları və Fiziki İmkanları Məhdud Şəxslər Şurası**

Gürcüstan Parlamenti 2020-ci ildə "Fiziki imkanları məhdud şəxslərin hüquqları haqqında" qanun qəbul edib. Qanunun 35-ci maddəsi Gürcüstan bələdiyyələrinin fiziki imkanları məhdud şəxslərin hüquqlarının müdafiəsi sahəsində konkret öhdəliklərini müəyyən edir. Konkret olaraq, bələdiyyənin təşkilatları/müəssisələri öhdəlik daşıyırlar:

- Öz səlahiyyətləri çərçivəsində müstəqil yaşama dəstək olan və fiziki imkanları məhdud şəxlərin iştirakı ilə, onların fərdi ehtiyaclarını nəzərə alaraq sosial inklüziya proqramları hazırlasınlar;
- Fiziki imkanları məhdud şəxslərin yerli səviyyədə ictimai, siyasi, sosial, iqtisadi, mədəni və idman həyatında tam iştirakını təmin etsinlər;
- Qanunla verilmiş səlahiyyətləri həyata keçirmək üçün müvafiq tədbirlərin proqramların/layihələrin hazırlanması prosesində, qərarların hazırlanması, qəbul edilməsinin bütün mərhələlərində fiziki imkanları məhdud şəxslərin iştirakını təmin etsinlər;
- Fiziki imkanları məhdud şəxslərin yerli təşkilatlarının fəaliyyətinə dəstək olsunlar. Həmin təşkilatlarda fiziki imkanları məhdud şəxslər və ya onların qanuni nümayəndələri təşkilat üzvü, eləcə də idarəçi/qərar qəbul edən orqan üzvlərinin çoxluğunu təşkil edirlər və fiziki imkanları məhdud şəxslərin müstəqil həyatının yaxşılaşdırılması məqsədi ilə işləyirlər;
- Müvafiq bələdiyyə ərazisində fəaliyyət göstərən uyğun funksiyaları olan digər müəssisələr/təşkilatlarla birlikdə fiziki imkanları məhdud şəxslərin müstəqil həyatının məlumat-məsləhət və dəstək göstərmə xidmətlərinin tətbiqi, inkişafına kömək göstərsinlər.

Bələdiyyənin səlahiyyətlərini səviyyəcə daha yüksəkdə duran "Yerli Özünüidarə Məcəlləsi" üzvi qanunu tənzimləyir. Qanunda fiziki imkanları məhdud şəxslərlə bağlı bələdiyyənin yalnız mühitin adaptasiyası haqqında öhdəlikləri müəyyən edilib. Qanunla müəyyən edilmiş digər öhdəliklər faktiki olaraq verilmiş səlahiyyətlər hesab olunur, ancaq onun mərkəzi büdcədən müvafiq maddi resursu yoxdur; Qeyd olunan vəziyyətlər bələdiyyəyə hüquqi və maddi baxımdan qanunun tələblərini icra etmək imkanı vermir.

Hədəf bələdiyyələrdə fiziki imkanları məhdud olan şəxslərin məsələləri üzərində işləyən Koordinasiya-Məsləhət Şuraları yaradılıb. Şuralar əsasən bələdiyyə meriyasının dövlət məmurlarından ibarətdir və şuraya merin müavinləri rəhbərlik edirlər. Şuralar dövri olaraq iclaslar keçirir, müxtəlif təşəbbüsləri müzakirə edirlər, amma hədəf qrup – fiziki imkanları məhdud şəxslər, bələdiyyənin büdcə proqramlarının və siyasi sənədin hazırlanması prosesinə az qoşulublar.

Baza araşdırmasının sorğusunda iştirak edən şəxslərin böyük hissəsi (39%) onların məntəqəsinin planlarından narazıdır (Kvemo Kartli – 43%, Samtsxe-Cavaxeti – 35%). Görünür məntəqənin planlaşdırılması zamanı fiziki imkanları məhdud şəxslər nəzərə alınmayıb. Çünki müsahiblərin 56%-nin qiymətləndirməsinə görə, fiziki imkanları məhdud şəxslər üçün adaptasiya edilmiş mühit yoxdur və ya olub olmadığını bilmirlər (Samtsxe-Cavaxeti-62%, Kvemo Kartli – 50%); Pandusların olmaması, adaptasiya olunmamış binalar və arabadan istifadə edən şəxslər üçün nəqliyyat problemlidir.

Qeyd olunan məlumatı 8 bələdiyyənin sakinləri fokus-qruplar çərçivəsində təstiq ediblər. Onların fikrincə, ictimai müəssisələr/məkanlar fiziki imkanları məhdud şəxslər üçün adaptasiya olunmayıb; Müsahiblərin bir hissəsi qeyd etdi ki, son dövrdə tikilmiş dövlət müəssisələri fiziki imkanları məhdud şəxslər üçün adaptasiya olunub. Ancaq müsahiblər üçün adaptasiyanın mövcud standarta nə dərəcədə uyğun olub olmaması məlum deyil. Çünki adaptasiya edilmiş mühitdən yararlanan fiziki imkanları məhdud şəxs görməyiblər.

## "Qadın Otağı"

Qadınların fəallaşdırılması və gücləndirilməsi məqsədi daşıyan bələdiyyə xidməti "Qadın Otağı" adlanır. Layihə bir neçə xidmətdən ibarətdir: kitabxana, kompüter və internet xidməti, siniflər, uşaqlar üçün guşə, xüsusi təlim-proqramlar və maarifləndirici fəaliyyət. Bu qadınlara məlumat və xidmətləri çatdırmaq, yerli səviyyədə qərar qəbul edən zaman qadınları iştirak etməyə həvəsləndirmək üçün resursdur. "Qadın Otağının" bazasında eləcə də qadınlar və qızların peşə, iqtisadi baxımdan gücləndirilməsi üçün təşəbbüs də var. "Qadın Otağı" bələdiyyənin inzibati binasında yerləşir və bələdiyyənin məntəqələrində yaşayan qadınlara xidmət göstərir. Layihə USAİD-in maliyyə dəstəyi ilə, Münaqişələr və Danışıqlar üzrə Beynəlxalq Araşdırmalar Mərkəzi və "Mercy Corps"-la tərəfdaşlıqla həyata keçirilir.

Qadın Otaqları araşdırmanın bütün hədəf bələdiyyələrində təsis edilib: Dmanisi, Tsalka, Tetritskaro, Ninotsminda, Bolnisi, Marneuli, Qardabani və Axaltsixe bələdiyyələri. Qeyd olunan xidmət 2015-2016-cı illərdə təsis edilib və bu günə qədər uğurla fəaliyyətdədir.

Bütün bələdiyyələrdə 2022-ci ilə olan vəziyyətə görə, bələdiyyə və donor təşkilatları arasında münasibətləri tənzimləyən müqavilənin müddəti başa çatıb.

Qadın Otağı – bu qadınların gücləndirilməsinin mühüm sahəsidir və qərar qəbul etmə prosesində potensial iştirak vasitəsidir.

Mövcud reallıq belədir:

- "Qadın Otağı" üçün bələdiyyələrdə məkan ayrılıb və müvafiq olaraq təchiz edilib. Amma istisnalar da var (Qardabani), Qadın Otağı bağlanıb və meriyada xidmətin effektsizliyi səbəbindən deyil, texniki problemlərə görə, müvafiq məkan yaradılmayıb;
- Bələdiyyədə "Qadın Otağı" menecerinin ixtisaslılığı (donorlar tərəfindən onların hazırlanması təmin edilib);
- "Qadın Otağı" menecerlərinin motivasiyası yüksəkdir;
- "Qadın Otağı" menecerləri bələdiyyə meriyasının müxtəlif struktur bölmələri ilə koordinasiyalı işləyirlər;
- "Qadın Otağı" menecerinin dəstəyi və iştirakı ilə çox sayda layihə hazırlanıb və qadınların iqtisadi gücləndiirlməsi məqsədi ilə həyata keçirilib.
- "Qadın otağı" bələdiyyədə gender bərabərliyi haqqında ictimai məlumatlanırma və həssas qruplara dəstək göstərir;

- Gürcüstan miqyasında olan “Qadın Otaqları” Birliyi yaradılıb və bələdiyyələrdə mövcud olan ümumi problemlərin müəyyən edilməsinə, koordinasiyalı şəkildə həlli yolları üzərində işləməyə, birlikdə layihələrin həyata keçirilməsinə dəstək olur.

Təcili surətdə reaksiya göstərilməsi lazım olan mühüm problemlər mövcuddur:

- Bələdiyyələrdə yerli özünüidarənin gender bərabərliyinə dəstək prosesindəki rolu hələ yaxşı dərk etməyiblər; Qeyd edək ki, İsveçrənin İnkişaf və Əməkdaşlıq Agentliyinin (SDC) maliyyə dəstəyi ilə, “Mercy Corps” Gürcüstan tərəfindən Kiçik Qafqaz Alyansları Proqramı (ALCP) çərçivəsində yerli özünüidarə tərəfindən gender bərabərliyi siyasətinin həyata keçirilməsinin dövlət prinsipləri hazırlanıb;
- Gender bərbərliyi məsələləri ilə əlaqədar meriya və Bələdiyyə Məclisinin vəzifəli şəxslərinin məlumatlandırılması hələ də aşağı səviyyədədir. Bu gender bərabərliyinə dəstək olacaq qərarların qəbul edilməsinə mane olur;
- Meriyanın dövlət məmurları, qeyri-kommersiya təşkilat nümayəndələri və Bələdiyyə Məclisi Aparatının əməkdaşları gender bərabərliyi məsələlərində hazırlanmağa ehtiyac duyurlar;
- “Qadın Otağının” meriya strukturunda statusu yoxdur və meriyanın hüquqi aktı ilə tənzimlənir. Ona görə hələ də meriya struktur hissəsi və bələdiyyə xidməti kimi qəbul edilməyib;
- “Qadın Otağı” menecerinin işlə təmin edilmə forması bələdiyyələrə əsasən fərqlidir – bir hissəsi peşəkar dövlət məmurudur (Acara Muxtar Respublikası və Kaxeti bələdiyyələrində, bir hissəsi isə əmək müqaviləsi ilə işlə təmin edilmiş şəxs (Kvemo Kartli regionunun bələdiyyələri);
- “Qadın Otağı” ilə əlaqədar qərar qəbul etmək üçün bələdiyyənin rəhbər şəxsləri mərkəzi hakimiyyətdən qeyd/tövsiyə gözləyirlər. Baxmayaraq ki, özünüidarə müstəqildir və öz səlahiyyəti ilə “Qadın Otağı” statusunu müəyyən edə bilər;
- Meriyanın vəzifəli şəxsləri və dövlət məmurları tərəfindən “Qadın Otağına” münaisbət birmənalı deyil: “Qadın Otağı”-nın təklif etdiyi xidmətlər məqbuldur və dəstəklənir, ancaq “Qadın Otağı” adının özünə qarşı skeptik münasibət var;<br>“Qadın Otağı” menecerinin meriyada hesabatlılığı nəzərə alınmayıb və menecerin işi müvafiq nəzarətçi tərəfindən qiymətləndirilmir;
- “Qadın Otağı”-nın effektiv xidmət göstərməsi üçün kifayət qədər insan resursu yoxdur – yalnız bir nəfər işlə təmin olunub;
- “Qadın Otağının” fəaliyyət planı ilə nəzərdə tutulmuş fəaliyyətin effektiv şəkildə yerinə yetirilməsi üçün büdcədə gender bərabərliyinə vəsaitin olmaması problemdir.

**Vətəndaş iştirakı üçün  əlavə vasitələr**

Bələdiyyə yalnız məcəllə ilə nəzərdə tutulmuş iştirak formaları ilə məhdudlaşmayıb. Mer eləcə də Bələdiyyə Məclisi qanunvericiliyə zidd olmayan iştirak formaları qəbul etməkdə səlahiyyətlidirlər.

2017-ci ildən Məsləhət və Təlim Mərkəzinin (CTC), İnformasiya Azadlığı İnkişaf İnstitutu (İDFİ) və İdarə Sistemləri

İnkişaf Mərkəzi (MSDC) tərəfindən, Açıq Cəmiyyət Fondunun (Gürcüstan) maddi dəstəyi ilə yerli özünüidarə indeksi (www.lsgndex.org) hazırlanıb. İndeks bütün özünüidarə orqanının şəffaflığını, vətəndaşların iştirak mexanizmlərini və təcrübələri qiymətləndirir. Qeyd olunan indeksin məlumatları göstərir ki, hədəf regionlarda (Samtsxe-Cavaxeti və Kvemo Kartli) iştirak və şəffaflıq göstəriciləri ümumi-milli göstəricilərdən mühüm dərəcədə geri qalır. Bu göstərici onsuz da kifayət qədər aşağıdır və vətəndaşların iştirakı və şəffaflıq komponentində 24% təşkil edir (Bax. Şəkil #1, #2, #3).

**Şəkil #1 – Samtsxe-Cavaxeti**




**Şəkil #2 – Kvemo Kartlio**



**Şəkil #3 – 8 Hədəf bələdiyyələr**




| მუნიციპალიტეტები | 3. მოქალაქეთა მონაწილეობა და ანგარიშვალდებულება | | |
|---|---|---|---|
| | საბოლოო შეფასება | მერია | საკრებულო |
| ახალციხის მუნიციპალიტეტი | 17%<br>30%<br>45% | 18%<br>19%<br>36% | 15%<br>58%<br>62% |
| თეთრიწყაროს მუნიციპალიტეტი | 14%<br>41%<br>44% | 6%<br>43%<br>48% | 35%<br>35%<br>35% |
| ბოლნისის მუნიციპალიტეტი | 3%<br>15%<br>38% | 0%<br>2%<br>27% | 12%<br>43%<br>65% |
| მარნეულის მუნიციპალიტეტი | 25%<br>28%<br>36% | 12%<br>19%<br>40% | 55%<br>52%<br>25% |
| გარდაბნის მუნიციპალიტეტი | 12%<br>19%<br>31% | 2%<br>14%<br>29% | 34%<br>32%<br>35% |
| დმანისის მუნიციპალიტეტი | 18%<br>34%<br>27% | 15%<br>28%<br>27% | 25%<br>50%<br>25% |
| წალკის მუნიციპალიტეტი | 18%<br>19%<br>21% | 11%<br>13%<br>10% | 35%<br>35%<br>48% |
| ნინოწმინდის მუნიციპალიტეტი | 7%<br>18%<br>9% | 3%<br>7%<br>8% | 16%<br>46%<br>12% |

Samtsxe-Cavaxeti və Kvemo Kartlidə mövcud olan sosial xidmətlər baza araşdırması və kontekstin analizi çərçivəsində ictimai təşkilatlarla aparılmış fokus-qruplardan görünür ki, iştirakın əsas maneələri bunlardır:

- ✓ Əhaliyə başa düşdüyü dildə məlumat verilmir. Vətəndaşların böyük qismi ünsiyyət səviyyəsində belə dövlət dilini bilmir;
- “Bağçalarda gürcü dilinin tədrisi problemdir, ya ümumiyyətlə öyrədilmir, ya müvafiq olaraq tədis olunmur, çünki kadr problemi var” (Fokus-qrupun qeydi, ictimai təşkilat nümayəndəsi).
- ✓ Məlumat və qərar qəbul etmə prosesi şəffaf deyil;
- “Bələdiyyələrin konkret bir qrupun ehtiyacları və bu ehtiyacların necə təmin edilməsi, inteqrasiya, cəmiyyətə reinteqrasiya və bizim hamımızın istifadə etdiyimiz üstünlüklər barədə aradan qaldırılmalı olan maneələr haqqında məlumatı yoxdur. Bu məlumatın olmaması dağınıq, yanlış düşüncəli sosial fəaliyyətlərə gətirib çıxarır” (fokus qrupun  qeydləri, ictimai təşkilat nümayəndəsi);
- ✓ İştirak prosesində xüsusi diskriminasiyaya uğramış qrupu, mövcud dini və etnik konteksti nəzərə almaqla qadınlar təşkil edirdilər;
- “Heç vaxt, heç kim qadınlarla görüşmür. Yenilikləri, ümumiyyətlə məlumatı yalnız kişilərdən alırlar. Bir qayda olaraq, qadınların seçkidə kimə səs verəcəyi barədə kişilər qərar qəbul edirlər (Fokus-qrupun qeydi, ictimai təşkilat namüyəndəsi”

- ✓ Ümumi təhsilin aşağı səviyyədə olması;
- ✓ Xidmət göstərənlə xidmətdən faydalanan əhali/icma arasında əlaqənin olmaması;
- ✓ Qəsəbənin ümumi toplantılarının keçirilməsi prosedurlarının mürəkkəbləşdirilməsi və həddindən artıq rəsmiləşdirilməsi. Buna görə, praktiki olaraq hakimiyyət də qərar qəbul etməkdə vətəndaş iştirakı vasitələrindən istifadə etmir, nə də vətəndaşlara bunun üçün real üstünlük vermir. Ancaq bütün hədəf bələdiyyələr ümumi toplantı müddəasını təsdiq edib;
- ✓ Vətəndaşların motivasiyasını itirməsinə səbəb olacaq ağır sosial və iqtisadi vəziyyət;

  "Sosial problemə görə, çox ailə dağılıb. Qadınların təhsili yoxdur və müvafiq olaraq, uşaqları ata evində qoymalı olurlar. Ona görə ki, zorakılıq qurbanı olan qadını bioloji valideynləri geri aparır";

  "Ötən il biz Ninotsminda-Axalkalaki bələdiyyələrinin 30-a yaxın kəndinin ehtiyaclarını araşdırdıq. Buradan əksəriyyəti sosial məsələlərə aiddir. Konkret olaraq isə yol, təbii qaz, içməli və suvarma suyu, yerli özünüidarə ilə ünsiyyət kimi məsələlərlə bağlı idi". (Fokus-qrupun qeydi, ictimai təşkilat nümayəndəsi).

- ✓ Vətəndaş iştirakının forma və mexanizmləri barədə məlumatın olmaması;

  -"Demək istəyirəm ki, xüsusilə fiziki imkanları məhdud şəxslər yerli özünüidarə ilə ünsiyyət qurmaqda daha çox çətinlik çəkirlər. Onların səsləndirdiyi müraciət və ya hər hansı tələb qeyri-ciddi qəbul olunur" (Fokus-qrupun qeydi, ictimai təşkilat nümayəndəsi).

Yerli səviyyədə qərar qəbul olunan zaman baza araşdırmasının nəticələri də əhalinin iştirakının aşağı səviyyədə olduğunu göstərir, həmçinin, yuxarıda qeyd olunan səbəbləri də təsdiq edir. Sorğu iştirakçılarının 40%-nin fikrincə vətəndaşlar yerli özünüidarənin qərar qəbul etməsində iştirak etmirlər (Kvemo Kartli – 53%, Samtsxe-Cavaxeti – 27%) (Bax. Cədvəl #13).

**Cədvəl #13**

| Vətəndaşlar yerli özünüidarə səviyyəsində qərar qəbul etmə prosesində iştirak edirlərmi? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Ümumiyyətlə iştirak etmirlər | 7.6% | 26.6% |
| Daha çox iştirak etmirlər | 19% | 26.8% |
| Bərabər, həm iştirak edir həm də etmirlər | 19.2% | 17.7% |
| Daha çox iştirak edirlər | 24.4% | 11.2% |
| Tam iştirak edirlər | 9.6% | 1.9% |
| Cavabdan imtina edirəm/Cavab verməkdə çətinlik çəkirəm | 20% | 15.8% |

Sorğudan aydın oldu ki, sorğu iştirakçılarının 27%-nin qiymətləndirməsinə görə, yerli səviyyədə qərarların qəbul edilməsi prosesi və əhalinin ehtiyacları arasında bağ yoxdur (Samtsxe-Cavaxeti- 16%, Kvemo Kartli

– 37%). Hər üçüncü müsahibin qiymətləndirməsinə görə, yerli hakimiyyət qərar qəbul edən zaman etnik azlıq nümayəndələrinin iştirakının artırılmasına istiqamətlənmiş tədbirlər əsasən keçirilmir. Əhalinin qiymətləndirməsinə görə, əhali ilə daha tez-tez görüşlərin təşkil edilməsi, bələdiyyələrin problemlərini həll etmək üçün daha çox vəsait ayrılması, cari proseslər barədə əhalinin məlumatlandırılması mühümdür.

Sorğu nəticəsində aydın oldu ki, yerli özünüidarə orqanları ilə əhalinin ünsiyyəti aşağıdır: Sorğuda iştirak edənlərin əksəriyyəti (82%) son 2 il ərzində konkret problemin həlli məqsədi ilə onlara müraciət etməyib (Samtsxe-Cavaxeti-84%, Kvemo Kartli – 80%).

Əks təcrübəyə malik olanlar aşağıdakı məsələlər haqqında məlumat verdilər: Müxtəlif sosial/həssas qruplarla (fiziki imkanları məhdud şəxslər, uşaqlar, yaşlılar, evsizlər, məcburi köçkün şəxslər) əlaqədar vəziyyətin yaxşılaşdırılması, infrastruktur problemləri (təbii qazla təchizat, su təchizatı, elektrik enerjisi və s.), sosial məsələlər (Sosial yardım, işsizlik və s.), səhiyyə xidmətləri ilə əlaqədar məsələlər (Bax. Cədvəl #14). Ancaq, 40%-in fikrinə görə, özünüidarə heç bir problemi həll etməyib (Samtsxe-Cavaxeti – 36%, Kvemo Kartli – 42%).

**Cədvəl #14**

| Son 2 il ərzində hansı məsələlərlə bağlı yerli özünüidarəyə müraciət edibsiniz? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=98) | Kvemo Kartli (N=117) |
|---|---|---|
| Müxtəlif sosial/həssas qruplarla (fiziki imkanları məhdud şəxslər, uşaqlar, yaşlılar, evsizlər, məcburi köçkünlər) əlaqədar mühitin yaxşılaşdırılması | 15.2% | 12.4% |
| İnfrastruktur problemləri (Qaz, su təchizatı, elektrik enerjisi və s.) | 27.6% | 16.8% |
| Ərazinin abadlaşdırılması (tullantıların daşınması, yaşıllaşdırma və s) | 5.8% | 9.4% |
| Sosial məsələlər (Sosial yardım, işsizlik və s.) | 33.1% | 23.5% |
| Səhiyyə xidmətləri ilə əlaqədar məsələlər | 15.3% | 22.8% |
| Ev/torpaq qeydiyyatı | 1% | 6.3% |
| Başqa | 1.3% | 8.9% |
| Cavabdan imtina edirəm/Cavab verməkdə çətinlik çəkirəm | 0.8% | - |

Son 1 il ərzində müsahiblərin əksəriyyəti (57%), xüsusilə Samtsxe-Cavaxetidə (65%) (Kvemo Kartlidə 50%) heç bir ictimai/dövlət fəaliyyətində iştirak etməyib. Fokus-qruplarda aydın oldu ki, əhalinin yerli hakimiyyətin həyata keçirilməsində iştirak etməməsinin əsas səbəbi məlumatsızlıqdır – öz hüquqları barədə məlumata sahib deyillər. Konkret olaraq necə və hansı yol ilə iştirak edəcəklərini bilmirlər. Müzakirənin bəzi iştirakçılarının qiymətləndirməsinə görə, əhalinin iştirakı yalnız rəsmi xarakter daşıyır və real təsir göstərmək çətindir. Əhaliyə nihilizm mane olur və məhz bu səbəbə görə qoşulmurlar. İştirak üçün həssas vəziyyətdə olan müsahiblərin sosial-iqtisadi vəziyyəti, mərkəzə qədər getmək üçün uzaq məsafə, dil baryeri, inteqrasiyanın aşağı səviyyədə olması da maneçilik yaradır. İctimai/dövlət fəallıqlarında iştirakın qəbul edilməməsi kimi səbəblər araşdırmanın kəmiyyət komponentlərində də aydın oldu: vaxt çatışmazlığı (21%), müsahibin fəallığının heç nəyi dəyişə bilməyəcəyi hissi (Samtsxe-Cavaxeti – 24%, Kvemo Kartli – 24%) (Bax. Cədvəl #15). Qeyd etmək lazımdır ki, yerli hakimiyyət eləcə də ictimai təşkilat üzvlərinin qiymətləndirməsinə görə, məhz məntəqənin ümumi yığıncaqları əhali ilə ünsiyyət üçün əsas platformaya çevrilməli olan vasitəni təmsil edir.

**Cədvəl #15**

| Necə düşünürsünüz, son 1 il ərzində niyə heç bir ictimai fəallıqda iştirak etməyibsiniz? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=384) | Kvemo Kartli (N=302) |
|---|---|---|
| Vaxtım olmadığına görə | 16.3% | 26.5% |
| Elə hissim var idi ki, mənim fəallığım heç nəyi dəyişməyəcək | 24% | 23.8% |
| Öz hüquqlarım barədə kifayət qədər məlumatım yoxdur | 17.5% | 8.8% |
| Hesab edirəm ki, bu məsələlərin qayğısına yerli hakimiyyət qalmalıdır | 20.7% | 25.2% |
| Hesab edirəm ki, bu məsələlərin qayğısına qeyri-hökumət təşkilatları qalmalıdır | 4% | 1% |
| Başqa | 1.8% | 0.9% |
| Cavab verməkdən imtina edirəm Cavab verməkdə çətinlik çəkirəm | 15.7% | 13.9% |

Həmçinin, Xalq Müdafiəçisinin nümayəndəsi ilə aparılan müsahibə də maraqlı oldu. O, ictimai təşkilat nümayəndələrinin yanaşmalarını bölüşür. Qeyd edir ki, iştiraka mane olan dil baryeridir və əlavə olaraq müxtəlif etnik qruplar arasında inteqrasiyanın aşağı səviyyədə olmasını bildirir. Eləcə də bələdiyyələr tərəfindən əhali ilə ünsiyyət kanallarının az olması və ya heç olmaması problem olaraq qeyd olundu. Sosial proqramlar iştirakla deyil, nüfuzlu və fəal maraq qruplarının lobbiçilik fəaliyyəti ilə qurulur. Bələdiyyələr bu baxımdan vəziyyəti düzəlmtəyə çalışırlar. Amma bu kifayət deyil və institutsional dəyişikliklər lazımdır. Bu isə meriyanın müvafiq xidmətinin (sosial xidmət) funksiya dəyişikliklərini və onlar üçün sosial proqramın qiymətləndirilməsi istiqamətində funksiyaların artırılmasını əhatə edir. Həmçinin, sosial məsələlər üzrə işləyən şuraların effektivliyinin artırılması lazımdır. Bu əhəmiyyətli dərəcədə proqram benefisiarlarının və onların hüquq müdafiəçilərinin bu tip şuralarda təmsilçiliyinin artması ilə bağlıdır. Eləcə də yerli özünüidarə orqanlarında, Məsləhət Şuralarında etnik azlıq nümayəndələrinin sayının artması da mühümdür. Qeyd olunan institutisonal dəyişikliklər bələdiyyələrdə gender və fiziki imkanları məhdud şəxslər şurasının effektivliyinə təsir göstərəcək.

Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Gürcüstan Dövlət naziri Aparatının Vətəndaş Bərabərliyi Departamentinin nümayəndəsi dil baryerini əsas maneçilik törədən faktor olaraq qeyd edir. Onunla dərin müsahibə aparıldı. Onun fikrinə görə, “Kvemo Kartli və Kaxeti regionlarında dövlət müvəkkili administrasiyasında yaradılmış Məsləhət Şuraları 2017-ci ildən fəaliyyət göstərir və şuraya yerli özünüidarə, eləcə də qeyri-hökumət təşkilatları daxildir. Çox yaxşı ünsiyyət platformasıdır”. Ancaq qeyd etmək lazımdır ki, bu platforma dövlət müvəkkili və bütün müvafiq bələdiyyə merlərini, Bələdiyyə Məclisi sədrlərini və Bələdiyyə Məclisi sədrinin müavinini özündə birləşdirir, vətəndaşların iştirak vasitəsi deyil. Onun fikrinə görə: “Vətəndaşlar fəal olaraq qoşulublar, ola bilsin hamı deyil, amma aktual məsələlərlə maraqlanan fəal adamlar var və iştirak edirlər. Biz tez-tez regionlara səfər edirik, kənd əhalisi ilə görüşürük, eləcə də yerli özünüidarələrlə görüşlərimiz olur və əksər hallarda vətəndaşların iştirakını nəzərdə tutan formatlar olur. Onların öz sözünü demək imkanları var”.

### ➔ Hesabatlılıq

Bələdiyyə meri və Bələdiyyə Məclisi üzvləri ildə bir dəfə də olsa, 1 noyabrdan gec olmadan, Bələdiyyə Məclisinin müvafiq sərəncamı ilə müəyyən edilmiş qaydada, bələdiyyənin seçiciləri ilə görüşlər keçirməlidirlər və onlara gördükləri işlər haqqında hesabat verməlidirlər. Hesabatın müzakirəsi zamanı bələdiyyə seçiciləri tərəfindən verilən sualları cavablandırmalıdırlar.

Bələdiyyə ərazisində qeydiyyatda olan seçicinin bələdiyyə meri və Bələdiyyə Məclisi üzvünün ictimai hesabatının müzakirəsində məhdudiyyətsiz şəkildə iştirak etmək hüququ var.

Bələdiyyənin müvafiq orqanları, bələdiyyə meri və Bələdiyyə Məclisi üzvlərinin fəaliyyəti haqqında qanunla qəbul edilmiş hesabatların yayımlanmasını təmin etmək öhdəliyi daşıyırlar[34].

Yerli ictimai təşkilat nümayəndələrinin də fokus-qruplarda qeyd etdiyinə görə, “Planlar kifayət qədər yaxşı və ambisiyalıdır, lakin bələdiyyə qurumları öz fəaliyyətləri ilə bağlı ümumiyyətlə hesabat vermirlər. Gender Şurasının mövcud olmasının məqsədini başa düşə bilmirsən, nə etdikləri görünmür”. Yerli özünüidarə indeksi - www.lsgindex.org da eynisini təsdiq edir. Məcəllənin tələbləri real olaraq qorunmur və bələdiyyələrdə seçilmiş şəxslər hesabatlılığın minimal tələblərini belə qane etmirlər. Şida Kartli bələdiyyələrində 2021-ci ildə hesabatlılığın qanunla və yaxşı təcrübə ilə nəzərdə tutulmuş tələblərinin yalnız 31%-i yerinə yetirilib. Bu isə 2017-ci illə müqayisədə (65%) ciddi şəkildə aşağı göstəricidir. Samtsxe-Cavaxeti regionunun bələdiyyələrindəki göstərici daha aşağıdır və 16%-ə bərabərdir (Bax. Şəkil #4).

**Şəkil #4 - Regional kontekstdə hesabatlılıq**




Eləcə də bələdiyyələrdə də xərclərin təkrarlanması müşahidə olunur – mərkəzi səviyyədə dövlət tərəfindən həyata keçirilən eyni proqramların maliyyələşdirilməsi. Məsələn, Marneuli bələdiyyəsi ciddi şəkildə fiziki imkanları məhdud şəxsin araba almasını maliyyələşdirir. Eyni zamanda isə qeyd olunan proqram mərkəzi hökumət proqramı tərəfindən vauçer maliyyələşdirilməsi yolu ilə də həyata keçirilir.

34 Gürcüstanın üzvi qanunu, Yerli Özünüidarə Məcəlləsi – maddə 88

## ➢ Diskriminasiyanın qadağan edilməsi

Gürcüstan qanunvericiliyi səviyyəsində dövlət məmurları tərəfindən fəaliyyət zamanı diskriminasiyanın bütün formalarını mərkəzi ya yerli səviyyədə qadağan edən çox qanun qəbul olunub. Eləcə də Gürcüstan hökuməti ayrıca həssas qruplar üçün (qadınlar, uşaqlar, milli azlıqlar, fiziki imkanları məhdud şəxslər) əlavə qanunlar qəbul edib. Bu qanunlar zorakılıq və diskriminasiyanın bütün formalarının qarşısının alınmasına istiqamətlənib.

Xalq Müdafiəçisinin 2021-ci ilin "özünüidarə orqanlarının sosial və sağlamlığın müdafiəsi proqramlarının bərabərlik prinsipləri ilə uyğunluğu" hesabatına görə, yerli bələdiyyənin sosial və səhiyyə tipli proqramlarında çox sayda diskriminasiya faktları qeydə alınır. Bu konkret qruplara qarşı stereotiplərin gücləndirilməsinə və ya insan qruplarının qeyri-bərabər şəraitə salınmasına dəstək olur.

Yerli özünüidarə tərəfindən həyata keçirilmiş sosial və səhiyyə proqramları çərçivəsində diskriminasiyaya həvəsləndirən və stiqmanı gücləndirən terminlərdən istifadə halları qeydə alınır. Məsələn, "Epilepsiya xəstəsi", "Parkinson xəstəsi", "Autizm xəstəsi" "Serebral iflic xəstəsi" (Bolnisi bələdiyyəsi), "Arabaya məhkum qalmış" (Qardabani bələdiyyəsi), "Lal-kar" (Bolnisi bələdiyyəsi), "Qlüten xəstəsi" (Dmanisi bələdiyyəsi) və s. kimi səhv terminlərdən istifadə etmək qeyd olunan qruplara qarşı olan damğanı dərinləşdirir.

Eləcə də bərabər dərəcəyə malik həssas vəziyyətdə olan adam qruplarında maliyyə vəsaitlərinin əsassız sıralanma ilə bölüşdürülməsi diskriminasiyalı yanaşmadır. Məsələn, ciddi şəkildə fiziki imkanları məhdud olan və görmə qüsurlu şəxslər, eyni zamanda ağır şəkildə fiziki imkanları məhdud şəxslərdir. Görmə qüsuru yalnız diaqnozdur və bunun əsasında şəxsə status verilib. Eləcə də Bolnisi və Dmanisi bələdiyyələrində vəsait fərqli bölünür, burada görmə qüsurlu şəxslərə üstünlük verilir.

Həmçinin, özünüidarələrin proqramlarında cinsiyyət əlaməti ilə diskriminasiya tərkibli qeydlər də görünür; Məsələn, maddi dəstək yalnız tək analara istiqamətlənib, bu tək atalar üçün müvafiq güzəşti istisna edir (Marneuli bələdiyyəsi).

Həmçinin, əksər hallarda bir proqramdan istifadə edən həssas qrupun bələdiyyənin başqa proqramından istifadə edə bilməməsi də diskriminasiya hesab olunur. Bu halda insanın həssaslığının çoxsaylı səbəblərini nəzərə almırlar. Buna görə, hüquqların tam həyata keçirilməsinə dəstək mümkün olmur (Qardabani və Tetritskaro bələdiyyələri).

Bələdiyyə proqramlarının analizindən görünür ki, həssas və sosial yardıma ehtiyac duyan kifayət qədər çox sayda qrup sadəcə kənarda qalıb. Yerli ictimai təşkilat nümayəndələri ilə aparılan fokus-qrupun iştirakçılarından biri qeyd etdi ki, bələdiyyə proqramlarında yalnız fəallıq göstərən və yerli səviyyədə müəyyən təsir göstərən qrupların maraqlarını nəzərə alırlar. Bələdiyyə səviyyəsində müxtəlif maraqlı qruplara öz ehtiyaclarını bildirmək imkanı yaradacaq hər hansı institutsional mexanizmin olmaması faktı artıq proqramların diskriminasiyalı olması üçün risklər yaradır.

### ➔ Gücləndirmə

Bələdiyyələrdə qanunvericiliyin tələbi ilə və ya yaxşı təcrübə formasında, Fiziki İmkanları Məhdud Şəxs Şuraları, merin Məsləhətçi Şurası, “Qadın Otağı” mövcuddur. Lakin, araşdırmanın keyfiyyət komponentinə qoşulmuş müsahiblərin əksəriyyətinin qeyd etdiyinə görə, qeyd olunan formalar effektiv deyil. Yerli özünüidarə indeksinə (www.lsgindex.org) müraciət etmək də maraqlıdır. İndeksə görə, 8 hədəf bələdiyyədə 2021-ci ilin göstəricilərinə görə, qanundan başqa əlavə iştirak mexanimzlərindən istifadə qrafasında 0% qeyd olunub. Vətəndaş Məsləhət Şurası tərəfindən merə təşəbbüslərin təqdim edilməsi və Bələdiyyə başçısı tərəfindən Mülki Məsləhət Şurasına strateji sənədlərin məcburi təqdim edilməsi qaydaları ilə də vəziyyət demək olar ki, eynidir (Qismən Axaltsixe bələdiyyəsi istisnadır). Yerli ictimai təşkilat nümayəndələri ilə aparılan fokus-qrupa əsasən şuraların olması yalnız formal xarakter daşıyır: “Bilirik ki, yerli bələdiyyələrdə gender, Fiziki İmkanları Məhdud Şəxs Şuraları var. Amma onların fəallığı effektivlik üçün kifayət deyil. Məs: Zorakılıq qurbanı olan qadınlar bizə tez-tez müraciət edirlər və bəzən problemlərin həlli üçün onlara sığınacaqların, müxtəlif xidmtələrin olması barədə məlumat vermək kifayətdir. Bələdiyyədə olan şuralar daha çox qoşula və bu istiqamətdə fəal ola bilərlər. Onlar qadınların, fiziki imkanları məhdud şəxslərin müxtəlif xidmətlərə qoşulmasını təmin edə bilərlər. Fiziki İmkanları Məhdud Şəxslər Şurasının fəaliyyəti son iki ildə dayandırılmışdı. Pandemiyadan irəli gələrək davamlı iclasların keçirilməsi mümkün deyildi və distant fəaliyyət üçün onların təşkilatı müvafiq şəkildə təmin edilməmişdi”.

### ➔ Qanunauyğunluq

Yerli özünüidarələrin sosial və səhiyyə proqramlarından yararlanmaq qaydası şərtləri, əksər hallarda, Gürcüstan Konstitusiyasının 33-cü maddəsinin qeydlərinə uyğun deyil. Maddəyə əsasən Gürcüstanda yaşayan dövlətin başqa vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin Gürcüstan vətəndaşına bərabər hüquq və öhdəlikləri var. Eləcə də “xaricilər və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında” Gürcüstan qanunun 25-ci maddəsinin 2-ci bəndinə əsasən, Gürcüstanda bütün xarici vətəndaşlar qanun qarşısında eynidir. Həmin qanunun 31-ci maddəsinə əsasən, Gürcüstanda daimi yaşayan xaricinin Gürcüstan vətəndaşı kimi yardım (təaqüd və başqa növ sosial təminat) almaq hüququ var. Bələdiyyənin proqram qeydlərinə görə, əksər hallarda, proqram axtaran şəxs Gürcüstan vətəndaşı və ya konkret qeyd olunan bələdiyyədə qeydiyyatda olan şəxs olmalıdır (əvvəlcədən qeyd edilmiş vaxta qədər).

Araşdırma çərçivəsində aparılan fokus-qruplar və dərin müsahibə qeydlərinə görə, qeyd olunan məsələ Samtsxe-Cavaxetidə yaşayan Axıska türkləri üçün problemlidir- “Samtsxe-Cavaxetidə Axıska türkləri yaşayır, onlar etnik azlıqlara məxsus deyillər, çünki real olaraq gürcüdürlər, onların repatriasiya prosesi öhdəliklərdən sonra başlayıb, amma onların vəziyyəti də kifayət qədər çətindir. Çünki vətəndaşlıq almaq problmləri var, dil bilmirlər və vətəndaşlıq almaq üçün dövlət dilində imtahan verə bilmirlər. Tətbiq edilmiş, sadələşdirilmiş prosedurlarla vaxt məhdudiyyətinə görə, əksəriyyət vətəndaşlıq ala bilmədi. Vətəndaşlığı olmadığına görə, xidmətlərin əlçatanlığı baxımından daha çox problem yaranır. Çox sayda səhiyyə, təhsil proqramları vətəndaşlığa bağlıdır. Xidmətdən yararlanmaq üçün daha artıq pul ödəməli olurlar. Bunların hamısı qayıtmış əhalinin Gürcüstandan yenə getməsinə aparıb çıxara bilər”.

Baza araşdırmasının fokus-qrupları çərçivəsində koronavirusdan yaranmış pandemiyanın yerli hakimiyyətin fəaliyyətinə təsiri də qiymətləndirildi. Məlum oldu ki, həssas vəziyyətdə olan şəxslər birdəfəlik yardım alırdılar,

bu pul yardımı, qida məhsulları ilə yerində təhvil verməklə təminat və s. idi. Müsahiblər həmin dövrdə yerli hakimiyyət tərəfindən göstərilmiş diqqətdən razıdırlar. Ancaq bəzisinin qiymətləndirməsinə görə, hakimiyyət tərəfindən göstərilən yardım pandemiya şəraitində yaranmış ehtiyaclara uyğun deyildi.

Baza araşdırmasının kəmiyyət komponenti, sorğu çərçivəsində aydın oldu ki, müsahiblərin 39% özünüidarə orqanlarının fəaliyyətindən (Samtsxe-Cavaxeti-48%, Kvemo Kartli – 30%) razıdır (Bax. Cədvəl #16). Lakin əməkdaşların ixtisas səviyyəsi, nepotizm, əhali ilə passiv ünsiyyət və s. problem olaraq müəyyən edilib.

**Cədvəl #16**

| Ümumiyyətlə, yerli özünüidarə orqanlarının fəaliyyətindən nə dərəcədə razısınız? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Tam narazı | 3.7% | 10.9% |
| Daha çox narazı | 10.7% | 24.7% |
| Həm razı həm narazı | 36% | 30.5% |
| Daha çox razı | 37.1% | 17.7% |
| Tam razı | 10.4% | 12.5% |
| Cavabdan imtina | 2% | 3.8% |

Reqresiya modelinə görə, bələdiyyənin fəaliyyətindən ən çox razı olan müsahiblər bunlardır: a) Şəhər sakinləri; b) Yuxarı yaş nümayəndələri; q) Son 2 il ərzində yerli özünüidarəyə səhiyyə xidməti ilə əlaqədar məsələlərə görə müraciət edənlər; d) Son 1 il ərzində məntəqənin ümumi toplantısında iştirak edənlər.

# BAŞLIQ 2. HƏDƏF BƏLƏDIYYƏLƏRDƏ MÖVCUD OLAN KOMMUNAL INFRASTRUKTURUN QIYMƏTLƏNDIRILMƏSI

Baza araşdırmasının kəmiyyət komponentinə qoşulmuş əhali bələdiyyədə/məntəqədə olan kommunal infrastrukturun vəziyyətini qiymətləndirdi. Baxmayaraq ki, fokus-qrup iştirakçılarının qiymətləndirməsinə görə, son illərdə kommunal və yol infrastrukturu bələdiyyələrdə yaxşılaşdırılıb, kənd təsərrüfatına qoşulmuş şəxslər üçün suvarma suyu sistemi yenidən problemdir (Əksər məntəqələrdə mərkəzləşdirilmiş irriqasiya (suvarma) sistemi işləmir (72%) (Samtsxe-Cavaxeti-85%, Kvemo Kartli – 67%)); Kvemo Kartlidə yayda içməli su problemi də yaranır; Eləcə də kanalizasiya sistemi də qaydasında deyil, bəzi məntəqələr ekoloji təhlükə qarşısında qalır. Kəmiyyət araşdırması müsahiblərinin əksəriyyəti mərkəzi kanalizasiya sisteminin olmadığını qeyd edir (65%) (Samtsxe-Cavaxeti-52%, Kvemo Kartli – 78%).

Sorğu iştirakçılarının əksəriyyətinə (97%) faktiki olaraq 24 saat ərzində elektrik enerjisi verilir (Samtsxe-Cavaxeti-98%, Kvemo Kartli – 93%). Onun gücü isə qışda, eləcə də başqa mövsümlərdə qənaətbəxşdir. Əsasən, tədqiqat aparılan yaşayış məntəqələrində mərkəzi qaz boru xətti işləyir (Samtsxe-Cavaxeti-79%, Kvemo Kartli-88%). Ümumilikdə, müsahiblərin 78% qazla təchizat xidmətindən razıdır (Bax. Cədvəl #17).

**Cədvəl #17**

| Qazla təchizatdan nə dərəcədə razısınız (mərkəzi qaz təchizatı, qaz balonları nəzərdə tutulur)? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=567) | Kvemo Kartli (N=579) |
|---|---|---|
| Tam narazı | 4.5% | 5.1% |
| Daha çox narazı | 9.2% | 4.7% |
| Həm razı həm narazı | 7.5% | 11.8% |
| Daha çox razı | 29.4% | 22.1% |
| Tam razı | 49% | 55.9% |
| Cavabdan imtina edirəm | 0.3% | 0.4% |

Kəmiyyət tədqiqatında iştirak edən şəxslərin yarıdan çoxu (53%) evdə (mənzildə) mövcud olan kran suyundan ev təsərrüfatını su ilə təmin etmək üçün istifadə edir (Samtsxe-Cavaxeti- 58%, Kvemo Kartli – 48%). Əhalinin onda birindən çoxusu isə evdən kənarda yerləşən, su şirkətinin ümumi kranının suyundan istifadə edir. Müsahiblərin qiymətləndirməsinə görə, içməli su demək olar davamlı gəlir (Samtsxe-Cavaxeti-62%, Kvemo Kartli – 41%) və əsasən keyfiyyətlidir (41%). Ev təsərrüfatlarının su ilə təchiz edilməsi məqsədi ilə gələn suyun miqdarı kifayət qədər, suyun qiyməti isə əlçatan olaraq qiymətləndirildi.

Kəmiyyət araşdırmasında iştirak edən müsahiblərin əsas hissəsi qeyd edir ki, onların məntəqəsində küçənin təmizlənməsi və tullantıların daşınması təcrübəsi var. Daha artığı, bu demək olar gündəlik xarakter daşıyır.

Küçələrin təmizlənməsi təcrübəsində Kvemo Kartli ilə (20%) müqayisədə Samtsxe-Cavaxeti (48%) fərqlənir. Sorğuda iştirak edənlərin əksəriyyəti (təxminən 74%) yuxarıda qeyd olunan kommunal xidmətlərdən razıdır.

## BAŞLIQ 3. İQLIM DƏYIŞIKLIYI VƏ ONDAN YARANMIŞ SAĞLAMLIQ PROBLEMLƏRI

Baza tədiqatının sorğu komponentində iştirak edən şəxslərin əksəriyyəti (71%) iqlim dəyişikliyi haqqında məlumatlıdır (Samtsxe-Cavaxeti – 74%, Kvemo Kartli – 68%). Müsahiblərin əsas hissəsi ətraf mühitin dəyişikliyi baxımından quraqlıqların, yağıntıların və küləklərin tezliyini qeyd edir. Kvemo Kartlidə quraqlıqların tezliyi (27%), Samtsxe-Cavaxetidə isə küləklərin tezliyi (24%) üstünlük təşkil edir.

Sorğuda iştirak edənlərin əsas hissəsi hesab edir ki, iqlim dəyişikliyi sağlamlıqla bağlı müxtəlif tipli infeksiyaların yayılması, virus xəstəliklərinin yaranması/yayılması, xərçəngin artması, ölüm hallarının artması kimi mənfi nəticələrə səbəb olmur. Ancaq, digər tərəfdən təxminən hər üçüncü müsahib hesab edir ki, iqlim dəyişikliyi ətraf mühitin mənfi dəyişməsi nəticəsində ürək xəstəliklərinin (32%) və insultun (31%) artmasına səbəb olur. (Bax. Cədvəl #18).

**Cədvəl #18**

| Sizin fikrinizcə, yaşayış yerinizdə (şəhər/bələdiyyə mərkəzi/qəsəbə/kənd) iqlim/ətraf mühitin dəyişməsi sağlamlıq üçün aşağıdakı mənfi təsirlərdən hər hansı birinə səbəb olurmu? (Region konteksti) | | Qətiyyən səbəb olmur | 2 | 3 | 4 | Birmənalı olaraq səbəb olur | Cavab verməkdə çətinlik çəkirəm/cavab verməkdən imtina |
|---|---|---|---|---|---|---|---|
| Daşıyıcıları həşəratlar və onurğasızlar olan müxtəlif növ infeksiyaların yayılması. Belə xəstəliklər, məsələn, malyariya və başqalarıdır | Samtsxe-Cavaxeti(N=448) | 28.8% | 27.9% | 16% | 6.7% | 9.7% | 11% |
| | Kvemo Kartli (N=412) | 31.6% | 26.2% | 17.6% | 6.1% | 6.4% | 12% |
| Virus xəstəliklərin (qrip, hepatit C, suçiçəyi və s.) mənşəyi/yayılması | Samtsxe-Cavaxeti (N=448) | 24.9% | 20.6% | 20.6% | 7.4% | 15% | 11.4% |
| | Kvemo Kartli (N=412) | 25.5% | 27.2% | 22.1% | 7.1% | 7.1% | 11% |
| Mənfi səviyyədə dəyişən ətraf mühitin (çirklənmiş su, hava, qida, yüksək istilik və s.) səbəb olduğu ürək xəstəliklərinin artması | Samtsxe-Cavaxeti (N=448) | 16.2% | 15.7% | 28.8% | 14.8% | 17.8% | 6.7% |
| | Kvemo Kartli (N=412) | 13.7% | 19.6% | 28.4% | 19.6% | 11.5% | 7.3% |

| Sizin fikrinizcə, yaşayış yerinizdə (şəhər/bələdiyyə mərkəzi/ qəsəbə/kənd) iqlim/ətraf mühitin dəyişməsi sağlamlıq üçün aşağıdakı mənfi təsirlərdən hər hansı birinə səbəb olurmu? (Region konteksti) | | Qətiyyən səbəb olmur | 2 | 3 | 4 | Birmənalı olaraq səbəb olur | Cavab verməkdə çətinlik çəkirəm/cavab verməkdən imtina |
|---|---|---|---|---|---|---|---|
| Mənfi səviyyədə dəyişmiş ətraf mühitin (çirklənmiş su, hava, qida, yüksək istilik və s.) səbəb olduğu insultun artması | Samtsxe-Cavaxeti (N=448) | 15.2% | 17% | 26.6% | 17.2% | 15.2% | 8.7% |
| | Kvemo Kartli (N=412) | 12.5% | 16.2% | 30.9% | 19.9% | 10.3% | 10.3% |
| Mənfi səviyyədə dəyişmiş ətraf mühitin (çirklənmiş su, hava, qida, yüksək istilik və s.) səbəb olduğu xərçəngin artması | Samtsxe-Cavaxeti (N=448) | 19.3% | 19.5% | 24.7% | 12.1% | 15.7% | 8.7% |
| | Kvemo Kartli (N=412) | 11.1% | 12.3% | 39.1% | 15.2% | 8.4% | 14% |
| Ölüm hallarının artması | Samtsxe-Cavaxeti (N=448) | 18.2% | 24.5% | 19.6% | 13.5% | 12.8% | 11.5% |
| | Kvemo Kartli (N=412) | 12.5% | 13.7% | 34.3% | 14.2% | 9.3% | 15.9% |

Müsahiblərin əksəriyyəti (60%) iqlim dəyişikliklərini öz regionları üçün mühüm məsələ hesab edirlər (Samtsxe-Cavaxeti- 49%, Kvemo Kartli – 72%). Digər tərəfdən, qeyd etmək lazımdır ki, Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərdən təxminən, hər beşinci adam ətraf mühitin dəyişikliklərini mühüm olaraq qiymətləndirir.

# BAŞLIQ 4. ƏSAS NAILIYYƏTLƏR VƏ TÖVSIYƏLƏR[35]

## Nailiyyətlər

- Əhalinin sosial müdafiəsi bələdiyyənin könüllü səlahiyyətlərinin bir formasıdır (evsiz şəxslərin sığınacaqla təmin edilməsi). Bu deməkdir ki, yerli özünüidarənin əhalinin sosial müdafiəsini təmin etmək kimi birbaşa öhdəliyi yoxdur. Bu vəziyyət həssas qrupları öz hüquq və mənafelərini səmərəli şəkildə qorumaq üçün əlverişsiz vəziyyətə salır;
- 8 hədəf bələdiyyə təxminən gəlirlərin 4,82%-ni sosial yardım proqramlarına xərcləyir[36]. Bütün bu resurs isə əsasən əhaliyə tibbi dəstək və birdəfəlik sosial yardım kateqoriyaları üçün nəzərdə tutulub;
- Sosial yardımın əsas vasitəsi daha çox birdəfəlik maddi yardımdır və sistemli dəstək mexanizmlərinin hazırlanmasına yönəldilmir;
- Köməkçi qurğular proqramının xidmət təminatçıları əsasən paytaxtda cəmləşib, buna görə də proqrama müraciət edən şəxs regiondan Tbilisiyə getməli olur;
- Sosial yardımın birbaşa hədəf qrupları qadınlar və milli azlıqlar deyil;

35 Aşağıda qeyd olunan nailiyyətlər bütün hədəf bələdiyyələrə aiddir. Əgər hansısa nailiyyət konkret bələdiyyəyə aiddirsə, bu mətndə qeyd olunub.

36 Göstəricilər 2022-ci ilin 29 may tarixinə görə hesablanıb.

- Tsalka bələdiyyəsi mövcud sosial proqramların birdəfəlik maddi və ya qeyri-maddi xarakterli olduğu yeganə bələdiyyədir;
- Bələdiyyələrin sosial proqramları bir çox hallarda ayrı-seçkilik xarakteri daşıyır, proqramın qeydində əsasən ayrı-seçkilik xarakterli terminlərdən istifadə olunub, əsaslandırılmadan, mahiyyətcə eyni şəraitdə olan digər qrupla müqayisədə çox vaxt bir konkret qrupa üstünlük verilir;
- Bələdiyyələrin sosial proqramları əksər hallarda mərkəzi sosial proqramların təkrarıdır, burada yerli regional spesifikası əks olunmur. Məsələn, bələdiyyələr artıq mərkəzi hökumətdən böyük maliyyələşdirmə alırlar. Sağlamlıq problemləri olan insanlar üçün dərman və ya tibbi əməliyyatlar baxımından qarşılıqlı maliyyə verirlər. Müvafiq olaraq, digər həssas insanların ehtiyacları az araşdırılır və müvafiq proqramlar inkişaf edir;
- Proqramlarda nəzərdə tutulan minimum standartlara nail olmaq üçün tələb olunan müvafiq kadr və ya resursların olmaması səbəbindən mərkəzi sosial proqramlar hədəf bələdiyyələrdə parçalanmışdır.
- Mərkəzi sosial proqramların xidmət təminatçıları əsasən Tbilisidə qeydiyyatdan keçmiş və hədəf bələdiyyələrdə filiallar açmış təcrübəli təşkilatlardır. Əslində, yerli təşkilatların mərkəzi sosial proqramların xidmət təminatçısı kimi qeydiyyatdan keçmək marağı yoxdur, bu da lazımı maliyyə və insan resurslarının aşağı səviyyədə əlçatan olması ilə əlaqədardır;
- Sosial yardım proqramlarından sosial yardımın forması və onun nəticəsi arasında səbəb-nəticə əlaqəsini müəyyən etmək mümkün deyil;
- Seçilmiş maraq qrupları üçün sosial yardım nəzərdə tutulub və müvafiq əsaslandırma olmadan konkret qruplara (Fiziki imkanları məhdud şəxslər, sağlamlıq problemləri olan şəxslər, evsiz və yoxsullar, uşaqlar) üstünlük verilir;
- Sosial yardım proqramlarının tərtibi zamanı qərarlar qəbul edilən zaman proqram benefisiarlarının və onların maraqlarını müdafiə edən ictimai təşkilatların effektiv iştirak mexanizmləri nəzərə alınmayıb;
- Bələdiyyələrin büdcə proqramlarını qiymətləndirən zaman aydın olur ki, bəzi hallarda proqram nəticələrinin ölçülməsi üçün göstəricilər və meyarlar müəyyən edilmir və ya mövcud olduqda da çox ümumi xarakter daşıyır. Bələdiyyələr proqramların yekun nəticələrini hesablamır və/və ya ictimaiyyətə çatdırmırlar;
- Sosial yardımla bağlı qərarların qəbul edilmə prosesi əvvəlcədən müəyyən edilmiş metodologiyaya əsaslanmır, yaxud metodologiya çox ümumidir və yalnız qərarların qəbulu prosesində iştirak edən tərəfləri təsvir edir;
- Həssas qruplar üçün nəzərdə tutulan Məsləhət Şuralarında əksəriyyət meriyanın dövlət məmurlarıdır və bu şuralara bələdiyyənin yüksək siyasi məmurları rəhbərlik edirlər. Sosial yardım proqramlarının benefisiarları və onların hüquqlarını müdafiə edən təşkilatlar kifayət qədər təmsil olunmurlar;
- Bələdiyyələr vətəndaşların iştirakı və şəffaflığı istiqamətində təşkilati və maddi-texniki şəraitin yaradılması öhdəliyini nəzərə almırlar (onlayn petisiya, sosial proqramlar haqqında istifadəçiyə uyğunlaşdırılmış distant məlumat xidməti və ərizənin, o cümlədən müraciətin distant verilməsi şəraiti, həmçinin, büdcə layihəsinə baxılarkən mer nümayəndələrinin kabinetlərindən istifadə etmək, proaktiv

proqram benefisiarlarının məlumatlandırılması və onların sessiyalarda birbaşa iştirakının mümkünlüyü və s.); Həmçinin vətəndaşların iştirakını dəstəkləyən büdcə proqramı olmalıdır. Bu həssas maraq qruplarının iştirakı üçün daha geniş şərait yaradacaq.

## Tövsiyələr

| İnsan hüquqlarına əsaslanan 5 əsas prinsip | Tövsiyələr |
|---|---|
| İştirak | Yerli proqramlarda, büdcədə, insan hüquqları və iştirak vasitələrinin əsas cərəyanı məqsədi ilə metodologiya hazırlansın;<br><br>Bələdiyyənin sosial və səhiyyə xidmətləri yerli ehtiyacların araşdırılması və analizi əsasında, eləcə də hüquq sahibi olan qruplar üçün müvafiq şəraitin yaradılması ilə onların effektiv iştirakını təmin etmək üçün hazırlanmalıdır;<br><br>Şuralar tərəfindən hazırlanmış planların və fəaliyyətlərin effektiv həyata keçirilməsi üçün yerli bələdiyyələrin bazasında mövcud olan müxtəlif şuralar üçün müvafiq resursların ayrılması; |
| Hesabatlılıq | Hesabatlılığın effektiv mexanizminin tətbiq edilməsi məqsədi ilə bələdiyyə və Xalq Müdafiəçisi Aparatının əməkdaşlığı;<br><br>Monitorinq baxımından, yerli özünüidarələrin hesabatlılıq mexanizminin tətbiq edilməsində müvafiq Parlament Komitələri və Şuralarının iştirakı artırılsın; |
| Diskriminasiyanın qadağan edilməsi | “Diskriminasiyanın bütün formalarının qarşısının alınması haqqında” Gürcüstan qanununun tələbləri ilə bağlı proqramların həyata keçirilməsinə görə məsuliyyət daşıyan yerli özünüidarə heyəti hazırlanmalıdır ki, diskriminasiya terminləri aradan qaldırılsın. Həmçinin, heyət həssas vəziyyətdə olan şəxslərin ehtiyaclarının müəyyən edilməsi və prioritetlərin aşkarlanması baxımından da hazırlanmalıdır ki, hər hansı qrupa üçün maliyyə və başqa resursların bölünməsi zamanı diskriminasiya xarakterli yanaşma olmasın; |
| Gücləndirmə | Yerli səviyyədə etnik , dini azlıqlara və qadınların gücləndirilməsinə istiqamətlənmiş pilot layihələr yaradılsın;<br><br>Vətəndaş Məsləhət Şuralarının şərait və iştirakını artırmaq məqsədi ilə siyasət və büdcənin planlaşdırılması-həyata keçirilməsi prosesində əlavə hüquqi və praktiki zəmanətlər yaradılsın;<br><br>Mərkəzi sosial proqramların bələdiyyə səviyyəsində inkişafı məqsədi ilə proqram standartının qane edilməsi və xidmətə başlamaq üçün mühüm olan müvafiq resurs ayrılsın (maliyyə, məkan); |
| Qanunauyğunluq | Yerli Özünüidarə Məcəlləsi Gürcüstan Konstitusiyasına, Gürcüstan qanunlarına (Məs. diskriminasiyanın bütün formalarının qarşısının alınması haqqında) və beynəlxalq müqavilələrə uyğun olmalıdır. |

## ƏLAVƏ #1 FOKUS-QRUPDA IŞTIRAK EDƏN TƏŞKILATLARIN SIYAHISI :

- Sosial Ədalət Mərkəzi (SJC);
- Gürcüstan Gənc Hüquqşünaslar Assosiasiyası (GGHA);
- Demokratiya Tədqiqat İnstitutu (DRI);
- Hamı üçün Əlçatan Mühit (AEE);
- “Sapari” İttifaqı
- Tolerantlıq və Rəngarənglik İnstitutu (TDI).

## ƏLAVƏ #2 KEYFIYYƏTLI ARAŞDIRMA ÇƏRÇIVƏSINDƏ ISTIFADƏ OLUNMUŞ VASITƏLƏR

Samtsxe-Cavaxeti və Kvemo Kartlidə olan sosial xidmətlərin əsas tədqiqatı və kontekstin analizi

**Dərin müsahibə vasitəsi**

**(Xalq Müdafiəçisi Aparatı və Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi üzrə Dövlət Naziri Aparatının nümayəndələri üçün)**

Sizi salamlayıram, mən ---------- (müsahibə götürənin ad və soyadı), araşdırmalar üzrə təşkilat – Sosial Araşdırmalar və Analiz İnstitutunu təmsil edirəm. Bizim təşkilatın məqsədi Samtsxe-Cavaxetinin 2 (Axaltsixe və Ninotsminda) və Kvemo Kartlinin 6 bələdiyyəsində (Marneuli, Dmanisi, Bolnisi, Tsalka, Tetritskaro və Qardabani) yerli özünüidarə və ictimai təşkilatların fəaliyyətini öyrənməkdir; Həmçinin, əhalinin, eləcə də həssas qrupların müxtəlif xidmətlərə əlçatanlığı və yerli proseslərə qoşulması araşdırılacaq. Qeyd olunan tədqiqat Qafqaz Ekologiya Qeyri-Hökumət Təşkilatları Şəbəkəsinin (CENN) sifarişi ilə aparılır.

Müsahibə təxminən 1 saat davam edəcək və araşdırma üçün mühüm olan bütün dəyərli məlumatların yekun analitik hesabata düşməsi üçün qeydə alınacaq. Sizin gizliliyiniz qorunacaq və qeydlər ictimailəşdirilməyəcək.

Araşdırmada iştirak etdiyiniz üçün sizə minnətdarlığımızı bildiririk.

- Xahiş edirik, özünüzü təqdim edin. Adınızı, hansı təşkilatı təmsil etdiyinizi, mövqeyinizin və öhdəliklərinizin nə olduğunu bildirəsiniz.

**Hissə 1. Həssas qruplar**

1. Xahiş edirik, Gürcüstanda olan həssas qrupların tiplərini/kateqoriyalarını müəyyən edin.
   - ✓ Niyə bu qrupları ən həssas hesab edirsiniz?
   - ✓ Sizin qiymətləndirmənizə görə, bu qrupların qarşısında dayanan ən mühüm problem nədir?
   - ✓ Əsasən hansı həssas qrupun hansı hüquqları pozulur?

**Hissə 2. Bələdiyyə/mərkəzi xidmətlər**

2. Sizin qeyd etdiyiniz həssas qruplar üçün mərkəzi, regional və yerli səviyyədə, əsasən, hansı sosial proqramlar/xidmətlər var?
3. Sizin məlumatınıza görə, həmçinin, həssas qrupların ehtiyaclarını nəzərə almaqla bələdiyyə xidmətləri yerli əhaliyə, nə dərəcədə əlçatandır? Bələdiyyədə/regionda hansı xidmətlər yaxşılaşdırılmalıdır?
4. Xahiş edirik, yerli əhalinin, həmçinin, həssas qrup üzvlərinin müxtəlif sosial, səhiyyə, təhsil, kommunal, işlə təmin edilmə xidmətlərindən və s. faydalanma/axtarma prosesində qaşılaşdığı əsas maneələrdən danışasınız.
5. Sizcə, mərkəzi və bələdiyyə proqramları həssas qrupların hansı hüquqlarının həyata keçirilməsinə kömək edir?
6. Mövcud sosial və səhiyyə xidmətləri həssas qrupların tələblərinə nə dərəcədə adekvat cavab verir? Niyə belə düşünürsünüz?
7. Sizin məlumatınıza görə, pandemiya həssas qruplara xidmətdən faydalanmaq baxımından hansı təsir göstərib? Regional/yerli hakimiyyət və ictimai təşkilatlar nə etdi?

**Hissə 3. Əlçatanlığın yaxşılaşdırılması**

8. Sizin qiymətləndirmənizə görə, sosial və səhiyyə xidmətləri həssas və qeyri-həssas qruplar üçün bərabər şəkildə əlçatandırmı? Xahiş edirik, konkret çatışmazlıqlar haqqında danışasınız? Qeyri-bərabərlik halında hansı addımlar atılmalıdır?
9. Xahiş edirik, yerli hakimiyyətin həssas qruplar üçün nəzərdə tutulmuş xidmətlər haqqında ünsiyyət strategiyasını qiymətləndirəsiniz.
10. Sizcə, səhiyyə və sosial proqramların hazırlanması zamanı hansı faktorlar nəzərə alınmalıdır ki, təklif olunan xidmətlər benefisiarların, həmçinin, həssas qrupların ehtiyaclarına tam uyğun olsun? Həssas qrupların və digər yerli icmaların rifahını təmin edən/qoruyan xidmətləri daha effektiv və səmərəli etmək üçün mövcud xidmətlər/proqramlar/siyasətlər necə təkmilləşdirilə bilər?

**Hissə 4. Vətəndaşların, o cümlədən həssas qrupların yerli idarəetmənin həyata keçirilməsinə cəlb edilməsi**

11. Sizcə, yerli özünüidarənin həyata keçirilməsində iştirak etmənin ən çox yayılmış formaları hansıdır? Niyə?
12. Sizcə, vətəndaşların xüsusilə də həssas qruplarla bağlı mövcud problemlərin həllinə qoşulması nə dərəcədə effektivdir?
13. Necə düşünürsünüz, vətəndaşların yerli özünüidarənin həyata keçirilməsində iştirak etməkdən imtina etməsinin əsas səbəbləri nədir?
14. Necə düşünürsünüz, ictimaiyyətin qərar qəbul etmə və sosial xidmətlərlə bağlı mühüm məsələlərin advokatlaşdırılması prosesində iştirakına nə həvəsləndirə və daha çox dəstək ola bilər?

**Hissə 5. İctimai təşkilatların həssas qruplarla bağlı fəaliyyətinin qiymətləndirilməsi**

Sizin qiymətləndirmənizə görə, ictimai təşkilatların əhali, eləcə də həssas qruplar üçün mühüm xidmətlərin yaxşılaşdırılmasının, əlçatanlğının artırılması prosesindəki rolu necə idi və necədir?

15. İctimai təşkilatlar xidmətlərin inkişafı baxımından hansı əsas sahələrə mühüm töhfə veriblər? Bu məsələ ilə bağlı hansı konkret nümunələr qeyd edə bilərsiniz?
16. Sizcə, ictimai təşkilatlar həssas qruplara hansı faydalar gətirir? Və əksinə - onların işində mənfi bir şey görürsünüzmü?

**Hissə 6. (Qeyd: qeyd olunan blok yalnız Xalq Müdafiəçisi Aparatının nümayəndəsinə şamil edilir) Xalq Müdafiəçisi Aparatının həssas qruplarla bağlı fəaliyyətinin qiymətləndirilməsi.**

17. Əhalinin, o cümlədən həssas qrupların lazımı xidmətlərə əlçatanlığının yaxşılaşdırılması və artırılması prosesində Xalq Müdafiəçisi Ofisinin rolu nədən ibarət idi və nədən ibarətdir?
18. Xalq Müdafiəçisi Aparatı sosial xidmətlərin əlçatanlığının artırılması baxımından hansı əsas istiqamətlərdə mühüm töhfə verib? Bununla bağlı konkret nümunələr göstərə bilərsinizmi?
19. Sizcə, Xalq Müdafiəçisi həssas qruplara sosial xidmətlərin əlçatanlığını artırmaq üçün əlavə nə edə bilər?

**Hissə 7. (Qeyd: qeyd olunan blok Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi üzrə Dövlət Nazirinin Aparatına aiddir) Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi üzrə Dövlət Naziri Aparatının həssas qruplarla bağlı fəaliyyətinin qiymətləndirilməsi.**

20. Əhali, o cümlədən həssas qruplar üçün zəruri xidmətlərə əlçatanlığın yaxşılaşdırılması və artırılması prosesində Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi üzrə Dövlət Naziri Aparatının rolu nədən ibarət idi və nədən ibarətdir?
21. Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi üzrə Dövlət Naziri Aparatı hansı əsas sahələrdə sosial xidmətlərin əlçatanlığının artırılmasına mühüm töhfə verib? Bununla bağlı konkret misallar göstərə bilərsinizmi?
22. Sizin fikrinizcə, Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi üzrə Dövlət Naziri Aparatı həssas qrupların sosial xidmətlərə əlçatanlığını artırmaq üçün başqa nə edə bilər?

- Müsahibənin sonunda danışdığımız bu məsələlərlə əlaqədar hansısa əlavə etmək istəyirsinizmi?

Sizinlə sağollaşırıq. Çox sağ olun!

# SAMTSXE-CAVAXETI VƏ KVEMO KARTLIDƏ OLAN SOSIAL XIDMƏTLƏRIN ƏSAS TƏDQIQATI VƏ KONTEKSTIN ANALIZI

**İnsan hüquqları üzrə çalışan və sosial xidmətlər göstərən vətəndaş ictimai təşkilat nümayəndələrinin fokus-qrup vasitəsi**

Sizi salamlayıram, mən ---------- (moderatorun ad və soyadı), araşdırmalar üzrə təşkilat – Sosial Araşdırmalar və Analiz İnstitutunu təmsil edirəm. Bizim təşkilatın məqsədi Samtsxe-Cavaxetinin 2 (Axaltsixe və Ninotsminda) və Kvemo Kartlinin 6 bələdiyyəsində (Marneuli, Dmanisi, Bolnisi, Tsalka, Tetritskaro və Qardabani) yerli özünüidarə və ictimai təşkilatların fəaliyyətini öyrənməkdir; Həmçinin, əhalinin, eləcə də həssas qrupların müxtəlif xidmətlərə əlçatanlığı və yerli proseslərə qoşulması araşdırılacaq. Qeyd olunan tədqiqat Qafqaz Ekologiya Qeyri-Hökumət Təşkilatları Şəbəkəsinin (CENN) sifarişi ilə aparılır.

Müzakirə təxminən 1 saat 30 dəqiqə davam edəcək və araşdırma üçün mühüm olan bütün dəyərli məlumatların yekun analitik hesabata düşməsi üçün qeydə alınacaq. Sizin gizliliyiniz qorunacaq və qeydlər ictimailəşdirilməyəcək.

Araşdırmada iştirak etdiyiniz üçün sizə minnətdarlığımızı bildiririk!

**Giriş - müzakirə iştirakçıları ilə tanışlıq**

Zəhmət olmasa, özünüz haqqında ümumi məlumat verin.

- Sizin adınız;
- Hansı təşkilatı təmsil edirsiniz;
- Sizin təşkilat coğrafi baxımdan harada yerləşir ;
- Təşkilatınız hansı profil/hansı məsələlər üzərində işləyir;
- Sizin vəzifə və öhdəlikləriniz nədir.

**1-ci hissə: Sosial və səhiyyə xidmətlərinin qiymətləndirilməsi**

Dövlətin həssas qruplarla (Fiziki imkanları məhdud şəxslər, etnik azlıqlar, yaşlılar, aztəminatlılar və s.) ilə bağlı siyasətini necə qiymətləndirərdiniz?

1. Sosial xidmətlər, səhiyyə xidmətləri, infrastruktur proqramları, təhsil xidmətləri, kommunal xidmətlər və s. sahəsində hazırlanmış siyasət sənədlərində, təlimatlarda və ya fəaliyyət planlarında hansı çətinliklər və boşluqlar mövcuddur?
2. Sizcə, mövcud çatışmazlıqların düzəldilməsi üçün hansı addımlar atılmalıdır?
3. Sizcə, sosial və səhiyyə xidmətləri həssas və qeyri-həssas qruplar üçün eyni dərəcədə əlçatandırmı? Xahiş edirik, həm mərkəzi, həm də bələdiyyə proqramlarında konkret çatışmazlıqlar barədə danışardınız?

Sizcə, qeyri-bərabərlik halında hansı təsirli addımlar atılmalıdır?

4. Sizin məlumatlarınıza görə, xidmətlər yerli və mərkəzi hökumət tərəfindən necə planlaşdırılır, həyata keçirilir və qiymətləndirilir? Onları istiqamətləndirən xidmət standartı varmı? Xidmət keyfiyyəti necə qiymətləndirilir/ölçülür?
5. Həssas qruplar üçün nəzərdə tutulmuş xidmətlər haqqında yerli hakimiyyətin ünsiyyət strategiyasını qiymətləndirin. Xahiş edirik əlavə olaraq, ictimai təşkilatların həssas qruplarla ünsiyyət strategiyası haqqında danışasınız.
6. Sizcə, səhiyyə və sosial proqramların hazırlanması zamanı hansı faktorlar nəzərə alınmalıdır ki, təklif edilən xidmtələr benefisiarların, həmçinin, həssas qrupların ehtiyaclarına uyğun olsun?
7. Mövcud sosial və səhiyyə xidmətləri həssas qrupların tələblərinə nə dərəcədə adekvat cavab verir? Niyə belə düşünürsünüz?
8. Sizin məlumatınıza görə, pandemiya həssas qruplara (fiziki imkanları məhdud şəxslər, etnik azlıqlar və s.) xidmətdən faydalanmaq baxımından hansı təsir göstərib? Regional/yerli hakimiyyət və ictimai təşkilatlar nə etdi?
9. Sizin məlumatlarınıza görə, mövcud sosial və səhiyyə xidmətləri benefisiarlar üçün nə dərəcədə əlçatandır?
10. Xahiş edirik, yerli əhalinin, həmçinin, həssas qrup üzvlərinin müxtəlif sosial, səhiyyə, təhsil, kommunal, işlə təmin edilmə xidmətlərindən və s. faydalanma/axtarma prosesində qaşılaşdığı əsas maneələrdən (belə hal olarsa) danışasınız.
11. Həssas qrupların və digər yerli icmaların rifahını təmin edən/qoruyan xidmətləri daha effektiv və səmərəli etmək üçün mövcud xidmətlər/proqramlar/siyasətlər necə təkmilləşdirilə bilər?

**Hissə 2: Vətəndaşların, o cümlədən həssas qrupların yerli idarəetmənin həyata keçirilməsinə cəlb edilməsi**

Sizcə, yerli özünüidarənin həyata keçirilməsində iştirak etmənin ən çox yayılmış formaları hansılardır? Niyə?

12. Sizcə, vətəndaşların xüsusilə də həssas qruplarla bağlı mövcud problemlərin həllinə qoşulması nə dərəcədə effektivdir?
13. Necə düşünürsünüz, vətəndaşların yerli özünüidarənin həyata keçirilməsində iştirak etməkdən imtina etməsinin əsas səbəbləri nədir?
14. Necə düşünürsünüz, ictimaiyyətin qərar qəbul etmə və sosial xidmətlərlə bağlı mühüm məsələlərin advokatlaşdırılması prosesində iştirakına nə həvəsləndirə və daha çox dəstək ola bilər?

**Hissə 3: Vətəndaş cəmiyyəti təşkilatlarının həssas qruplarla bağlı fəaliyyətinin qiymətləndirilməsi**

1. Sizdə olan məlumata görə, xidmət göstərən ictimai təşkilatlar xidmətləri/fəaliyyətləri necə planlaşdırır, həyata keçirir və qiymətləndirirlər?
2. Xidmət göstərən ictimai təşkilatlar prioritetli hədəf qrupları və məsələləri necə seçirlər?
3. Xidmət göstərən ictimai təşkilatlar yerli əhali ilə münasibət zamanı hansı formalardan istifadə edirlər? Mövcud ünsiyyət yolları nə dərəcədə effektivdir? Əlavə nəyi nəzərə almaq olar?

4. Əhalinin ehtiyac duyduğu xidmətlərə əlçatanlığın yaxşılaşdırılması və artırılması prosesində vətəndaş cəmiyyəti təşkilatlarının rolu nədən ibarət idi və nədən ibarətdir?
5. İctimai təşkilatlar xidmətlərin inkişafı baxımından hansı əsas sahələrə mühüm töhfə veriblər? Bu məsələ ilə bağlı hansı konkret nümunələr qeyd edə bilərsiniz?
6. Sizcə, ictimai təşkilatlar həssas qruplara hansı faydalar gətirir? Və əksinə - onların işində mənfi bir şey görürsünüzmü?

- Müsahibənin sonunda danışdığımız bu məsələlərlə əlaqədar hansısa əlavə etmək istəyirsinizmi?

Sizinlə sağollaşırıq,

Çox sağ olun!

**İnsan hüquqlarına əsaslanan üsuldan istifadə etməklə Samtsxe-Cavaxeti və Kvemo Kartlidə mövcud olan sosial xidmətlər kontekstinin təhlili**